

MİRVARİ VERDİYEVA,
ƏSMƏT İSMAYILXANOVA

# ƏXLAQİ-MƏNƏVİ DƏYƏRLƏR

MİRVARİ VERDİYEVA,
ƏSMƏT İSMAYILXANOVA

# ƏXLAQİ-MƏNƏVİ DƏYƏRLƏR

**Azərbaycan Respublikası Təhsil Nazirinin 25.12.2014-cü il tarixli 1300 saylı əmrinə əsasən çap edilir.**

BAKI-2015

**Elmi redaktor:-** **Professor İ.N.İsayev**

**Rəyçilər:** Dos. K.R.Quliyeva (ADPU)

Dos. V.P.Xəlilov (Dillər Universiteti)

# GİRİŞ

1991-ci ildə Azərbaycan Respublikası öz müstəqilliyini elan etdi. Gənc müstəqil dövlətimiz beynəlxalq təşkilatlarla, inkişaf etmiş ölkələrlə siyasi, iqtisadi, hərbi, humanitar, təhsil, idman və s. sahələrdə müxtəlif məzmunlu müqavilələr imzalamaqla inkişaf etmiş ölkələrin sırasına çıxmağa can atır. Hörmətli Prezidentimiz İlham Əliyev daima öz çıxışlarında bir ifadəni xüsusi olaraq qeyd edir ki, Azərbaycan dövləti ölkədə bazar iqtisadiyyatının inkişafı üçün bütün praktiki tədbirləri görür və bu gün Azərbaycanda artıq güclü dövlətə çevrilib. Bundan sonra da güclü sosial siyasət aparılacaq, iqtisadi imkanlarımız genişləndiriləcək:-“Bizim artıq çox böyük maliyyə imkanlarımız, valyuta ehtiyatlarımız və düşünülmüş strateji xəttimiz vardır. Bir sözlə, ölkə daxilində gedən proseslər müsbət istiqamətdə inkişaf edir. Azərbaycan cəmiyyətində ölkənin inkişafı ilə bağlı fikir ayrılığı yoxdur. Bizim daxili imkanlarımıza əsaslanaraq dünya birliyinə sürətlə inteqrasiya etmək, heç kimdən asılı olmamaq, daxili imkanları maksimum şəkildə səfərbər edib ölkə qarşısında duran bütün vəzifələri icra etmək, qonşu ölkələrlə, dünya ölkələri ilə səmərəli əlaqələr yaratmaq istiqamətində strateji xəttimiz dəyişməz olaraq qalır”. Eyni zamanda ölkəmizin qəbul etdiyi yeni Konustitusiyada olduqca mütərəqqi qanunlar öz əksini tapmışdır. Bu qanunlar xalqımızın hər bir üzvünə söz, iradə, inanc azadlığı bəxş etmişdir. Hər kəsin təhsil almaq hüququ vardır. Milli Məclisdə daima ölkəmiz üçün yeni olan, lakin demokratik ölkələrdə olduğu kimi xalqın

mənafeyinə xidmət edən qanunlar qəbul olunmaqdadır. Bu qanunların hər biri xalqımıza xoşbəxt həyat bəxş etməyin təminatçısıdır. Lakin ölkəmizdə nə qədər mütərəqqi və gözəl qanunlar qəbul olunursa-olsun, əhalinin müasir şəraitdə idealoji cəhətdən maariflənməsinə böyük eytiyac hiss olunmaqdadır. Çünki söz, iradə azadlığını hər kəs özü bildiyi kimi dərk edərək qəbul edir. Azadlıq özü də nisbi anlayışdır və müəyyən çərçivədə, müəyyən hədd daxilində, müəyyən ölçüdə olmalıdır. Əks təqdirdə azadlıq anarxiyaya çevrilə bilər. Bu azadlığı xalqımıza müstəqil Azərbaycan Respublikasının Konstitusiyası bəxş edib. Konstitusiyada 10 maddədə birbaşa insanların bərabərliyi, ailə, yaşamaq azadlığı və s. məsələlərə həsr edilmiş mütərəqqi qanunlar öz əksini tapmışdır. Hər bir insan daxilində öz-özünə şüurlu şəkildə hesa-bat verməyi, tutduğu yolun düzgün olub-olmamasına ağlının gücü ilə qərar verməyi bacarmalıdır. Quran oxumaq hər bir insan üçün olduqca faydalıdır və vacibdir. Sevimli peyğəmbərimiz Məhəmməd Əleyhissəlam buyurmuşdur:-Kim Quran oxuyarsa, qarşılığını Allahdan istəsin! Quran öyrənin! Həqiqətən o, Qiyamət günü öz əhli üçün şəfaətçi olacaq! Bu gün islam dinini öyrənmək və Quranı oxumaq olduqca aktual olan həyatı bir məsələyə çevrilmişdir. Dünyanın bütün inkişaf etmiş ölkələrindəki orta məktəblərdə şagirdlərə digər elmlərlə yanaşı dini bilgilər də öyrədilir. Hətta İtaliya dövləti 2006-cı ilin mart ayında ölkə ərazisində yerləşən müsəlman məktəblərində "İslam dini" dərsinin keçirilməsinə qərar verdi. Bizim ölkəmizdə təhsil sahəsində islahatlar aparılır və təhsilimiz dünyanın təhsil sis-

teminə inteqrasiya olunmaqdadır. Artıq cəmiyyətimizdə uşaqların dini bilgiləri öyrənməsi həyatımızın tələbinə çevrilmişdir. Hazırda Res-publikamızın orta ümumtəhsil məktəblərində tədris olunan interaktiv xarakterli "Həyat bilgisi" fənninin "Mənəviyyat" bölməsində şagirdlərə islam dini, islam müqəddəsləri, islami dəyərlər haqqında sistemli şəkildə məlumat verilir. Həzrəti Məhəmməd Peyğəmbər buyurmuşdur:Bu dünya üçün elə çalış ki, sanki bu dünyada əbədi qalacaqsan! Axirət üçün elə çalış ki, sanki, sabah öləcəksən! Müqəddəs Quranda isə belə deyilir:-Sizin ən yaxşılarınız həm bu dünya üçün və həm də axirət üçün çalışanlardır. Son zamanlar ziyalılar arasında "milli-mənəvi dəyərlər" və ya "əxlaqi-mənəvi dəyərlər" ifadəsi tez-tez səslənməkdədir. Xüsusən də, bu "dəyərlər"in nədən ibarət olması, hansı normaları özündə əks etməsi, onların kim tərəfindən müəyyən olunması müzakirə obyektinə çevrilməkdədir.

**"Əxlaqi-mənəvi dəyərlər"** dünyanın hər bir xalqına məxus olan əxlaq normalarının məcmuyidir. Hər bir xalqın özünəməxsus əxlaq normaları vardır. Lakin elə əxlaq normaları da vardır ki, onlar bütün bəşəriyyətə xasdır. Müxtəlif irqə mənsub olan, müxtəlif dillərdə danışan və müxtəlif dinə sitayiş edən insanların eyni əxlaq normalarına malik olması onların bir mənbədən qaynaqlandığını göstərir.

**Əxlaq normaları**–insanların davranış qaydalarının məcmuyidir. Bu davranış qaydaları insanların mənəviyyatını zənginləşdirdikdə dəyərə malik olur. Davranış qaydalarına müntəzəm olaraq əməl edən, onu göz-bəbəyi kimi qoruyub saxlayan və nəsildən-nəsilə ötürən millət özününküləşdirə-

rək milliləşdirir. Əsirlər boyu yaşlı nəslin yaşatdığı və gənc nəslə ötürdüyü davranış qaydaları-davranış kodeksi “milli-mənəvi dəyərlər”-“əxlaqi-mənəvi dəyərlər” statusu alır. Özünəməxsus status almış bu davranış normalarını kim müəyyən etmişdir? Nə üçün bu qaydalar meydana gəlmişdir? Nə zamandan Yer üzündə davranış normaları müəyyən edilmişdir? Bütün bu sualların cavabını müqəddəs dini kitabımız olan Qurani Kərimdən oxumaq mümkündür. Belə ki, insanı Yaradan Tanrı onun davranış normalarını da müəyyən etmişdir. Yer üzündə insanın yarandığı dövrdən müasir dövrümüzə qədər olan bir vaxtda “əxlaqı-mənəvi dəyərlər” qorunub saxlanmış, nəsildən-nəslə ötürülmüşdür. Lakin müxtəlif xalqlar onu özünə xas olan tərzdə yaşatmışdır və milliləşdirmişdir. Nəinki insanlar, hətta bütün heyvanların həyat tərzini öyrəndikcə, aydın olur ki, onların da özünəməxsus davranış qaydaları vardır. “Əxlaqi-mənəvi dəyərlər” hər bir insanın həyatda tutduğu yoldur və bu yol əxlaq normalarından, cəmiyyət içərisindəki davranış qaydalarından, insanlar arasındakı münasibət formalarından ibarətdir. Bu dəyərlərin hər birinin mahiyyəti kitabda geniş şərh edilmişdir. Dərs vəsaiti pedaqoji universitetlərdə pedaqogika, milli əxlaq və ailə etikası fənnindən müəllim və tələbələrin istifadəsi üçün nəzərdə tutulmuşdur. İnanırıq ki, kitabda verilmiş məsələlər geniş oxucu kütləsinin marağına səbəb olacaqdır.

# I FƏSİL. MƏDƏNİYYƏT

**“Mədəniyyət”** geniş bir məvhum olub ağılla tənzimlənən çoxşaxəli davranış normalarının məcmuyidir. Hər bir xalqın özünəməxsus mədəniyyəti vardır. Lakin dünyada mövcud olan bütün xalqların mədəniyyətinin ümumi tərəfləri vardır və bu xüsusiyyətlər bəşəri mədəniyyətin olmasını labud edir. Əxlaq, ailə, dostluq, namus, abır-həya, qonşuluq, qayıkeşlik, mənəviyyat və s. xüsusiyyətlər vardır ki, bunlar məhz bütün xalqlara məxsusdur. Bəşəriyyətin bu ən ülvi mədəniyyət normalarını özündə cəmləşdirərək “insan mədəniyyəti məvhumu”nu yaradır.

## 1.1. Əxlaq mədəniyyəti

Xalqımız gözəl əxlaqa malikdir. Əsrlərin sınağından çıxaraq günümüzə qədər gəlib bizə çatan əxlaq normaları bu gün də qorunmaqdadır. Lakin bəzi ünsürlər bu normaların çərçivəsindən çıxmaqla yanaşı əxlaqdan kənar davranışları təbliğ edərək gənclərimizin tərbiyəsinə mənfi təsir edirlər. Müasir dövrdə demokratiya adı altında itaətsizliyə, qeyri-əxlaqi davranışlara meydan açırlar. Bu bir tərəfdən bəzi insanların məsuluyyətsizliyindən irəli gəlirsə, digər tərəfdən isə xarici emissarların bilərəkdən xalqımızın əxlaqını pozmaq üçün həyata keçirə bildiyi təbliğatın bəhrəsidir. Yadda saxlamaq lazımdır ki, əxlaqlı insanlara təsir etmək, onları

idarə etmək, itaətsizliyə sövq etdirmək və köləyə çevirmək çox çətindir. Əxlaqı nöqsanlı insanları isə idarə etmək çox asandır.

Xalqımız əxlaq mədəniyyətini müxtəlif sözlərlə ifadə edirlər. Hər kəs bu sözlərin mənasını dərk edir:-Vicdanlı, namusli, qeyrətli, səxavətli, mərdanə, comərd, xeyirxah, təvazökar, iradəli, mətin, səbirli, kamil, vüqarlı, etibarlı, qorxmaz, cəsarətli, abırlı, həyalı, ismətli və s. Bu sifətlərə sahib olan insanlar əxlaq mədəniyyətindən irəli gələn "kişi xarakterinə" malik olurlar. Qadın və ya kişiyə aid edilən "kişi xarakteri" cinsiyyəti göstərmir, insani keyfiyyətlərin, əxlaq normalarının məcmuyidur. Müqəddəs Quranda deyilir:

-...Allah Ona təvəkkül edənləri sevər!(3/159) ...Allah özünü bəyənənləri və lovğalıq edənləri sevməz!(4/37)... Allah günaha batmış xaini sevməz!(4/107) Allah Ona iman gətirən və Ondan möhkəm yapışan kimsələri öz mərhəmətinə, lütfünə alar və onları Özünə tərəf gedən düz yola salar.(4/175)...Allah yaxşı iş görənləri sevər.(5/93)...Allah zalım tayfanı doğru yola salmaz.(6/114)...Allah həddi aşanları sevməz!(7/55)...Allah... kafirlərin hiyləsini zəiflədəndir! (8/18)...Allah həqiqətən möminlərlədir. (8/19)...Allah fasiq qövmü doğru yola yönəltməz.(63/6)...Səbr edin, çünki Allah səbr edənlərlədir.(8/46)...Allah xainləri sevməz! (8/58) Sizə gələn hər bir nemət Allahdandır!(16/53)...Rəbbin (öz bəndələrini) unudan deyildir.(19/64)...Allah zalımları daha yaxşı tanıyandır.(6/58)...yolundan azanları ən yaxşı tanıyan Rəbbindir. Haqq yola yönələnləri də ən yaxşı bilən Odur! (6/117) Allah hər şeyə şahiddir!(22/17)...O nə etdiyinizi

görəndir.(41/40)...Hökm Allahındır və O, ən tez haqq-hesab çəkəndir.(6/62) ...Rəbbiniz olan Allahdan qorxun!(65/1)

-Kafir qadınları öz kəbininiz altında saxlamayın! (60/10) Zinaya da yaxın düşməyin! Çünki, o, çox çirkin bir əməl və pis bir yoldur! (17/32) Ya Məhəmməd! Mömin kişilərə de ki, gözlərini haram edilmiş şeylərdən çevirsinlər, naməhrəmə baxmasınlar, ayıb yerlərini zinadan qorusunlar, örtsünlər. Bu onlar üçün ədəb-ərkan, təmizlik baxımından daha yaxşıdır. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır! (24/30) Mömin qadınlara de ki, gözlərini haram buyrulmuş şeylərdən çevirsinlər, ayıb yerlərini zinadan qorusunlar. Öz-özlüyündə görünən istisna olmaqla zinətlərini göstərməsinlər, baş örtüklərini yaxalarının üstünə çəksinlər...(24/31) Evlənməyə qüvvəsi çatmayanlar (maddi) Allah öz lütfü ilə onlara dövlət verənə qədər özlərini zinadan qoruyub saxlasınlar...Kim cariyələrini (xitmətçilərini) zinakarlığa məcbur edərsə...günah ağalarının boynuna düşər. (24/34) Adamlardan təkəbbürlə üz çevirmə, yer üzündə lovğa-lovğa gəzib dolanma, Həqiqətən, Allah heç bir özündən razını, lovğalanıb fəxr edəni sevməz!(31/18)... Allah malına qürrələnib sevinənləri sevməz!...(28/76) Murdar qadınlar murdar kişilərə, murdar kişilər isə murdar qadınlara, eləcə də, təmiz qadınlar təmiz kişilərə, təmiz kişilər isə təmiz qadınlara layiqdirlər...(24/26)

Hər kəs özünə başqaının gözü ilə baxmağı bacarmalıdır və davranışlarını araşdırıb, əxlaqını götür-qoy etməyi bilməlidir! Mədəniyyətində əxlaqi normalarında hansı

ünsür çatışmırsa, onu dərhal bərpa etməlidir! Hər kəs bilməlidir ki:-Allah hər şeyə şahiddir! (22/17)

## 1.2. Danışıq mədəniyyəti

Allah hər şeyi cüt yaratdığından, sözləri də cüt yaratmışdır. Yaxşı sözlərlə yanaşı pis sözlər də vardır. Pis sözləri hər kəs bilir. Lakin hər kəs bu sözləri ağzına alıb danışmağı öz əxlaqına, mədəniyyətinə sığışdırmır. Əxlaqında qüsur olan insanlar üçün pis sözləri danışmaq o qədər də çətinlik törətmir və hətta belə danışıq tərzi xoşlarına gəlir. Ailədə yalnız yaxşı sözlərdən ibarət danışıq eşidən hər hansı bir uşaq küçədə eşitdiyi pis sözləri danışmağa utanar. Çünki, o daima valideynlərində gözəl danışmaq mədəniyyəti görüb. Ailəsində müntəzəm olaraq pis sözlərlə bir-birinə müraciət edən valideynlərin övladları isə harada olmağından asılı olmayaraq pis sözləri danışmaqdan çəkinməz. Qurani Kərimdə danışıq mədəniyyətinin müəyyən edilmiş normaları vardır:

-Allah **pis sözün** açıq, ucadan deyilməsini sevməz. Yalnız zülm edilmiş şəxslər müstəsnadır. Allah hər şeyi eşidən və biləndir.(4/148)...Danışanda səsini qaldırma. Çünki, ən çirkin səs uzunqulaq səsidir.(31/29) Ey iman gətirənlər! Bir-birinizlə xəlvət danışdığınız zaman günah, düşmənçilik barədə danışmayın, yaxşı işlər, Allahdan qorxmaq barədə danışın!(58/9)...Yad kişilərlə yumşaq, əzilə-əzilə danışmayın, yoxsa qəlbində mərəz, şəkk, günah mərəzi olan tamaha, özgə təmannaya düşər. Danışdığınız zaman gözəl danışın. Allahın buyurduğu kimi, qəbul olunmuş qayda üzrə

gözəl, ciddi bir söz deyin!(33/32) Dalda qeybət edib, üzdə tənə vuranın vay halına!...(104/1)...küfr edənin küfrü öz əleyhinə olar (zərərini özü çəkər)...(35/39)...Bir qövm digərini lağa qoymasın...(49/11)

Uşaqlar dil açandan valideynləri və digər böyüklər tərəfindən ona danışmaq öyrədilir. Uşaq danışdıqca onun dili rəvanlaşsın, sözləri düzgün tələffüz etsin və nitqi gözəl olsun deyə, xalqımızın müxtəlif üsul və metodlarından istifadə edilir. Bu məqsədlə də yanıltmaclar, tapmacalar, rəvayətlər, nağıllar, dastanlar, şeir parçaları, qaravəllilər və s.-dən istifadə olunur. Məsələn:-"r" hərfini deyə bilməyən uşaqlara içərisində çoxlu sayda "r" hərfi olan yanıltmaclar öyrədilir və uşaqdan bu yanıltmacı tez-tez, lakin düzgün tələffüz etməklə söyləməsi tələb olunur. Uşaq yanıltmacı tələb olunan qaydada söyləməyə çalışdıqca dilindəki nöqsanı düzəlir və o özü də hiss etmədən "r" hərfinin deyiliş qaydasını öyrənir. Məktəbə getdikdən sonra isə müəllimlər fənnindən asılı olmayaraq uşaqlara düzgün danışmağı öyrədirlər. Valideynlərin və böyüklərin borcudur ki, uşaqlara gözəl danışmaq mədəniyyətini öyrətsinlər. Əgər valideyn öz övladına pis sözləri danışmağı öyrədirsə o, Allah qarşısında günah edir. (Bəzi valideynlər körpə uşaqlara söyüş öyrədirlər və uşağın söyməsi xoşlarına gəlir).

Azərbaycan dili olduqca zəngin, gözəl səslənən və poetik bir dildir. Bu dili xalqımıza uca Tanrı verib. Tanrının verdiyi nemətə xor baxmaq olmaz! Bu barədə Qurani Kərimdə deyilir:-Göylərin və yerin yaradılışı, **dillərinizin** və rənglərinizin müxtəlifliyi də Onun qüdrət əlamətlərindəndir...

(30/22) Deməli, ana dilimiz Tanrının qüdrət əlamətlərindəndir. Tanrının qüdrət əlamətinə xor baxmaq isə günahdır. Dilinizə hörmətlə yanaşın! Digər dilləri bilmək çox yaxşıdır, lakin öz ana dilindən imtina etmək, öz dilində danışmağı qəbahət saymaq, xüsusən də, ailədə ailə üzvlərinin bir-birləri ilə öz ana dilində deyil, yad dildə danışması qəbahətdir. Əvvəl, ana dilini öyrənmək, sonra isə yad dilləri öyrənmək lazımdır ki, dünyada başqa millətlərlə ünsiyyət qura bilsinlər. Belə bir atalar məsəli vardır:-Düşməni yıxmaq istəyirsənsə, əvvəlcə düşmənin dilini öyrən! Azərbaycan Respublikasının Konstitusiyasının Maddə 45. Ana dilindən istifadə hüququnda deyilir:

I. Hər kəsin ana dilindən istifadə etmək hüququ vardır. Hər kəsin istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ vardır.–Burdan belə bir nəticəyə gəlmək olar ki, heç bir valideyn öz övladını ana dilini öyrənməkdən məhrum etmək haqqı yoxdur. Valideyn mütləq öz övladına ana dilini öyrətməlidir. Yalnız bundan sonra ona digər dilləri öyrənməkdə kömək edə bilər. Əgr valideyn ana dilini öyrənməkdən öz övladını məhrum edirsə, o ilk növbədə Azərbaycan Respublikasının Konstitusiyasını pozmuş olur ki, bu da qanunla qadağan edilir. Eyni zamanda xalqımızın dili Tanrı tərəfindən verilmişdir və xalqımız da Allahın verdiyi dilə böyük sevgi ilə yanaşır. Ana dilini sevmək Tanrının bəxş etdiyi neməti  sevməkdir və bu hər kəsin Tanrı qarşısında müqəddəs borcudur. Bu səbəbdən də dilinə hörmət etməyən şəxs Tanrının qüdrət əlamətinə laqeyid yanaşdığına görə Allah qarşısında günah etmiş olur. Valideyn-

lər öz övladlarına Tanrının bəxş etdiyi dili mükəmməl öyrətməyə borclu olduqlarını bilməlidirlər. Çox təəssüf ki, sovet hökuməti dövründə bəzi valideynlər ana dilini deyil, məhz rus dilini uşaqlarına sevdirib. Son vaxtlar isə ingilis dilini öyrətmək dəbə düşüb. Başqa dilləri öyrənmək müasir dövrdə inkişaf etmək üçün əlverişlidir. Lakin ana dilini övladına öyrətməmək ona hörmətsizlik etmək deməkdir, bu isə yolverilməzdir və Tanrının bəxş etdiyi nemətdən imtina etmək deməkdir. Belə hərəkət Tanrıya qarşı çıxmaq və günah qazanmaq kimi qiymətlənir. Allah istəsəydi xalqımıza azərbaycan dilini deyil, başqa bir dili bəxş edərdi. Allah isə xalqımıza məhz azərbaycan dilini bəxş etmişdir və bu dili mükəmməl öyrənmək, sözləri olduğu kimi tələffüz etmək və onu sevmək hər birimizin Tanrı qarşısında insanlıq borcumuzdur! Tanrının sevgisini qazanmaq üçün onun bəxş etdiyi dili gözəl və mükəmməl öyrənmək, gözəlliklə də danışmağa çalışmaq lazımdır!

## 1.3. Geyim mədəniyyəti

Müqəddəs Quranda deyilir:-Şeytan Adəmə dedi:-Sənə meyvəsindən yeyəcəyin təqdirdə heç vaxt ölməyəcəyin və həmişə Cənnətdə yaşayacağın əbədiyyat ağacını və köhnəlib xarab olmayan bir mülkü göstərimmi?...Adəm və Həvva həmin ağacın meyvəsindən yedilər və dərhal hər ikisinin ayıb yerləri göründü. Onlar lüt bədənlərinə Cənnət ağaclarının yarpaqlarından yapışdırmağa başladılar. Beləliklə, Adəm Rəbbinin əmrindən çıxdı, amma mətləbinə yetmədi... Həvva ilə birlikdə Yer üzünə endirildi. (20/120,121) Ayədən

göründüyü kimi ilk insanların yaradılışında paltar geyinmək olmayıb, lakin onların bədənləri örtülü olub. İslam mədəniyyətinə görə insanın bədəni örtülü olmalıdır. Bu əxlaq mədəniyyətinin ən vacib tərəfidir. Quranda deyilir:

-Mömin qadınlara de ki:-...öz-özlüyündə görünən istisna olmaqla, zinətlərini göstərməsinlər, baş örtüklərini yaxalarının üstünə çəksinlər...gizlətdikləri bəzək şeylərini (xalxallarını) göstərmək üçün ayaqlarını (yerə və ya bir-birinə) vurmasınlar...(24/31)

Lakin paltarın geyilməsində də ağıl əsas rol oynayır. Geyim mədəniyyətinin də əsas şərtləri vardır:

1. **Bədənin ölçüsünə uyğun libas geymək** lazımdır (dəbdə olan libası deyil, bədəninizə yaraşan libasları geyinin. Libasın dar olması insanın sinir sisteminin və qan dövranının normal rejimini pozur, düzgün yeriməsinə mane olur və tədricən xəstəlik mənbəyinə çevrilir. Uşaqların dar libas geyinməsi onların bədəninin normal böyüməsinə mane olur).
2. **Fəsillərə uyğun geyinmək** lazımdır (yayda açıq rəngli, pambıq, ipək və ya kətan materialdan, qışda isə tünd rəngli, yun parçadan. Fəsillərə uyğun geyinmək bədənin temperaturu ilə havanın temperaturu arasında uyğunluğun yaradılmasına xidmət edir).
3. **Havaya uyğun geyinmək** lazımdır (isti havada açıq rəngli, kətan, ipək və ya pambıq parçadan, soyuq havada tünd rəngli, yun parçadan). Paltar dərini isti və soyuq hava ilə birbaşa təmasdan qoruyur və bədənin temperatur rejimini tənzimləməsinə kömək edir.
4. **Libasların rəngi müntəzəm** dəyişdirilməlidir (pal-

tarın rəngi insanın əhval-ruhiyyəsinə təsir edir, daima eyni rəng geyinmək olmaz. Rənglər günəşin müxtəlif şualarını əks etdirdiyindən rəng çalarlarını tet-tez dəyişdirmək vacibdir).

**5. Libasın materialına diqqət** etmək lazımdır! Təbii material bədənin sağlam olmasına şərait yaradır.

**6. Libasın təmiz və səliqəli** olmasına diqqət edin (belə libaslar sağlamlığın əsas şərtidir).

**7. Libası məqsədə müvafiq geyinmək** vacibdir (ev, iş, ziyafət, toy, yas, toplantı, gəzinti və s. nəzərə alınmalıdır). Namaz qılarkən və ya məscidə gedərkən insanların geyindiyi libas isə tamam ayrı olmalıdır–daha gözəl və lazım olan qaydada :-Adəm oğulları! Hər ibadət vaxtı gözəl libasınızı geyin...(7-31)

**8. Ayaqqabılar** olduqca yüngül, ayağın formasına uyğun və rahat olmalıdır ki, yeriyəndə insan sanki quş kimi uçduğunu hiss etməlidir. Ağır və ya dikdaban, ayağın formasına müvafiq olmayan ayaqqabılar ayaqların sağlamlığına mənfi təsir edir. İnsanın yerişində nöqsanlar yaranır. Libaslarda, ayaqqabılarda və çantalarda metal bəzəklərin az olması sağlamlığın qorunmasına xidmət edir. Çünki, metallar ağırlaşdırıcı təsirə malikdir və insan orqanizminə mənfi təsir edir.

**9.** Gündəlik işə və ya gəzintiyə götürülən **çantalar** da yüngül, yığcam olmaqla yanaşı içərisində yalnız zəruri olan əşyalar yerləşdirilməlidir. İri və ağır çantalar bədənin daima ağır yük altında olmasına və hərəkətlərin məhdudlaşdırılmasına səbəb olur. Tədricən insanda müxtəlif ağırlaşdırıcı

halların yaranmasına gətirib çıxardır.

**10. Saç düzümü**nün də insanın həyatında əsas rolu var dır. Saç düzümü üzün cazibədar olmasına xidmət edir. Sifətin girdə, uzunsov, arıq, kök olmasından, boğazın uzun və ya qısa olmasından asılı olaraq saç düzümü seçilməlidir. Çünki istənilən saç düzümü hər adamı gözəl göstərmir. Saç düzümü də adətən fəsillərə uyğunlaşdırılmalı və gediləcək yerin məqsədinə xidmət etməlidir. Eyni zamanda saç düzümü elə olmalıdır ki, tellər üzü örtməsin. Bu olduqca vacibdir. Yəqin ki, "alnıaçıq" sözünü eşitmisiniz. Bu sözün iki mənası vardır. Birinci mənası ondan ibarətdir ki, saç üzə tökülməməlidir. İnsanın üzü daima açıq olmalıdır. Çünki, bütün daxili orqanlar üz sinirləri ilə əlaqədardır. Üzün açıq olması daxili orqanların rahat nəfəs almasına və sağlamlığına xidmət edir. Eyni zamanda gözlərin ətrafı açıq olmalıdır ki, görmə dairəsi geniş olsun. Görmə dairəsinin geniş olması gözlərin görmə funksiyasına xidmət edir. Əgər tellər daima gözləri örtərsə, onda görmə yavaş-yavaş zəifləməyə başlayır və gözlər tədricən nurunu itirir.

**Hər bir insan bəzək əşyalarından istifadə mədəniyyətinə sahib olmağa çalışmalıdır!** Bəzək əşyaları qədim zamanlardan insanlar tərəfindən istifadə olunur. İllər ötdükcə bəzək əşyalarından istifadə etməyin funksiyası dəyişdirilmişdir və insan üçün əhəmiyyəti unudulmuşdur. Bizim dövrümüzdə daha çox qadınların istifadə etdikləri bəzək əşyaları yalnız bəzənmək funksiyasını yerinə yetirir. Bəzi insanlar bəzək əşyaları ilə öyünür, bəzək əşyası olmayan insanlardan özlərini üstün hesab edirlər. Əslində bəzək

əşyalarının müalicəvi əhəmiyyəti vardır və ondan yalnız müalicə məqsədi ilə istifadə etmək lazımdır. Müqəddəs Qurani Kərimdə bu barədə deyilir:

-...Siz malınız və dövlətinizlə imtahan ediləcəksiniz. (3/186)...var-dövlət, cah-calal baxımından onların birini digərindən üstün etdik...(17/21) Mal-dövlət...bu dünyanın bər-bəzəyidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında həm savab, həm də ümid etibarı ilə daha xeyirlidir. (18/46)

Aşağıda bəzi qiymətli daşların xassələri və insan orqanizminə təsiri verilmişdir:

***Kəhrəba (Yantar)***-qurudur. Mədə və ürəyi qüvvətləndirir, əhval-ruhiyyəni yaxşılaşdırır, qanaxmanı dayandırır. Sarılıq, urək döyüntüsü və böyrək zəifliyi hallarında ondan istifadə olunur. Zob xəstəlikləri olanlara yantardan boyunbağı taxmaq məsləhət görülür. Kəhrabanın özündən verdiyi şüa qalxanbənzər vəzin funksiyasının pozulma hallarının bərpa olunmasına kömək edir.

***Əqiq (Aqat)***-xassəcə soyuq və qurudur. Yaxşısı qırmızı və ya ağ hesab olunur. Göz üçün xeyirlidir. Toz halında qanaxmanı dayandırır. Rəvayətə görə əqiq üzük taxanların işi avand olur.

***Gümüş***-soyuq və qurudur. Bəzi cəhətlərdən yaquta yaxındır. Vasvasalıq, dəlilik, urək döyüntüsü hallarında da gümüş əşyadan və qablardan istifadə etmək tövsiyə edilir. Gümüş qablar və gümüş dişlər qida ilə reaksiyaya girmir və paslanmır. Bu səbəbdən də gümüş insanın sağlamlığına dolayısı yolla xidmət edir.

***Firuzə***-soyuq və qurudur. Ürək və mədəni qüvvətləndirir, zəhərlərə qarşı müqavimətlidir. Firuzə üzük və ya əşya gəzdirmək ürəyi qüvvətləndirir. Qorxuya qarşı faydalı hesab edilmişdir.

***Xrizolit***-soyuq və qurudur, xassəcə zümrüdə yaxındır. Cinsi həvəsi öldürür. Xrizolit üzük gəzdirmək qorxuluğa qarşı faydalı hesab olunur.

***Lacivərd (Lazur)***-isti və qurudur. Təbii halda rast gəlinir, həm də mərmər daşından düzəldilir. Qanı saflaşdırır. Ondan düzəldilən üzük və ya digər əşyalar ürəyi möhkəmləndirir. Lacivərddən sürmə kimi müxtəlif göz xəstəliklərinin qarşısını almaq üçün istifadə edilir.

***Qızıl***-qızıl əşyalar urəyi quvvətləndirir, əhval-ruhiyyəni yaxşılaşdırır, ürək döyüntüsü, vasvasalıq hallarında faydalıdır. Böyrək zəifliyi, qara ciyər, böyrək daşı, oynaq ağrıları olanların qızıl üzük gəzdirmələri olduqca faydalıdır və bu həm də ömrü uzadır. Belə hesab edilir ki, qızılın ümumiyyətlə zərərli heç bir xüsusiyyəti yoxdur, bədənin sağlamlığını qoruyub saxlamağa xidmət edir. Qızıl dişlər ağızda qəbul olunmuş qida ilə reaksiyaya girmədiyindən orqanizm üçün təhlükə törətmir.

Qadınların əksəriyyəti toya-nişana gedərkən qonşusundan, qohumundan bəzək əşyaları alıb taxırlar. Bu olduqca pis bir xüsusiyyətdir. Belə ki, insan xəstə olduqda qızıl-gümüş əşyalar həmin xəstəliyin daşıyıcısı rolunu oynayır. Sahibinin xəstəliyini onu taxan insanlara ötürə bilir. Bu səbəbdəndir ki, qızıl-gümüş əşya alanlar bəzən:-bu qızıl mənə düşmədi. Hər dəfə onu taxanda başım ağrıyır, ürəyim

narahat olur və s. deyə, şikayətlənirlər.

İnsanlar çalışmalıdır ki, heç kəsin şəxsi əşyalarından istifadə etməsin. Bu sağlamlıq baxımından çox xeyirlidir. Geyim mədəniyyətinə əməl etmək vacibdir ki, insanlar Tanrının haqq yolunu azmasın. Çünki Tanrı onun qoyduğu qadağaları pozanları cəzalandırmağa qadirdir!

## 1.4. Musiqi mədəniyyəti

Musiqi səslərin ritmik ahəngidir. Hər bir insanın musiqi duyumu vardır. Eyni zamanda Allah təbiəti səssiz yaratmayıb. Hər şeyin, hər bir canlının səsi, avazı vardır. Quşların təranəsi, arının vızıltısı, heyvanların böyürtüsü, ildırımın çaxması, çayların şırıltısı, yarpaqların xışıltısı, küləyin vıyıltısı və s. bu səslərin hər hansına diqqətlə qulaq assanız, görərsiniz ki, hər səsin özünəməxsus ritmi vardır. İstedadlı bəstəkar bu musiqilərə qulaq asıb mahnı bəstələyə bilər. Azərbaycanın görkəmli bəstəkarı Fikrət Əmirovun "Karvan" suitası buna parlaq sübutdur. Bu musiqiyə qulaq asanda sanki, dəvə karvanının ayaq səslərini eşidirsən. Üzeyir Hacıbəyovun musiqiləri də bu baxımdan qiymətli bir xəzinədir. Aşıq musiqisinə və muğama qulaq asdıqda insan sanki qeyri-adi bir aləmə düşür. Bu musiqilərdə ilahi bir qüvvə vardır. Ona görə də hər kəs onu dərk etmir. Belə musiqiləri dinləyərkən qulaqlarınızla deyil, ruhunuzla dinləsəniz, yalnız onda bu ilahi musiqini anlaya bilərsiniz.

Musiqilər əsasən iki qrupa bölünür:

**1. Ruhu qidalandıran musiqi**. Belə musiqilərə "mu-

ğam”, “saz havaları”, “ana laylası” və onlardan mənbə alan “xalq mahnıları”nı misal göstərmək olar. Körpə yaşlarından bu musiqiləri dinləyən və ana laylası ilə yatan uşaqların əsəbləri sakit, daxili aləmi zəngin, mənəviyyatı pak və bütün gözəl xüsusiyyətləri özündə cəmləşdirən xarakterə malik olur. Çünki, bu musiqilər uşaqların ruhunu oxşayır, duyğularına sığal çəkir, əsəblərini sakitləşdirir, mənəvi dünyasını işıqlandırır. Belə ruhda tərbiyə almış uşaqlar gözəl əxlaq sahibi olurlar.

**2. Əsəb sistemində gərginlik yaradan musiqi.** Elə musiqilər vardır ki, insanın sinir sistemini qıcıqlandırır, ruhu gərginləşdirir, beyinin fəaliyyətinə pozucu təsir edir. Çünki, bu musiqilərin ritmindəki qanunauyğunluq pozulmuş, səslərin ahəngi öz axarından çıxmış vəziyyətdə olur.

Eramızda 5000 il öncə Hind fəlsəfəsinə və Asiya mədəniyyətinə görə insanın aorasında 7 enerji mərkəzi vardır. Onlar müntəzəm dövr etdiklərindən “dönən” mənasını daşıyan “çakra” adlandırılmışdır. Bu enerji mərkəzləri insanın vücudunu kainatla əlaqələndirir və kainatdan gələn enerjini qəbul edir.

1. Chakra-Kök Chakrası- (sol)
2. Chakra – Büzdüm Çakrası- (lya)
3. Chakra - Göbek Chakrası- nəfəs alma(do)
4. Chakra – Ürək Chakrası –ürək (fa)
5. Chakra - Boğaz Chakrası -dad bilmə (re)
6. Chakra - Göz Chakrası –görmə (mi)
7. Chakra Taç Chakra-beyin (si)

Hər bir insan istənilən musiqini diqqətlə dinləməli, duyğu-



Çakraların insan bədənində düzülüşü

larına, hisslərinə və ruhuna təsirinə fikir verməlidir. Diqqətli olan hər kəs ruhunu oxşayan musiqiləri asanlıqla ayırd edə biləcəkdir. İnsan əsəb sisteminə pozucu təsir edən musiqilərdən və bayağı sözləri olan mahnılardan özünü qorumağı üçün sadəcə olaraq belə musiqilərə qulaq asmamalıdır! Şöhrət, pul qazanmaq xatirinə "musuqi bəstələyib" cə-miyyətə təbliğat gücünə sevdir-mək istəyən "bəstəkarların" mah-nılarını, musiqilərini deyil, insanlar daxili aləmini gözəl-ləşdirən, Allahın verdiyi istedadın məhsulu olan və ruhu ox-şayan mahnıları, musiqiləri dinləməlidir ki, musiqi mədəniy-yətinə sahib ola bilsın!

## 1.5. Rəqs mədəniyyəti

Hər bir insanda rəqs etmək bacarığı vardır. Rəqs etmək insanın ruhunu qidalandırır, xöş əhval-ruhiyyə yaradır, sinir sisteminin gərginliyini aradan qaldırır. Rəqs etməyin əsas şərti ruhu oxşayan musiqinin səslənməsidir. Musiqi səslənərkən insanın ruhu həmin musiqiyə köklənir. Bu zaman bədən musiqinin ahənginə, ritminə uyğun hərəkət etməyə başlayır. Musiqi və rəqsi hərəkətlər bir-birini tamamlayır. İnsan mənəvi qida alır. Əgər fikir vermisinizsə, ölkəmizdə, xüsusən rayonlarımızdakı toy mərasimlərində, kişilər və qadınlar zurna aşıqlarına özlərinin sevdikləri rəqs havalarını

çalmağı sifariş edirlər. Toyda rəqs edənlər məhz ruhuna uyğun rəqs musiqisini seçirlər:-"heyvagülü", "tərəkəmə", "uzundərə", "vağzalı" və s.

Rəqslər də musiqi kimi iki qrupa bölünür:

**1. Harmonik rəqslər.** Bu rəqs zaman musiqi ruhla həmahəng olur və bədən ritmə uyğun hərəkət edir. Belə rəqslərdə insanın əl və ayağı ritmə uyğun elə rəvan hərəkət edir ki, əzələlərin sirkələnməsi hiss olunmur. İnsanın bütün varlığı ritmləşir və musiqinin ahənginə köklənir. Azərbaycan xalq rəqslərinə diqqət etsəniz bunu asanlıqla müşahidə edə bilərsiniz.

**2. Qeyri-harmonik rəqslər.** Belə rəqslərdə musiqi ruhla həmahəng olmur, bədənin hərəkəti rəvanlaşa bilmir, ritm pozulur və insanın bədən üzvləri sinir sistemi iflic olmuş insanda olduğu kimi qeyri–iradi hərəkət edir. İnsani hərəkətlər qeyri-insani hərəkətlərə çevrilir. Belə rəqsləri kənardan müşahidə etdikdə, dəlinin ağılsız hərəkətlərinə baxdığını zənn edirsən. Atlanıb-düşmək, əl-qol atmaq, başı dəli kimi döndərmək rəqs etmək deyildir. Belə dəlisayağı hərəkətlər sinir sisteminə mənfi təsir edir, insanın mənəviyyatını pozur. Xüsusən də, insanın ruhu qidalana bilmir. Bu cür rəqslərdən uzaq olmağa çalışın! Çalışın ki, rəqs mədəniyyətinə sahib olasınız! "Öz rəqs havanızı" seçmək üçün çalınan rəqs musiqilərinə diqqət edin və ruhunuzla onu duymağa çalışın. Musiqiyə bu cür yanaşsanız "öz havanızı" seçə biləcəksiniz. Hansı rəqs havasının ruhunuzu qidalandırdığını və bədəninizin həmin havaya köklənərək musiqinin ritminə uyğun rəvan ritmik hərəkət etdiyini dərk edəcəksiniz.

Öz havanızı seçin ki, dəlisayağı hərəkət etməkdənsə, baxanların zövqünü oxşayan ritmik rəqs edə biləsiniz.

## 1.6. Sağlamlıq mədəniyyəti

"Sağlam bədəndə sağlam ruh olur!" və "Cavanlıqdan qocalığa can saxla!" məsəlini hər biriniz eşitmisiniz. İnsanın ömrü boyu yaşayıb fəaliyyət göstərməsi üçün sağlamlığının nəzarətdə saxlanılması əsas şərtdir. İnsan sağlam olduqda, orqanizm normal iş şəraitində olur. Belə insanların ağlı kəsərli və enerjisi çox olur. Quranda deyilir:-...**səhhətinin**, sərvətinin, gəncliyinin qədrini bil! ...(28/76)

Sağlam olmaq üçün insan normal qidalanmalı, daima hərəkətdə olmalı və gigiyena mədəniyyətinə sahib olmaq üçün müntəzəm çalışmalıdır.

**1. Qida mədəniyyəti.** İnsan qidalanmasa yaşaya bilməz. Deməli, insanın yaşaması üçün qidalanmaq nəfəs almaq kimi əsas şərtlərdən biridir. İnsanın sağlam olmasının əsasını qida mədəniyyəti təşkil edir. Qida mədəniyyəti dedikdə, əsasən gözəl süfrə, ləziz yeməklər, cürbəcür meyvələr, dəbdə olan qab-qacaqlar nəzərdə tutulur. Mədəni insanların çəngəl-bıçaqla yeməsini vacib sayırlar. Lakin bu deyilənlər qida mədəniyyətinin yalnız zahiri, estetik tərəfidir. Qida mədəniyyəti yeyilən **qidanın tərkibinin, həcminin, ölçüsünün və zamanının** tənzimlənməsinin məcmuyidir. Qida mədəniyyəti dedikdə, aşağıdakı xüsusiyyətlər nəzərdə tutulur:

**1.** Qidanın qəbulu zamanı tərkibini nəzərə almaq!

**2.** Qidanı qəbul edərkən ölçüsünü nəzərə almaq, nə qədər ləzzətli olmasından asılı olmayaraq qədərindən artıq yeməmək!

**3.** Qidanı yeyərkən havanın isti və ya soyuq olmasını nəzərə almaq!

**4**. Qida qəbulu zamanı ərzaqlar arasındakı nisbəti və münasibəti nəzərə almaq!

**5**. Gün və ya həftə ərzində qidaların müxtəlif çeşidli olmasına diqqət etmək!

**6**. Qida qəbulunu fəsillər üzrə tənzimləməyə çalışmaq! (Yayda sərinləşdirici, qışda istiverici qidaları qəbul etmək).

"Ağzınla yemə, ağlınla ye!", "İnsan zərərli şeyləri xoşlayır!"-atalar sözlərini və görkəmli şairimiz Nizami Gəncəvinin:-Bir inci saflığı varsa da suda, artıq içiləndə dərd verir o da" şerini hər biriniz oxumusunuz. Bu hikmətli sözlər yuxarıda sadalanan qaydaları özündə əks etdirir. İnsan xoşuna gələn qidanı hər gün qəbul edərsə, o qidanın tərkibində olan maddələr bədəndə yığılıb qalar və xəstəliyə çevrilər. Yemədiyi, lakin bədənə lazın olan qida isə çatışmaz və yenə də xəstəlik yaranar Bir qida artıq oldu, digəri ça-tışmadı, hər iki halda orqanizm xəstələnir. İsti havada istilik verən qidanın qəbulu zamanı orqanizm artıq hərarətə dözmür, soyuq havada sərinləşdirici qidaların qəbulu bədənin istiliyi itirməsinə səbəb olur. Hər iki halda orqanizmin temperaturu tənzimləməyinə süni şəkildə mane olunur. Uşaqlar 15 yaşına qədər hər gün ən azı 1 stəkan süd içməlidir! Çünki bədənə lazım olan bütün qidalar südün tərkibində vardır. Gündəlik süd, qatıq, şor, pendir və s. süd məhsulları qəbul edən uşaq-

| Qidanın xüsusiyyətləri | Qidalar |
|---|---|
| Səsi açan məhsullar | Yumurta sarısı, kişmiş, reyhan, noxud, paxla, yerkökü, gicirtkən, gülxətmi, əncir, banan, ördək əti, üzərlik və s. |
| Hafizəni gücləndirən məhsullar | İstiot, şalğam, lobya, baldırğan |
| Beyini gücləndirən məhsullar | Dəfnə toxumu, mixək, soğan, heyva, alça, hil, iydə, çobanyastığı, alma, badam, nar, kəklikotu |
| Sidik qovucu məhsullar | Darçın, kahı, qarpız, yemiş, vəzəri, kərəvəz, turp, şüyüd, qabaq, andız, kələm, xiyar, həmərsin, əməkөməci |
| Orqanizmi arıqladan məhsullar | Üzüm, portağal, limon, kahı, şalğam, heyva, turş alma, turş nar |
| Görmə qabiliyyətini gücləndirən məhsullar | Maş lobya, raziyanə, yasəmən iyi, püstə, əncir, gül yağı, kəklikotu,mixək, fındıq, ipək paltar |
| Bədənə istilik verən məhsullar | Doşab, ayran, nanə, süd, bal, darçın, yumurta sarısı, sarıkök, zəfəran, yarpız, bibər, buğda, mal əti, qoyun əti, qaz əti, ördək əti, toyuq əti, düyü |
| Bədəni soyudan məhsul-lar | Qatıq,qarpız, , qatıq,vəzəri,böyürtkən,keçi əti. |
| Qanı duruldan məhsullar | Qarpız, nanə, soğan, innab, nar, üzüm, çay, böyürtkən, ərik, gilas, kahı, zoğal, kərəvəz, alma, armud,sarımsaq, |
| Qanı qatıldan məhsullar | Sumaq, tərxun, keşniş, düyü, şabalıd, keşniş, tərxun. |
| Bədəni rütubətləndirən məhsullar | Üzüm, qarpız, xiyar, çiyələk, |
| Bədəni qurudan məhsul-lar | Sirkə, zəncəfil, zəfəran, yarpız, reyhan, turşəng, moruq, qoz, mal əti, qaz əti, ördək əti, toyuq əti. |
| Qan təzyiqini artıran məhsullar | Bal, qoz, yumurta, noxud, |
| Qan təzyiqini azaldan məhsullar | Zirinc, alça, kəkotu, çobanyastığı, həmərsin, qarpız, sarımsaq, soğan, armud, zoğal, limon, portağal, zeytun |

**Bəzi qidaların insan orqanizminə təsiri**

lar normal böyüyürlər. Südü səhər, qatığı axşam qəbul etmək daha çox faydalıdır. Uşaqların sağlam böyüməsi üçün onların təbii qidalarla qidalanması əsas şərtdir. Çox təəssüf ki, əksər valideynlər uşaqlara lazım olan qidanı deyil, özlərinin xoşladıqları qidanı yedizdirilər. Uçaqların qida rasionunda şirniyyat, ət və un məmulatları azlıq təşkil etməlidir. Əsas qidası isə mey və, tərəvəz, süd məhsulları olmalıdır. Körpə yaşlarından uşaqları qida və yuxu rejiminə alışdırmaq olduqca vacibdir. Uşaqların müntəzəm qidalanması olduqca zərərlidir. Bu zaman həzm prosesi normal iş rejimində olmur, həm də uşaqlar qidaya həris böyüyürlər.

Deməli, qida mədəniyyəti:-qidanı tərkibinə, ölçüsünə, zamanına və qədərinə görə qəbul etmək, yəni "ağılla yemək" deməkdir.

## 1.7. Gigiyena mədəniyyəti

Təbiətə nəzər salsanız görərsiniz ki, hər yan nizamla, səliqə ilə yerləşdirilib. Təbii proseslər elə baş verir ki, təbiət tər-təmiz qalır. Bu təmizlik də Allahın bir lütfüdür. Namazdan əvvəl dəstəmaz almaq–yuyunmaq, ərlə arvadın yaxınlığından sonra mütləq yuyunub qüsl almasının vacibliyi insanları təmiz olmağa sövq edir.

Həcc ziyarətinin əsas məqsədi müqəddəs yeri–Kəbəni ziyarət etməkdir, lakin burada həyata keçirilən bəzi ayinlər – namaz qılarkən dəstəmaz almaq, dırnaq və saç kəsmək kimi əməllərin icrası insanlara gigiyena qaydalarına əməl etməyi öyrədir. Namaz qılmazdan əvvəl dəstəmaz almaq, müəyyən vaxtlarda qüsl almaq, müntəzəm olaraq bədəni, əl-üzü yu-

maq gigiyena qaydalarının əsasını təşkil edir. İnsan orqanizmi nə qədər təmiz olarsa, bədən də bir o qədər sağlam olar. Müntəzəm olaraq bədəninizi yuyun! Dırnaqlarınızı vaxtaşırı kəsin, saçlarınızı səliqə ilə vurdurun! Geyindiyiniz bütün paltarların, istifadə etdiyiniz bütün əşyalarınızın təmiz və səliqəli olmasına çalışın. Evinizi, küçənizi, şəhərinizi və ölkənizi təmiz saxlamaq üçün hər biriniz öhdənizə düşəni yerinə yetirin! Küçələrdə, parklarda, təbiətin qoynunda olarkən təmizliyə riayət edin, zibili lazım olan yerə atın, heç kəs görməsə də, Allah sizi daima görür və nə etdiyinizi bilir.

-...Allah etdiklərinizi biləndir! (10/36)...Allah onların nə etdiklərinə şahiddir! (10/46)...Allah onların etdiklərini görür. (8/39)...Allah başınızın üstündən və ayaqlarınızın altından (göydən və yerdən) sizə əzab göndərməyə ...qadirdir! (6/65)

## 1.8. Bədənin tərbiyəsi

Yəqin ki, "Dədə Qorqud" filmində Qazan xanın "yata-yata yanımız ağrıdı, dura-dura belimiz" sözləri yadınızdadır. Bu sözləri Qazan xan döyüşçülərinə söyləyərkən özlərinin tənbəlləşdiklərini bildirir və döyüş üçün məşq etməyin vacibliyini yada salır.

Təbiətə diqqət edin! Heç nə sükunətdə deyildir. Kainat və onu təşkil edən hər bir zərrəcik daima hərəkətdədir. Hətta insan yatarkən tənəffüs, həzm orqanları, beyni və qan dövranı və s. daima hərəkətdə olur. Ürək müntəzəm olaraq döyünür. Sinir sistemi gecə-gündüz çalışır. Bu hərəkətlərin hər hansı birinin dayanması həyatın məhv olması deməkdir.

İnsanların da daima hərəkətli olması onların həyat sağlamlığının şərtidir. Çünki, kainatı və insanları yaradan Allah belə yaradıb. Hər şey daima hərəkət etməlidir!

Bəzi insanlar iş görməklə idman etməyi eyniləşdirirlər. Xüsusən, qadınlar arasında bu fikir daha çox yayılmışdır. Qadınların əksəriyyəti gündəlik gördüyü işin idman olduğunu düşünür. Əslində, iş görərkən yalnız əllər daima hərəkətdə olur və ayaqlar gedib-gəlir. Bədənin əksər hissələri hərəkətsiz qalır, bu da həmin hissələrdə qan dövranının ləng hərəkət etməsinə səbəb olur. Nəticədə bədənin hərəkətsiz hissələrində illər keçdikcə qan dövranında problemlər yaranır və xəstəlik mənbəyinə çevrilir. İnsanın sağlam olması üçün müntəzəm olaraq hər gün müəyyən vaxtlarda bədən tərbiyyəsi ilə məşğul olmasını adətə çevirmək lazımdır! “Kim sevirsə idmanı, poladdan olar canı!” mahnısının sözlərini yəqin ki, hər kəs bilir. Gün rejimini tərtib edib və işə mane olmayan vaxtlarda müntəzəm olaraq idmanla məşğul olmaq lazımdır! İdman insanı sağlam həyata qovuşduracaq, tənbəllikdən xilas edəcək, bu münvalla Tanrının sağlamlıq barədə qanunlarına əməl etmiş olacaqdır!

Bədən tərbiyəsi idman etmək demək deyil. Bədən tərbiyəsi bədənin ağılla tərbiyə edilməsidir. Yəni insan öz bədənini elə tərbiyə edir ki, o bədən ağıla tabe olur. Lazım olan anda bədəni yatızdırır və ya oyadır, lazım olan qidanı yeyir və ya ondan imtina edir, bədəni onun enerjisinin çatdığı qədər işlədir və ya dincə qoyur, ruha lazım olan “qidanı” qəbul edir və ya ruha zidd olanlardan imtina edir və s. Bədənin hərəkətli olmasına və bu hərəkətin bütün

bədən üzvlərində eyni qaydada paylanmasına şərait yaradır. Hər bir insan çalışıb öz bədənini tərbiyə etməlidir!

## 1.9. Davranış qaydaları

Xalqımızın gözəl adətlərindən biri də **davranış qaydalarıdır**. Hər bir valideyn çalışır ki, övladlarına kiçik yaşlarından davranış qaydalarını öyrətsin. Bəzən nadan insanlara davranış qaydalarını xatırlatdıqda:-Bu qanun harada yazılıb ki, mən özümü belə aparmalıyam? Necə istəyirəmsə elə də edirəm–deyir. Əslində hər kəsin "yazılmayan qanun" kimi tanıdığı qaydalar insanları yaradan Tanrısı tərəfindən müəyyənləşdirilmişdir. Deməli, "davranış qaydaları" əslində Allah tərəfindən yazılmışdır və insanlar bu qaydaları öyrənib əməl etməyə borcludurlar. Əks təqdirdə Allah tərəfindən cəzalanırlar. Müqəddəs Quranda deyilir:

-Sizə **salam** verildiyi zaman onu daha gözəl alın və ya (eyni ilə sahibinə) qaytarın! Şübhəsiz ki, Allah hər şeyi gözə alandır! (4/86) Hər kəs xəta edib onu günahsız bir adamın boynuna atırsa, şübhəsiz ki, öz boynuna böhtan və açıq-aşkar günah götürmüş olar (günah üstündən günah qazanmış olra). (4/112) Allah **pis sözün** açıq, ucadan deyilməsini sevməz. Yalnız zülm edilmiş şəxslər müstəsnadır. Allah hər şeyi eşidən və biləndir. (4/148) Lakin hər kəs gördüyü haqsız işdən sonra tövbə edib özünü düzəltsə, Allah onun tövbəsini qəbul edər. Həqiqətən, Allah bağışlayan və rəhm edəndir. (5/39) (Ey insan!) Bilmədiyin bir şeyin ardınca getmə! (Bacarmadığın bir işi görmə, bilmədiyin bir sözü de-

mə). Çünki, qulaq, göz və ürək-bunların hamısı (sahibinin etdiyi əməl və dediyi söz barəsində) sorğu-sual olunacaqdır. (17/36) Sən pisliyi yaxşılıqla dəf et! (23/96) Ey iman gətirənlər! Başqalarının evlərinə sahiblərindən icazə almadan və onlara salam vermədən girməyin!...Əgər orada heç kəsi tapmasanız, sizə icazə verilməyənədək içəri girməyin! Sizə:-Geri dönün!–deyilsə, geri dönün! Bu Allah yanında sizin üçün daha yaxşıdır. Allah nə etdiklərinizi bilir...İçərisində əşyanız olan qeyri məskun evlərə daxil olmaq sizin üçün günah deyildir. (24/27,28,29)...küfr edənin küfrü öz əleyhinə olar (zərərini özü çəkər). Kafirlərin küfrü Allah dərgahında onlara qəzəbdən başqa bir şey artırmaz, kafirlərin küfrü onların ancaq ziyanını artırar...pis əməl ancaq onun öz sahibinin başında çatlayar...(35/39,43) Tövbə edib Rəbbinizə dönün! Əzab sizə gəlməmişdən əvvəl Ona təslim olun. Sonra sizə heç bir kömək olunmaz.(39/54)...İnsanların bəzisi:-Ey Rəbbimiz, bizə nə verəcəksənsə, elə bu dünyada ver!-deyərlər. Belə şəxslərin axirətdə heç bir payı yoxdur...Bəzi-ləri isə:-Ey Rəbbimiz! Bizə dünyada da, axirətdə də gözəl nemətlər ver, bizi Cəhənnəm əzabından qoru!-deyirlər... Belə şəxsləri qazandıqları əməllərə görə (axirətdə) mükafat gözləyir.(2/200,201,202)

-Ey iman gətirənlər! Əgər bir fasıq sizə pis bir xəbər gətirsə, dərhal onun doğruluğunu yoxlayın, yoxsa, bilmədən bir qövmə pislik edər, sonra da etdiyinizə peşiman olarsınız. (49/6) Birinizin ölümü çatıb:-Ey Rəbbim! Mənə bir az möhlət versəydin, sədəqə verib salehlərdən olardım!-deməmişdən əvvəl sizə verdiyim ruzidən (Allah yolunda) xərcləyin!

(63/10)...Ölçüdə və çəkidə düz olun. İnsanların heç bir şeydə haqqını əskiltməyin. Yer üzündə gəzib fitnə-fəsad törətməyin! (11/85) Allah evlərinizi sizə məskən etdi. (16/80)

-Ey möminlər! İntiqam almaq məqsədi ilə birinə cəza verəcək olsanız, sizə nə cəza verilibsə, onu da o cürə cəzalandırın. Artıq cəza zülm etməkdir. Bu da günahdır. Əgər onlardan intiqam almayıb səbr etsəniz, bu səbr edənlər üçün daha xeyirlidir. Əhv etmək, rəhm göstərmək savab qazanmağa çox gözəl vəsilə olduğu üçün, sözsüz ki, qisas almaqdan daha üstündür. (16/126) Rəbbin yalnız Ona itaət etməyi və valideynlərə yaxşılıq etməyi-onlara yaxşı baxıb gözəl davranmağı buyurmuşdur. Əgər onlardan biri və ya hər ikisi sənin yanında yaşayıb qocalığın ən düşkün çağına yetərsə, onlara:-Uf!-belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış!...Onların hər ikisinə acıyaraq mərhəmət qanadının altına alıb:-Pərvərdigara! Onlar məni körpəliyimdən nəvazişlə tərbiyə edib bəslədikləri kimi, Sən də onlara rəhm et!–de! (17/23,24)

-Nə əldən çox bərk ol, nə də əlini tamamilə açıb israfçılıq et! Yoxsa həm qınanarsan, həm də peşiman olarsan! (17/29) Yoxsulluqdan qorxub övladlarınızı (qızı) öldürməyin. Biz onların da, sizin də ruzinizi veririk. Onları öldürmək həqiqətən, böyük günahdır! (17/31) Zinaya da yaxın düşməyin! Çünki, o, çox çirkin bir əməl və pis bir yoldur! (17/32) ...Əhdə vəfa edin! Çünki, insan əhd barəsində qiyamət günü cavabdehdir. İnsanın verdiyi əhdi yerinə yetirib –yetirmədiyi haqda sorğu-suala tutulacaqdır. (17/34) Ölçəndə ölçüdə düz olun, çəkəndə düzgün tərəzi ilə çəkin. Bu sizin üçün daha

xeyirli və nəticə etibarı ilə daha yaxşıdır! (17/35) Ey insan, bilmədiyin bir şeyin ardınca getmə, bacarmadığın bir işi görmə, bilmədiyin bir sözü demə. Çünki qulaq, göz və ürək-bunların hamısı sahibinin etdiyi əməl, dediyi söz barəsində sorğu-sual olunacaqdır. (17/36) Yer üzündə təkəbbürlə gəzib dolanma! Çünki, sən nə Yeri yara bilər, nə də boyca yüksəlib dağlara çata bilərsən. (17/37) Heç bir şeyin barəsində:-Mən onu sabah edəcəyəm!–demə!..İnşallah! Əgər Allah istəsə, Allah qoysa edəcəyəm!–de! (18/24)

-Hər kəs Mənim öyüd-nəsihətimdən (Qurandan) üz döndərsə, güzaranı daralar və Biz qiyamət günü onu məhşərə kor olaraq gətirərik! (20/124)...Hər kəs onunla–Şeytanla dostluq etsə, şeytan onu yoldan çıxardıb Cəhənnəm əzabına sürükləyər. (22/4)...Allah həqiqətən, heç bir xaini və nankoru sevməz! (22/38) Zinakar kişi ancaq zinakar, yaxud müşrik bir qadınla evlənə bilər. Zinakar qadın da ancaq zinakar, yaxud müşrik bir kişiyə ərə gedə bilər. Bu evlənmə möminlərə haram edilmişdir. (24/3) Ya Məhəmməd! Mömin kişilərə de ki, gözlərini haram edilmiş şeylərdən çevirsinlər, naməhrəmə baxmasınlar, ayıb yerlərini zinadan qorusunlar, örtsünlər. Bu onlar üçün ədəb-ərkan, təmizlik baxımından daha yaxşıdır. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır! (24/30) Evlənməyə qüvvəsi çatmayanlar (maddi) Allah öz lütfü ilə onlara dövlət verənə qədər özlərini zina-dan qoruyub saxlasınlar...Kim cariyələrini (xitmətçilərini) zinakarlığa məcbur edərsə...günah ağalarının boynuna düşər. (24/34) Ey iman gətirənlər! Sahib olduğunuz kölə, kəniz və həddibuluğa çatmayanlar yanınıza daxil olmaq istə-

dikdə bu 3 vaxtda sizdən icazə alsınlar:-sübh namazından əvvəl, günorta dincəlmək üçün paltarınızı çıxartdığınız zaman və gecə namazından sonra...Sizdən olan uşaqlar da həddibuluğa çatanda...izn istəsinlər...(24/58,59)...Evlərə daxil olduğunuz zaman özünüzü Allah dərgahından bərəkət və xoşluq diləyən bir salamla salamlayın...(24/61)...Allah malına qürrələnib sevinənləri sevməz!...O maldan qismətinin bir kəfən olduğunu bil! Pulunu mənasız yerə sola-sağa səpələmə, səhhətinin, sərvətinin, gəncliyinin qədrini bil! Sabah səni Allahın əzabından qurtaracaq yaxşı əməllər et! Allah sənə sərvət verməklə yaxşılıq etdiyi kimi, sən də varından yoxsullara, qohum-əqrabaya xərcləməklə yaxşılıq et... (28-/6,77)...Əgər üstünüzə silah qaldırsalar, siz də silahlanıb onlarla vuruşun və onları təslim olmağa, cizyə verməyə məcbur edin!...(29/46)

-...Biz insana buyurduq:-Mənə və ata-anana şükr et! Axır dönüş Mənədir!(31/14) Adamlardan təkəbbürlə üz çevirmə, yer üzündə lovğa-lovğa gəzib dolanma, Həqiqətən, Allah heç bir özündən razını, lovğalanıb fəxr edəni sevməz! (31/18) Yerişində müvazinət gözlə, nə çox yeyin, nə də çox asta get və danışanda səsini qaldırma. Çünki, ən çirkin səs uzunqulaq səsidir.(31/29) (Ya Peyğəmbər!) De ki:-Əgər ölməkdən və öldürməkdən qorxub qaçırsınızsa qaçmaq sizə heç bir fayda verməz...Alnınıza nə yazılmışsa, o da olacaq, qaçsanız da, qaçmasanız da əcəliniz çatan kimi öləcəksiniz. Allahın əzəli hökmünü dəyişdirmək olmaz.(33/16)...Yad kişilərlə yumşaq, əzilə-əzilə danışmayın, yoxsa qəlbində mərəz, şəkk, günah mərəzi olan tamaha özgə təmannaya düşər.

Danışdığınız zaman gözəl danışın. Allahın buyurduğu kimi, qəbul olunmuş qayda üzrə gözəl, ciddi bir söz deyin! (33/32) Mömin kişiləri və qadınları etmədikləri bir işdən günahdan ötrü incidənlər, şübhəsiz ki, öz üzərlərinə böhtan və açıq-aydın bir günah götürmüşlər.(33/58) Yaxşılıqla pislik eyni ola bilməz! Ey mömin olan kəs! Sən pisliyi yaxşılıqla dəf et! Qəzəbə səbrlə, cəhalətə elmlə, xəsisliyə comərdliklə, cəzaya bağışlamaqla cavab ver! Belə olduqda aranızda düşmənçilik olan şəxsi sanki yaxın bir dost görərsən! (41/34)...Günəşə və Aya səcdə etməyin, onları yaradan Allaha səcdə edin!... (41/37)

-...Bir qövm digərini lağa qoymasın. Ola bilsin ki, lağa qoyulanlar lağa qoyanlardan Allah yanında daha yaxşı olsunlar. Qadınlar bir-birinə rişxənd etməsinlər. Bəlkə rişxənd olunan rişxənd edəndən daha yaxşıdır. Bir-birinizə tənə etməyin, eyib tutmayın, bir-birinizi pis ləqəblərlə çağırmayın!...(49/11) Bir-birinizin eybini, sirrini arayıb axtarmayın, bir-birinizin qeybətini qırmayın! Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı? Bu sizdə ikrah hissi oyadar. Qeybət də belədir. Allahdan qorxun!... (49/12)

-...Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınız, pis əməllərdən ən çox çəkinəninizdir. Allah hər şeyi biləndir, xəbərdardır. (49/13) Tərəzini düz tutun, çəkini əskiltməyin! (55/9) Ey iman gətirənlər! Bir-birinizlə xəlvət danışdığınız zaman günah, düşmənçilik barədə danışmayın, yaxşı işlər, Allahdan qorxmaq barədə danışın! (58/9)...Sizə:-Məclislərdə yer verin!–deyildiyi zaman yer verin ki, Allah da sizə Cənnətdə geniş yer versin. Eləcə də sizə:-Qalxın! –

deyildikdə qalxın ki, Allah da sizdən iman gətirənlərin və xüsusilə elm bəxş edilmiş kimsələrin dərəcələrini ucaltsın. Allah etdiyiniz əməllərdən xəbərdardır! (58/11) Allah sizə ancaq din yolunda vuruşan, sizi yurdunuzdan çıxardan və çıxartmağa kömək edən kimsələrlə dostluq etmənizi qadağan edər. Onlarla dostluq edənlər ən zalimlərdir. (60/9) Kafir qadınları öz kəbininiz altında saxlamayın! (60/10) Allahdan bacardığınız qədər qorxun! Sizə verilən öyüd-nəsihətə qulaq asın...(64/16) Övrətləri boşadığınız zaman onları gözləmə müddətində-heyzdən pak olduqdan sonra boşayın...Onları zina etməyənə qədər yaşadıqları evlərdən çı-xartmayın və onlar özləri də çıxmasınlar...Barışımaq istəsəniz onları yaxşılıqla saxlayın və ya yaxşılıqla yola salın. İçərinizdən iki ədalətli şahid tutun, ey şahidlər, Allah üçün doğru şahidlik edin! (65/1,2)...Qadınları sıxışdırmaq-evdən çıxıb getməyə məcbur etmək məqsədi ilə onlara zərər, əziyyət verməyə cəhd göstərməyin! Əgər onlar hamilədirsə barihəmlini yerə qoyana qədər xərclərini verin. Həmin qadınlar gözləmə müddəti qurtardıqdan sonra sizin üçün uşaq əmizdirirlərsə, onların süd haqqını verin, çünki onlar artıq sizin uşaqlarınıza süd verməyə borclu deyillər...əgər razılığa gələ bilməsəniz uşağı başqa bir qadın əmizdirə bilər. (65/6)
...Allahın əzabından nicat tapmaq üçün ancaq Onun haqq dininə iman gətirmək lazımdır. (67/28)...itaət etmə yalan yerə hər and içənə, alçağa, qeybət edənə, söz gəzdirənə, xeyrə mane olana, zülm etməkdə həddi aşana, günaha batana, daşürəkliyə, anlamaza və eyni zamanda əsli-nəsəbi bilinməyən haramzadaya-o mal–dövlət, oğul-uşaq sahibi olsa belə!

(68/10,11,12,13,14) Əzaba səbəb olacaq pis şeylərdən uzaqlaş! Etdiyin yaxşılığı çox bilib başa qaxma! Heç kəsə minnət qoyma! Hər kəs öz əməlinin girovudur. Hərə öz əməlinin əvəzini alacaqdır! (74-5,6,38) Dalda qeybət edib, üzdə tənə vuranın vay halına!...Xeyir!...O mütləq Cəhənnəmin alt mərtəbələrindən biri olan Hütəməyə atılacaq!...O belələrinin–qeybətçilərin və tənə vuranların üzünə qapanıb kilidlənəcəkdir...Onlar Cəhənnəmdə hündür sütunlara bağlanmış olacaqlar! (104/1, 4,8,9)

## 1.10. Öyüd-nəsihət

**Öyüd-nəsihət** kəlmələri hər birinizə yaxşı məlumdur. Özünüzdən böyüklərdən tez-tez eşitdiyimiz sözlərdir. **Öyüd**-uşaqlara böyüklər tərəfindən bilmədikləri həyatı bilik və bacarıqları **öyrətmək** mənasını verir. **Nəsihət**-insana lazım olan düzgün davranış qaydalarını **tövsiyyə etmək** deməkdir. Qurani Kərim haqqında kitabın əvvəlində oxuduqlarınızdan sizə məlimdur ki, Allah peyğəmbərlərin vasitəsi ilə insanlara öyüd-nəsihət verir. Öz dərgahından nazil etdiyi səmavi kitab ların hamısı insanlara bir öyüd-nəsihətdir. Müqəddəs Quranda uca Rəbbimiz buyurur:

-Əgər nəsihət etmək fayda versə ümmətinə **Quranla öyüd-nəsihət ver**! Şanlı-şərəfli, öyüd-nəsihətlə dolu Qurana and olsun! Bu ayə Quranın həqiqətən də insanlara öyüd-nəsihət olduğunu təsdiqləyir! (38/1)...Qurana tabe olun! Allahı qoyub başqa havadarlara uymayın! Siz öyüd-nəsihətə olduqca az qulaq asırsınız. (7/3) O kəslər ki, sözü (öyüd-nəsihəti) dünləyib onun ən gözəlinə uyarlar. Onlar Allahın

doğru yola yönəltdiyi kimsələrdir. Ağıl sahibləri də elə onlardır...Biz bu Quranda insanlar üçün hər cür məsəl çəkdik ki, bəlkə öyüd-nəsihət qəbul etsinlər. (39/10.27) Allahdan qorxan kimsə mütləq öyüd-nəsihət qəbul edəcəkdir! Bədbəxt isə öyüd-nəsihətdən qaçacaqdır. O bədbəxt ki, ən böyük oda-Cəhənnəm oduna girəcəkdir! (87/9,10,11,12)

Hər biriniz həyatı bilik və bacarıqları öz valideynlərinizin köməyi ilə öyrənirsiniz. Çox təəssüf ki, bəzi valideynlər övladını öyrətməkdə tənbəllik edirlər:-böyüyəndə özü öyrənər-deyirlər. İnsan böyüyəndə isə öyrənmək gec olur. Hər bir valideynin borcudur ki, övladına həyatı üçün lazım olan həyatı bigiləri və bacarıqları öyrətsin, ona doğru yolu göstərsin. Bu bilgi və bacarıqları onlara da vaxtı ilə öz valideynləri öyrətmişdir. Əgər valideyn üzərinə düşən bu işi lazımınca yerinə yetirmirsə Allah qarşısında günah etmiş olur. Həyatı bilgilərə və bacarıqlara yiyələnməmiş uşaqlar böyüdükcə səhvlərə yol verirlər, günah işlər edirlər, nəticədə cəmiyyət üçün zərərli ünsürə çevrilirlər. Ən çox ziyan çəkən də övladına dərs verməmiş valideyn olur. Elə şəxs yoxdur ki, heyvanat aləmindən bəhs edən filmlərə baxmasın və ya həyatda heyvanları müşahidə etməmiş olsun. Yəqin ki, heyvanların öz balasına qidalanmasını, yuva qurmasını, düşməndən müdafiə olunmasını, bala saxlamasını, ov ovlamasını və s. öyrətdiyinə diqqət etmişdir. Əgər heyvanlar həyatda yaşaması üçün lazım olan davranışları və özlərinin bildiklərini balalarına öyrədirsə, nədən şüurlu insan öz bildiklərini övladlarına öyrətməyib:-Özü böyüyəndə öyrənər!-deyir?! Belə valideynlər həm Tanrıları qarşısında, həm də

övladları qarşısında günahkardır. Çünki, övladını həyata hazırlamır. Gələcəkdə cəzasını mütləq çəkəcəkdir:

-Zinaya da yaxın düşməyin! Çünki o cox çirkin bir əməl və pis bir yoldur! (17/32) Ölçəndə ölçüdə düz olun, (çəkəndə) düzgün tərəzi ilə çəkin...(17/35) Sən pisliyi yaxşılıqla dəf et!...(23/96)...Başqalarının evlərinə sahiblərindən icazə almadan və onlara salam vermədən girməyin!...(24/27)...Küfr edənin küfrü öz əleyhinə olar...(35/39) Ey iman gətirənlər! Əgər bir fasiq sizə bir pis xəbər gətirsə, dərhal onun doğruluğunu yoxlayın, yoxsa bilmədən bir qövmə pislik edər, sonra da etdiyinizə peşiman olarsınız! (49/6). Yetimlərin malını öz malınıza qatıb yeməyin...bu böyük günahdır! (4/2) Yetimlərin malını yeməyin! Onlara qayğı ilə yanaşın! (Peyğəmbərə merac zamanı verilmiş əmr) Hər kəs xəta və ya günah edib onu günahsız bir adamın boynuna atarsa, şübhəsiz ki, öz boynuna böhtan və açıq-aşkar günah götürmüş olar (günah üstündən günah qazanmış olar). (4/112) Hər kəs (hər bir canlı) ölümü dadacaqdır! (21/35) Allah zülm edənləri sevməz! (3/57) Səhər-axşam Rəbbinin rizasını diləyərək Ona ibadət edənlərlə birlikdə özünü səbirli apar (nəfsini qoru). Fani dünyanın bər-bəzəyini arzu edib nəzərlərini onlardan (yoxsul möminlərdən) çevirmə! (18/28).

Öyüd-nəsihət gənc nəslin tərbiyəsində olduqca böyük əhəmiyyətə malikdir. Xalqımız gənc nəslin tərbiyəsində **“atalar sözləri”**ndən geniş istifadə edir. Atalar sözləri gənc nəslin bilmədiyi həyatı məsələləri öyrətmək üçün istifadə olunan əlverişli metoddur. Bu metod bəşəri dəyərə malikdir. Bütün xalqlarda atalar sözləri vardır və onların köməyi ilə

gənc nəslə öyüd-nəsihət verilir. Bu öyüd-nəsihətlər isə Allah kəlamlarından qaynaqlanır və əksəriyyəti Quran ayələri ilə üst-üstə düşür. Məsələn:-Andı pozmazlar! Vədə xilaf çıxmazlar! Əmanətə xəyanət etməzlər! Vicdanı satmazlar!-Bu kimi atalar sözləri aşağıdakı Quran ayələri ilə eynilik təşkil edir:-Andını pozma!...(38/44)...Sən öz vədinə xilaf çıxmazsan...!(40/77)...əmanətə xəyanət etmək yaraşmaz!...(2/161)...vicdanlarını satmalar nə qədər də pisdir...(2/90)

## 1.11. Tövbə

Əvvəldə qeyd edildiyi kimi, Qurani Kərimin "**Tövbə" surəsi** digər surələrdən fərqli olaraq Bismilləhir-rahmənir-rahim! kəlmələri ilə başlamayan yeganə surədir. Surənin əvvəlində deyilir:-(Bu) Allahdan və Onun Peyğəmbərindən saziş bağ ladığınız müşriklərə xəbərdarlıqdır!(9/1) Yer üzündə dörd ay sərbəst gəzib dolaşın və bilin ki, siz Allahın əzabından qaçıb canınızı qurtara bilməzsiniz. Allah kafirləri rüsvay edəcəkdir. (9/2)

-Tövbə edib Rəbbinizə dönün! Əzab sizə gəlməmişdən əvvəl Ona təslim olun. Sonra sizə heç bir kömək olunmaz.(39/54). Günah işlər görməkdə davam edərək ölüm yetişən anda:-Mən indi tövbə etdim-deyənlərin və kafir olaraq ölənlərin tövbəsi qəbul olunmaz. Biz onlar üçün şiddətli bir əzab hazırlamışıq!(4/18)

İlk dəfə Adəm Peyğəmbərlə zövcəsi Həvva tövbə etmişdilər. Onlar Şeytana uyub Allahın qadağan etdiyi meyvəni yedikləri üçün tövbə etmişdilər:-...Adəm Rəbbindən

bəzi xüsusi kəlmələr öyrənərək **tövbə etdi**. Doğrudan da O tövbələri qəbul edəndir və mərhəmətlidir!(2/37) Tövbə edənlər, özlərini islah edib düzəldənlər möminlərlə bərabərdirlər. Möminlərə isə Allah böyük mükafat verəcəkdir!(4/146)...tövbə edib iman gətirən, yaxşı işlər görənlər...Allah onların pis əməllərini yaxşı əməllərə çevirər. Allah bağışlayan və rəhm edəndir!(25/70) Hər kəs tövbə edib yaxşı iş görsə...Allaha tərəf yaxşı bir dönüşlə dönər.(25/71) Tövbə edib Allaha tərəf dönün, Ondan qorxun, namaz qılın və müşriklərdən olmayın!(30/31) İnsana bir zərər toxunduqda tövbə edərək Rəbbinə yalvarar. Sonra Allah Öz dərgahından ona bir nemət əta etsə, əvvəlcə kimə dua etmiş olduğunu unudar...!(39/8) Allah istədiyi kəsi özünə (peyğəmbər) seçər və tövbə edib Ona tərəf qayıdan kəsi də doğru yola yönəldər!(42/13) Adəm Rəbbindən bəzi xüsusi kəlmələr öyrənərək tövbə etdi. Doğrudan da O tövbələri qəbul edəndir və mərhəmətlidir.(2/37)...Yaradanınıza tərəf üz tutaraq tövbə edin!...Allah ...tövbələri qəbul edən və bağışlayandır!(2/54) (İbrahim və İsmail dedilər):-Ey Rəbbimiz!...tövbəmizi qəbul et! Həqiqətən, Sən tövbələri qəbul edənsən və mərhəmətlisən!(2/128) Mən ancaq tövbə edənləri, yaxşı işlər görənləri və bəlli edənləri əfv edərəm. Mən tövbələri qəbul edənəm və mərhəmətliyəm!(2/160)...Allah (günahından) tövbə edənləri təmiz və pak olanları sevir!(2/222) ...Məhz tövbə etməyənlər zalimlərdir! (özlərinə zülm edən-lərdir) (49/11)...Həqiqətən Allah tövbələri qəbul edəndir, rəhimlidir!(49/12) Rəbbini həmd-səna ilə təqdis et və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri qəbul edəndir! (110/3)

Qeyd edilən ayələrdən aydın olur ki, insanlar günah etdiklərini dərk etməli və **pis əməllərdən çəkinmək üçün tövbə etməlidir**. Hər kəs üçün tövbə etməyin olduqca böyük əhəmiyyəti vardır. Tövbə etmək yalnız bu kəlməni dili ilə demək deyildir. Tövbə etmək o deməkdir ki, insan şüurlu varlıq olduğundan öz davranışlarına ağlı ilə nəzarət etməyi bacarır. Öz hərəkətlərinə ağlının gözü ilə baxıb qiymətləndirir. Allahın qoyduğu qanunları pozduqda tövbə edib həmin günahı bir daha təkrar etmir. Əgər insan günahını dərk edərək tövbə edib, sonra həmin günahı yenidən təkrar edirsə, o şəxs günah üstündən günah qazanmış olur. Hər kəsə gördüyü işin günah olduğu deyilərsə və o şəxs xəbərdarlıq edilməsinə baxmayaraq həmin günahı yenidən təkrar edirsə günah üstündən günah qazanmış olar.

Həzrət Əli buyurmuşdu:-Günahlardan tövbə etmək xalq üçün vacibdir, lakin günahı tərk etmək ondan da vacibdir.

## 1.12. İnsanlar arasında münsibətlər

İnsanları yaradan Tanrısı onların arasında ünsiyyət qaydaları da müəyyən etmişdir. Qurani Kərimdə insanlar arasında müəyyənləşdirilmiş ünsiyyət qaydalarına aid çoxlu sayda ayələr mövcutdur:

-Dünya həyatı oyun və əyləncədən başqa bir şey deyildir. Axirət yurdu müttəqilər üçün daha xeyirlidir... (6/32) İnsanlar (əvvəlcə) tək bir ümmət idilər. Sonra (aralarına ixtilaf düşdüyü üçün) ayrıldılar...(10/19) Allah ruzi baxımından birinizi digərinizdən üstün etmişdir...(16/71)

İnsanları...(bir-biri ilə) əsl qohum və sonradan qohum edən Odur! (25/54) Allah Öz bəndələrindən istədiyinin ruzisini artırar, istədiyininkini də azaldar...(29/62) Sizin...bir insan olub yer üzünə yayılmağınız Onun qüdrət əlamətlərindəndir...Aranızda dostluq, sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir...dillərininzin və rənglərinizin müxtəlifliyi də Onun qüdrət əlamətlərindəndir (30/20, 21,22) İnsanların...bu cür müxtəlif rəngləri vardır...kimisi özünə zülm edər, kimisi mötədil olar, kimisi də Allahın izni ilə yaxşı işlərdə irəli keçər. (35/28,32)...sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınız, pis əməllərdən çəkinəninizdir... (49/13) Həqiqətən, insan (sərvətə) çox həris tamahkar və kəmhövsələ yaradılmışdır!(70/19) Biz ona haqq yolu göstərdik. İstər minnətdar olsun, istər nankor.(76/3) Həqiqətən, insan var-dövlətə çox harisdir.(100/8) Zinadan xəbəri olmayan namuslu, ismətli mömin qadınları zinada ittiham edənlər dünyada və axirətdə lənətə düçar olarlar. Onları çox böyük bir əzab gözləyir!(24/23)...Dünyada onların dolanacaqlarını öz aralarında Biz bölüşdürdük. **Biri o birisinə iş gördürsün deyə, birinin dərəcəsini digərindən üstün etdik...**(43/32) Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə...aranızda dostluq, sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir.(30/21)...Allah...sizə əzab göndərməyə, sizi dəstələr halında qarışdırmağa və birinizə digərinin zorunu daddırmağa qadirdir!(6/65)

Ayələrdən göründüyü kimi insanları Tanrı bir ümmətdən yaratmışdır və sonradan aralarında dini nöqteyi-nəzər-

dən ayrılıq yarandığından onları xalqlara və qəbilələrə bölmüş, dillərini, rənglərini dəyişdirmişdir. Eyni zamanda Allah bilərəkdən insanların dərəcəsini biri-birindən üstün yaratmışdır.

Əgər insanları yaradan Allah birini varlı, digərini kasıb, birini istedadlı, digərini istedadsız yaratmışdırsa, nədən insanlar da bu bölgüyə tabe olmurlar? İnsanlardan birini vəzifəli etmiş, digərini isə onun əlinin altında işləmək üçün yaratmışdırsa, nədən insanlar bir-birlərini incidirlər? Əslində insanlar aralarındakı bu bölgü nizamını, insani münasibətləri Tanrının lütfü kimi qəbul etməli və şərəflə yerinə yetirməlidirlər. Bu hər kəsin insanlıq borcudur.

İnsanlar arasındakı münasibətlər də müxtəlif istiqamətlərdə qurulur:

**1.** Qonşuluq münasibətləri
**2.** Qohumluq münasibətləri
**3.** Ailə münasibətləri
**4.** Dostluq münasibətləri
**5.** Vəzifəli şəxslərə qarşı münasibətləri
**6.** Digər insanlara qarşı münasibətləri və s.

## 1.12. Qonşuluq münasibətləri

Həzrəti Məhəmməd Peyğəmbərdən soruşdular:-Ey Allahın Rəsulu! Qonşu kimə deyirlər? Peyğəmbərimiz cavabında buyurdu:-Qonşu, sizin evinizin dörd tərəfində məskunlaşmış 40 evdə yaşayan əhalidir. Ondan uzaqda isə qonşu sayılmaz! ziz uşaqlar,sizin mənzilinizin şimalındakı 10

evin, cənubundakı 10 evin, şərqindəki 10 evin və qərbindəki 10 evin sakinləri sizin qonşularınızdır. Onlardan uzaqda yaşayanlar isə qonşu sayılmaz. Bunlar qonşuluq sərhədləridir. Xalqımızın qonşuluq münasibətlərinə aid çox gözəl adətləri vardır. Bu adətlər bu gün də yaşamaqdadır. Hər kəs qonşuluq adətlərini qoruyub saxlamağa çalışır. Qonşuluq münasibətlərini pozanlar isə qınanırlar. Eyni zamanda qonqonşuluq münasibətlərinə aid çoxlu sayda atalar sözlərimiz vardır:-Qonşu haqqı ağırdır! Qonşu haqqı axirət haqqıdır! Qonşuya xain gözlə baxmazlar! Qonşu haqqı ağırdır! Qonşunun qeybətini qırmazlar!

Əvvəldə qeyd edildiyi kimi Allah tərəfindən Musa Peyğəmbərə verilən 10 əmrin bəziləri məhz qonşuya aid idi.

**1. Qonşunuza yalandan şahidlik etməyin!**

**2. Qonşunuzun arvadı ilə sevişməyin!**

**3. Qonşu malına göz dikməyin!**

Göründüyü kimi qonşu ilə gözəl münasibətlər qurmaq Tanrımızın hökmüdür. Bu hökmləri pozan Allah qarşısında günahkardır və Allah günahkar insanları mütləq cəzalandırır. Hər bir in-san çalışmalıdır ki, günah etməsin!

Qurani Kərimdə insanlar arasındakı münasibətlərə aid çoxlu sayda ayələr vardır:




**Qonşuluq sərhəddi**

-Dalda qeybət edib üzdə tənə vuranın vay ha-lına!...O mütləq Cəhənnə-min alt mərtəbələrindən biri olan Hütəməyə atıla-caq!...O bələlərinin... qey-bətçilərin və tənə vuran-ların üzünə qapanıb kilidlə-nəcəkdir! (104/1,4,8) Bir-biri-nizin eybini, sirrini arayıb-axtarmayın, bir-birinizin qeybətini qırmayın!...Allahdan qorxun!... (49/12)

Çox təəssüf ki, insanların hamısı qonşuluq münasibətlərinə əməl etmirlər. Bəzi qonşular həyətdə, küçədə, dalanda davranışlarına, danışıqlarına diqqət etmirlər. Hətta zibili istədikləri yerlərə atırlar. Qonşuluqda özlərini çox pis aparırlar, qonşunun qeybətini edir, qonşulara gəlib-gedənləri pusurlar, qonşularla dalaşırlar və onlara irad tutduqda çığır-bağır salıb haqlı olmalarını sübuta yetirməyə çalışırlar. Səs-küyləri ilə qonşuların sakit həyatını pozurlar. Qonşuluqda heç bir məsuluyyət hiss etmirlər. Uçaqlarına lazımı tərbiyəni vermirlər və qonşulara zərər vuran uşaqlarını müdafiə edirlər. Bəziləri qonşusunun yolunu kəsir, torpağını zəbt edir, qız-gəlininə sataşırlar, qonşudan oğurluq edirlər və s. Belə hallara yəqin ki, hər kəs qonşuluqda rast gəlmişidir.

Elimizin gözəl bir adəti vardır...Ev alandan soruşsalar ki:-Eşitmişəm ev alırsan, can sağlığı ilə oturasınız!-Ev alan şəxs əvəzində ona belə cavab verir:-Mən ev yox, qonşu alıram! **“Qonşu alıram!”** sözünün mənası olduqca dərindir. Yəni elə bir ev almaq istəyirəm ki, o evin ətrafında yaşayan insanlar Allahın qoyduğu qanunları pozmasın. Çünki, belə evdə yaşamaq böyük xoşbəxtlikdir.

Qonşuluqda yaşayan hər kəs çalışıb qonşuluq münasibətlərini qoruyub-saxlamalıdır. Hər bir qonşu elə davran-

malıdır ki, qonşuları onunla qonşu olduqlarına görə özlərini xoşbəxt hesab etsinlər. Böyüklərlə qarşılaşdıqda ədəblə salam verin! Kiçiklərə qayğı ilə yanaşın! Qız-gəlinlərlə ədəblə, nəzakətlə davranın! Həyətdə oynayarkən sakit olmağa çalışın ki, qonşularınız öz evində rahat istirahət edə bilsinlər. Qonşularınızın uşaqları ilə mehriban davranın. Həyətinizin, dalanınızın və küçənizin zibilli olmasına razı olmayın. Allah təbiəti səliqəli, nizamlı yaradıb. Siz də həyat şəraitinizin səliqəli və nizamlı olmasına çalışın ki, Allah da sizlərdən razı olsun. Qonşularınızla dürüst davranın, varlı, kasıb olmasına baxmayaraq hər kəslə gözəl münasibət qurmağa çalışın! Çünki, Allah hər şeyi görür və hər şeyə şahiddir. Allah ürəklərinizdəkiləri bilir. Bunları unutmayın!

## 1.13. Qohumluq münasibətləri

Bildiyiniz kimi qohumlar iki qrupa bölünür:

**1.** Yaxın qohumlar

**2.** Uzaq qohumlar.

**Yaxın qohumlar** atanın valideynləri, qardaş–bacıları və onların övladları, ananın valideynləri, qardaş–bacıları və onların övladlarıdır.

**Uzaq qohumlar** isə ata və ananın digər qohumları hesab olunurlar. Xalqımızın qohumlar arasında bir-birə qarşı hörmətlə yanaşmaq, məhəbbət göstərmək, bayramlarda hər biri ilə görüşüb təbrik etmək, xəstələnənlərə baş çəkmək və çətinliyə düşənlərə kömək etmək kimi gözəl adətləri vardır. Hər bir ailədə tərbiyə alan uşaqlar baba, nənə, əmi, dayı,

xala, bibi və s. qohumlara hörmətlə yanaşırlar. Qurani Kərimdə deyilir:

-İnsanları sudan (nütfədən) yaradan, onları (bir-biri ilə) əsil qohum (qan qohumu) və sonradan qohum edən Odur! (25/54)

Çox təəssüf ki, bəzi ailələr Allahın qoyduğu qanunları unudurlar və öz övladlarına öyrətmirlər, eyni zamanda özləri də bilərəkdən əməl etmirlər. O qanunlar ki, xalqımız onların icrasını adətə çevirib bir-birlərinə öyrətməklə bu günə qədər yaşatmışdılar. Məsələn:-Elə ailələr var ki, evə gəlin gəldikdən sonra, gəlinə ata–anası, qardaş-bacısı və ya digər qohumları ilə görüşməyi qadağan edirlər. Qız ərə getdikdən sonra qohumluq əlaqələri kəsilir. Bəzən də əksinə, oğlan evləndikdən sonra gəlin elə şərait yaradır ki, onun qohumları ilə əlaqələri kəsilir. Valideynləri, qardaş-bacısı və ya digər qohumları ilə görüşmürlər. Hər iki halda qohumluq əlaqələrini kəsənlər və ya ona təhrik edənlər Allahın hökmlərini pozaraq günah etmiş olurlar. Bəzi ailələrdə isə uşaqları bir tərəfli tərbiyə edirlər. Bir qrup ailələrdə ata və onun valideynləri uşaqlara ancaq öz qohumlarına hörmət və məhəbbətlə yanaşmağı, gəlinin qohumlarına qarşı isə saymamazlıq aşılayırlar. Bir qrup ailələrdə isə əksinə, uşaqlar elə tərbiyə olunur ki, atanın qohumlarını sevmirlər, yalnız ananın qohumlarına qarşı sevgi ruhunda tərbiyə olunurlar. Uşaqların belə yanlış tərbiyələnməsi onların şəxsiyyət kimi formalaşmasına mənfi təsir edir. Əslində, uşaqlar elə tərbiyə olunmalıdılar ki, ata-ananın qohumlarına qarşı münasibətdə fərq qoyulmadığını görsünlər. Uşaqlar çox həssas olurlar, vali-

deynlərin fərq qoyub-qoymamasından asılı olmayaraq kimi sevib, kimi sevməməyi özləri müəyyənləşdirirlər. Deməli, belə hallarda da qohumlara qarşı yalnış mövqe tutanlar günah etmiş olurlar. Çünki, müqəddəs Qurani Kərimdə bizi yaradan Rəbbimiz buyurmuşdur:

-Ey insanlar! Sizi tək bir şəxsdən (Adəmdən) xəlq edən, ondan zövcəsini (Həvvanı) yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun! Bir-birinizdən (cürbəcür şeylər) istədiyiniz Allahdan, həmçinin **qohumluq əlaqələrini kəsməkdən həzər edin**! Şübhəsiz ki, Allah sizin üzərinizdə nəzarətçidir! (4/1) Adamlardan təkəbbürlə üz çevirmə!...(31/18) Aranızda dostluq, sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir...(30/21)

Bəzi övladlar böyüyüb müstəqil həyata qədəm qoyduqda valideynlərin öyüd-nəsihətlərinə qulaq asmır və ona itaətsizlik göstərirlər. Halbuki, uca Tanrı buyurmuşdur:

-Biz insana ata-anasına yaxşılıq etməyi tövsiyyə etdik. Anası onu (bətnində) çox zəif bir halda daşımış-dır...Mənə və ata-anana şükr et!...(31/14)

Deməli, hansı yaşda olmasından asılı olmayaraq insan ata-anasına hörmətlə yanaşmalı və onun öyüd-nəsihətlərinə əməl etməlidir. Yalnız bir halda insan valideynlərinə itaətsizlik göstərə bilər və bu zaman ona günah gəlməz. Bu hal aşağıdakı ayədə göstərilmişdir:

-Əgər ata-anan bilmədiyin bir şeyi Mənə şərik qoşmağına cəhd göstərsələr, (bu işdə) onlara itaət etmə! (Qalan) dünya işlərində onlarla gözəl keçin!...(31/15)

Göründüyü kimi, qohumluq əlaqələrində münasibətləri pozmaq günah sayılır. Çalışın günah qazanmayın. Siz kimliyindən asılı olmayaraq bütün qohumlarınıza hörmət və məhəbbətlə yanaşın. Yalnız o qohumlarla əlaqəni kəsmək olar ki, həmin qohumlar Allahın qadağalarını pozmuş şəxs kimi tanınır. Belə qohumlarla dostluq etməyiniz sizi günaha batırar. Qohum olsalar da, onlardan uzaqlaşın!

## 1.14. Ailə münasibətləri

**"Ailə"** kişik bir "dövlətdir". Bu dövlətin daxilində ata, ana və uşaqlar yaşayır. Bəzi ailələrdə nənə, baba, əmi, bibi və ya xala, dayı və s. kimi şəxslər də vardır. Hər bir ailə dövlətinin özünəməxsus olan xüsusi qanunları mövcuddur və bütün ailə üzvləri bu qanunlara könüllü tabe olurlar, çalışırlar ki, bu qanunları pozmasınlar. Azərbaycan ailələrində mövcud olan qanunlar əsasən xalqımızın əsrlər boyu mövcud olmuş və irsən nəsildən-nəslə ötürülmüş milli adət-ənənələrindən doğan qanunlara söykənir.

Müasir dünyada da ailə barədə xüsusi qanunlar qəbul edilmişdir. BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" beynəlxalq Konvensiyanın 16-cı maddəsində deyilir:-Nigah daxilində bərabərlik olmalı və ailə hüququ qorunmalıdır!

Ölkəmizdə də ailə münasibətləri qanunla tənzimlənir. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyasının 34-cü maddəsində "Nigah hüququ" barədə belə yazılmışdır:

**1.** Hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ vardır.

**2.** Nigah könüllü razılıq əsasında bağlanılır. Heç kəs zorla evləndirilə (ərə verilə) bilməz.

**3.** Nigah və ailə dövlətin himayəsindədir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Dövlət çoxuşaqlı ailələrə yardım göstərir.

**4. Ər ilə arvadın hüquqları bərabərdir.** Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də valideynlik borcudur.

**5.** Valideynlərə hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur. 18 yaşına çatmış əmək qabiliyyətli uşaqlar əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa borcludurlar. O cümlədən, Azərbaycan Respublikasının Konstitusiyasının-Maddə 44-ə-Milli mənsubiyyət hüququnda deyilir:

I. Hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır.

Maddə 17. Ailə, uşaqlar və dövlət

I. Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir.

II. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir.

III. Valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlətin himayəsindədirlər.

IV. Uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır.

Maddə 25. Bərabərlik hüququ

I. Hamı qanun və məhkəmə qarşısında bərabərdir.

II. Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır.

Maddə 31. Təhlükəsiz yaşamaq hüququ

I. Hər kəsin təhlükəsiz yaşamaq hüququ vardır.

Maddə 33. Mənzil toxunulmazlığı hüququ

I. Hər kəsin mənzil toxunulmazlığı hüququ vardır.

II. Qanunla müəyyən edilmiş hallar və ya məhkəmə qərarı istisna olmaqla mənzildə yaşayanların iradəsi ziddinə heç kəs mənzilə daxil ola bilməz.

Maddə 46. Şərəf və ləyaqətin müdafiəsi hüququ

I. Hər kəsin öz şərəf və ləyaqətini müdafiə etmək hüququ vardır.

Göründüyü kimi ölkəmizdə hər bir ailədə insanların hüquqlarının qorunması məhz Azərbaycan Respublikasının Konstitusiyası ilə qorunaraq qanunla tənzimlənir.

Müasir Azərbaycanda "Ailə dövlət"inin başçısı **Atadır.** Ata və ana ailənin rəhbəri hesab olunurlar. Ailədə hər iki rəhbərin bərabər hüququ olsa da, ata anaya nisbətən bir pillə ucada dayanır. Hər bir ailədə atanın xüsusi yeri vardır. Bu səbəbdən də ailə atanın adı ilə adlanır və həmin ailəyə hörmət atanın nüfuzu ilə ölçülür. Azəri xalqının adə-tinə görə atanın təhsilindən, cəmiyyətdə tutuduğu mövqeyin-dən asılı olmayaraq hər bir ailə üzvü ataya xüsusi hörmət və etiram bəsləyir. Ataya tabe olmaq bütün ailə üzvlərinin mə-

nəvi borcu sayılır. Hər bir ailə üzvü atanın iradəsinə zidd hərəkətlərə yol verməməyə çalışır. Ata da öz növbəsində ailədəki nüfuzunu, ailə daxilində münasibətlərin hörmət və sevgi çərçivəsində qorunub saxlanmasına səy göstərir. Ailənin maddi və mənəvi təminatını imkanı çərçivəsində təmin etməyi həyata keçirir. Qurani Kərimdə kişilərə aid çoxlu sayda ayələr vardır:

-Allah evləri sizə məskən etdi...(16/80) **Kişilər qadınlar üzərində ixtiyar sahibidirlər.** Bu Allahın onlardan birini digərindən üstün etməsi və kişilərin öz mallarından (qadınları üçün) sərf etməsinə görədir. Əməlisaleh qadınlar (ərlərinə) itaət edib Allahın himayəsi sayəsində gizli şeyləri (mal-dövlətini, namus və şərəfini) qoruyub saxlayırlar... (4/34) Qadınlara elçi göndərmək (onlarla evlənmək) istədiyinizi rəmz və işarə ilə bildirməkdən və ya belə bir istəyi ürəyinizdə gizlətməkdən sizə heç bir günah gəlməz...onlarla gizlində vədələşməyin, onlara şəriətə müvafiq söz deyin!... (2/235)...təmiz qadınlar təmiz kişilərə, təmiz kişilər də təmiz qadınlara layiqdirlər. (24/26) Anaların yeməyi və geyimi öz qüvvəsi dairəsində uşağın atasının üzərinə düşür. Heç kəs gücü çatdığından artıq yüklənməz. (2/233)...Allah hər şey üçün bir ölçü (hədd, müddət) təyin etmişdir. (65/3) Mömin kişilərlə mömin qadınlar bir-birinə dost, həyandırlar... (9/71) Murdar qadınlar murdar kişilərə, murdar kişilər isə murdar qadınlara, eləcə də təmiz qadınlar təmiz kişilərə, təmiz kişilər də təmiz qadınlara layiqdirlər. (24/26) Zinakar kişi ancaq zinakar, yaxud müşrik bir qadınla evlənə bilər. Zinakar qadın da yalnız zinakar, yaxud müşrik bir kişiyə ərə gedə

bilər...(24/3)...onlarla bir yerdə əyləşməyin! Çünki o vaxt siz də onların tayı olarsınız...(4/140) Qadınlarınızın mehrlərini könül xoşluğu ilə verin! Əgər onlar qəlbən öz razılıqları ilə bunda sizə bir şey bağışlasalar, onu halal olaraq nuşcanlıqla yeyin! (4/4) Ey iman gətirənlər! **Qadınlara zorla varis çıxmaq sizə halal deyildir!...**Onlarla gözəl (Allahın buyurduğu kimi) rəftar edin!...(4/19)...Əlində nigah müqaviləsi olanlar (ərlər) kəbin haqqının hamısını qadınlara bağışlaya bilərlər...(2/237) (Ey möminlər!) Qadınlar sizin (övlad əkdiyiniz) tarlanızdır. İstədiyiniz vaxtda öz tarlanıza gəlin! Özünüz üçün qabaqcadan yaxşı əməllər hazrlayın! Allahdan qorxun və (qiyamət günü) Onun hüzuruna gedəcəyinizi bilin! (Ya Məhəmməd!) İman gətirənlərə (Cənnətlə) müjdə ver!(2/223) Səndən heyz (aybaşı) barəsində sual edənlərə söylə ki:-heyz əziyyətli bir haldır. Heyz zamanı qadınlardan kənar olun, heyzdən təmizlənməyənə qədər onlarla yaxınlıq etməyin, təmizləndikdən sonra isə Allahın sizə əmr etdiyi yerdən (buyurduğu qayda üzrə) onlarla yaxınlaşın!(2/222) Qadınlaranızdan zina edənlərə qarşı öz aranızdan...şahid tutun!.. (4/15)

Ayələrdən aydın olur ki, kişiləri Allah bir dərəcə qadınlardan üstün yaratmışdır. Ailədə hər kəs-ana və uşaqlar ataya itaət və hörmət etməlidirlər. Bu Tanrının hökmüdür. Ata da öz növbəsində qadınına hörmətlə yanaşmağa, ona sevgi göstərməyə, mehrini gözəl verməyə, qadınını incitməməyə, onunla bərabər hüququ olduğunu dərk etməyə borcludur. Qadın əri qarşısında hər bir davranışı üçün hesabat verməli olduğu kimi, kişi də qadını qarşısında davranışlarına

görə hesabat verməyə borcludur. Hər ikisinin bir-biri qarşısında məsuliyyəti vardır. Lakin son zamanlar bəzir kişilər arvadına qulluqçusu və ya köləsi kimi baxır. Döyür, söyür, təhqir edir, evdən qovur, təminatını ödəmir, uşaqlarını maddi cəhətdən təmin etməkdən imtina edirlər. Özlərinə haqq qazandırmaq üçün də arvadına hətta şər deməkdən belə çəkinmirlər. Qurani Kərimdə uca Tanrı belə buyurur:

-Kişilərin qadınlar üzərində hüquqları olduğu kimi, qadınların da kişilər üzərində hüquqları vardır.(2/228) Arvadlarına zina istinad edib özlərindən başqa şahidi olmayanların hər biri sözünün doğru olduğuna dair dörd dəfə Allahın adı ilə (Əşhədu-billahi–Allahı şahid gətirirəm, deyə) şəhadət verməlidir. Beşinci dəfə:-Əgər yalan deyirəmsə, Allah mənə lənət eləsin!- deməlidir! (24/6)

Bəzi kişilər qazandıqlarını dostları ilə yeyib-içməyə sərf edir, lakin ailəsinin maddi eytiyaclarını ödəmək istəmir. Bu barədə Allahımız buyurmuşdur:

-Qohum-əqrabaya da, miskinə də, (pulu qurtarıb yolda qalan) müsafirlərə də haqqını ver! Eyni zamanda (mal-dövlətini əbəs yerə) sağa-söla da səpələmə! Həqiqətən, (malını əbəs yerə) sağa-sola səpələyənlər Şeytanın qardaşlarıdır. Şeytan isə Rəbbinə qarşı nankordur!(17/26, 27)...Qadınları sıxışdırmaq-evdən çıxıb getməyə məcbur etmək məqsədi ilə onlara zərər, əziyyət verməyə cəhd gös-tərməyin! Əgər onlar hamilədirsə bari-həmlini yerə qoyana qədər xərclərini verin!... (9/6)

Ailənin ikinci rəhbəri **Anadır.** Ailədə ananın da özünəməxsus xüsusi yeri vardır. Ana “ailə dövlət”inin idarə edil-

məsində atanın ən əsas köməkçisidir. Ailənin idarə edilməsində, maddi-mənəvi təminatında, qohumlar arasındakı münasibətlərin qurulmasında ataya bilavasitə yardım edir. Ananın ailədə xüsusi rolu ondan ibarətdir ki, o, uşaqlarla ata arasında "körpü" rolunu oynayır, onlar arasında münasibətlərin tənzimlənməsini həyata keçirir. Dindən xəbəri olmayan hər hansı bir azəri qadını olursa-olsun, o, vəzifəsindən, cəmiyyətdə tutduğu mövqeyindən, yaraşıqlı olmasından, maddi imkanından, təhsilindən, fiziki imkanından və s. asılı olmayaraq öz ərinə hörmət və itaət edir. Bu xalqımızın ən gözəl adətlərindən biridir. Müqəddəs Qurani Kərimdə qadınlara aid çoxlu sayda ayələr vardır. Eyni zamanda ananın ailədəki rolu barədə xüsusi qanunlar göstərilmişdir:

-...Kişilərin qadınlar üzərində şəriətə görə hüquqları olduğu kimi, **qadınların da onlar (kişilər) üzərində hüquqları vardır.** Ancaq kişilər (daha artıq əziyyətə qatlaşdıqları üçün) onlardan bir dərəcə üstündür...(2/228) Əgər bir qadın öz ərinin qaba rəftarından, yaxud ondan üz çevirməsindən qorxarsa, öz aralarında bir növ barışıb-düzəlişmələrindən ər-arvada heç bir günah gəlməz. Çünki barışmaq daha xeyirlidir. Ancaq nəfslərdə xəsislik həmişə mövcutdur. Əgər siz yaxşı dolanıb dava-dalaşdan, kobud rəftardan çəkinsəniz bu sizin üçün daha yaxşı olar. Şübhəsiz ki, Allah etdiyiniz hər bir işdən xəbardardır! (4/128) Kişilər qadınlar üzərində ixtiyar sahibidirlər. Bu Allahın onlardan birinin digərindən üstün etməsi və kişilərin öz mallarından (qadınları üçün) sərf etməsinə görədir. Əməlisaleh qadınlar (ərlərinə) itaət edib Allahın himayəsi sayəsində gizli şeyləri

(ərlərinin sirlərini, mal-dövlətini, namus və şərəfini) qoruyub saxlayarlar...(4/34) Allah kafirlərə Nuhun övrəti ilə Lutun övrətini misal çəkər...Onlar ərlərinə xəyanət etdilər... Onlara Cəhənnəmə girin deyildi! (66/10) Qadının da (hakimin hüzurunda) ərinin yalan deməsi barədə Allahı şahid tutması əzabı ondan dəf edər. Beşinci dəfə:-Əgər yalan deyirəmsə, Allah mənə lənət eləsin!- deməlidir! (24/8).

Ayələrdən aydın olur ki, ana atanın ən yaxın köməkçisi olması ilə yanaşı ərinin sirdaşı olmalıdır və evinin sirrini heç kəsə açmamalıdır, gizli saxlamaqla Allahın qoyduğu qanuna əməl etməlidir. Əks təqdirdə Tanrısı qarşısında günah sahibi olar.

**Uşaqlar** ailədə üçüncü yerdə dayansalar da, ailədə ən çox qayğı göstərilən varlıqlardır. Bir sıra ailələrdə oğlanlarla qızlar arasında bəzi məsələlərdə fərqin qoyulmasına baxmayaraq, uşaqlar xüsusi qayğı ilə əhatə olunan ailə üzvləridirlər. Uşaqların arasında da xüsusi qanunlar mövcuddur. Böyük uşaqlar kiçiklərə qayğı ilə, kiçiklər özündən yaşca böyük olanlara hörmətlə yanaşmaq məsuliyyətini dərk edirlər və bu qanuna hər kəs əməl etməyə çalışırlar. Ailədə üçüncü pillədə dayanan üzvlər bu ailədə doğulub böyüyən uşaqlardır ki, onlar da ata və anaya hörmət, ehtiram və itaət ruhunda tərbiyələnir, ailənin maddi, mənəvi təminatında, qohumlar, qonşular arasında qurulmuş münasibətlərin davam etdirilməsində valideynlərin ən yaxın köməkçisi rolunu oynayırlar:

-Biz insana ata-anasına yaxşılıq etməyi (onlarla gözəl davranmağı) tövsiyə etdik!...(29/8)...(Biz insana buyurduq):-Mənə və ata-anana şükr et!...dünya işlərində onlarla gözəl

keçin!(onlara itaət et!)!...(31/14) Biz insana ata-anasına yaxşılıq etməyi tövsiyə etdik. Çünki anası onu (doqquz ay bətnində) gəzdirmiş, əziyyətlə doğmuşdur...(8/15) Dua edib Məni çağıranın duasını qəbul edərəm...(2/186) Biz insana ata-anasına yaxşılıq etməyi, onlarla gözəl davranmağı tövsiyyə etdik...(29/8)...Biz insana buyurduq:-Mənə və ata-anana şükr et! Axır dönüş Mənədir!...(31/14) O, həmçinin məni anama qarşı olduqca itaətkar və nəvazişkar etdi...(19/32)...Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar sahiblərinə itaət edin!(4/59) Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi (onlara yaxşı baxıb gözəl davranmağı) buyurmuşdur. Əgər onlardan biri və hər ikisi sənin yanında (yaşayıb) qocalığın ən düşgün çağına yetərsə, **onlara:-Uf!–belə demə,** üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış! Onların hər ikisinə acıyaraq mərhəmət qanadının altına alıb:-Pərvərdigara! Onlar məni körpəliyimdən (nəvazişlə) tərbiyə edib bəslədikləri kimi. Sən də onlara rəhm et!-de! Rəbbin ürəklərinizdə olanları (qəlblərinizin sirlərini) ən yaxşı biləndir. Əgər əməlisaleh olsanız (ata-ananıza bilmədən etdiyiniz pislikdən peşiman olub tövbə etsəniz və bundan sonra onlarla yaxşı davransanız, bilin ki,) Rəbbiniz, həqiqətən, tövbəkarları bağışlayandır! (17/23,24,25) Biz insana ata-anasına yaxşılıq etməyi (valideynlərilə gözəl davranmağı, onlara yaxşı baxmağı) tövsiyə etdik. Çünki anası onu (doqquz ay bətnində) zəhmətlə gəzdirmiş, əziyyətlə doğmuşdur. Onun (ana bətnində) daşınma və süddən kəsilmə müddəti otuz aydır...(46/15)...valideynlərinizə, yaxın qohumlarınıza, yetimlərə,

yoxsullara ehsan (yaxşılıq, kömək) edin, insanlarla xoş danışın, namaz qılın, zəkat verin!...(2-83)

Musa Peyğəmbərə verilən 10 əmrdən də biri valideynlərə aid edilərək birbaşa uşaqlara hökm olunur:-**Ata-ananıza hörmət edin!** O cümlədən, merac zamanı Məhəmməd Peyğəmbərə verilmiş 12 əmrdən birində uşaqlara müraciət edilir:-**Ata-anaya hörmət və itaət!**

Göründüyü kimi Tanrı Özü ailə qanunlarını da müəyyən etmişdir və bu yuxarıdakı ayələrdə aydın şəkildə ifadə edilmişdir. Deməli, ailə üzvləri arasındakı münasibətlər Tanrının hökmləri ilə tənzimlənir. Xalqımız da bu qanunları adət halında yaşadaraq nəsildən-nəslə ötürüb əsrlər boyu yaşatmışdır. Lakin bu gün bəzi ailələrdə Tanrının qanunları pozulmuşdur və olduqca xoşagəlməz hallar baş verir.

Bəzi ailələrdə qızlarla oğlanlar arasında fərq qoyulur. Son zamanlarda bu fərq çox qabarıq şəkildə özünü biruzə verməkdədir. Hamilə qadınlar qızı olacağını bilən kimi onu sünü şəkildə aradan qaldırırlar. Bəzi ailələrdə qızların doğulması arzuolunmaz hal sayılır. Bu barədə Müqəddəs Qurani Kərimdə deyilir:

-Yoxsulluqdan qorxub (cahiliyyət dövründə olduğu kimi) övladlarınızı (xüsusilə, qız uşaqlarını) öldürməyin! Biz onların da, sizin də ruzinizi veririk. Onları öldürmək, həqiqətən, böyük günahdır!(17/31) (Ya Peyğəmbər! İndi o müşriklərdən) Soruş:-Deməli, qızlar sənin Rəbbinin, oğlanlar isə onların özlərindəndir, eləmi? Yoxsa Biz mələkləri dişi yaratmışıq və onlar da (buna) şahid olublar?! Xəbərin olsun ki, onlar öz yalanları üzündən mütləq belə deyəcəklər:-

Allah övlad törətmişdir (mələklər Onun qızlarıdır)!-Onlar həqiqətən, yalançıdırlar. Məgər Allah (mələkləri özünə övlad götürməklə) qızları oğlanlardan üstün tutmuşdur?! (37/149-153).

Deməli, hər kəs ki, ailədə oğlanları qızlardan üstün tururlarsa, eyni zamanda qızı olacağını bilən kimi onu hələ ana bətnində ikən məhv edir, belə valideynlər Tanrı qarşısında günah edirlər. Qızı da, oğlanı da verən Allahdır! Qurani Kərimdə bu barədə belə buyurulmuşdur:

-Göylərin və yerin hökmü Allahın əlindədir. O, istədiyini yaradır, istədiyinə ancaq qız, istədiyinə ancaq oğlan verir. Yaxud hər ikisindən–həm oğlan, həm də qız verir, istədiyini də sonsuz (övladsız) edir...(42/49.

Ayələrdən göründüyü kimi ailələrə övladı Allah verir və oğlan və ya qız olmasını da Tanrı Özü müəyyənləşdirir. Allahın hökmünə qarşı gələn valideynlər:-qız istəmirəm, oğlan olsun fikri ilə Tanrının qanunlarını pozaraq Yaradana üsyan etmiş olurlar. Tanrı isə Ona qarşı üsyan edənləri–asi düşənləri sevmir!

Ailədə **Baba**, **Nənə** və ya digər yaxın qohumların nümayəndələri yaşayırlarsa, bu üzvlərin hər biri ailənin başçısı olan ataya, anaya hörmətlə yanaşmağa, onların iradəsinə zidd hərəkətlər etməməyə, uşaqların təlim-tərbiyəsində onlara mane olmamağa çalışırlar. Eyni zamanda baba ilə nənəyə ailələrdə xüsusi hörmət bəslənir. Bu hörmət ata və ananın şəxsi nümunəsində uşaqlara da aşılanır. Kimliyindən, yaşından, səviyyəsindən, davranışlarından asılı olmayaraq

uşaqlar nənə-babaya xüsusi hörmətlə yanaşmaq ruhunda tərbiyələnirlər. Quranda deyilir:

-...Sizin bir qisminiz ömrünün ən rəzil (ixtiyar) çağına (80/90 yaşına) çatdırılar ki, (vaxtı ilə) bildiyi hər şeyi unudar. (İnsan qocalığın ən düşgün dövründə bildiyini unudar, xasiyyəti dəyişib uşaq kimi olar. Bu əsasən kafirlərə aiddir. Lakin Quran oxuyan, oruc tutub namaz qılan, sidq ürəklə ibadət edən, Allaha inanan şəxsin ixtiyar çağında belə, ağlı başında olar, uzun ömür onun qiymətini və kəramətini Allah yanında artırar). Həqiqətən, Allah (hər şeyi) bilən və (hər şeyə) qadirdir! (16/70)

Yaşlı ailə üzvlərinə hörmət və qayğı ilə yanaşmaq da Tanrımızın insanlara olan hökmləridir. Müasir dövrdə daha qabarıq özünü göstərən hallar gənc ailələrə-ərlə arvad arasındakı münasibətlərə valideynlərin, qohumların yersiz müdaxilələridir. Bu müdaxilələr bəzən elə həddə çatır ki, gənclər bir-birlərini sevdikləri halda ayrılmağa məcbur olurlar. Qurani Kərimdə ərlə arvad arasına girib onların münasibətlərini pozmağa cəhd edənlərin Tanrı qarşısında günah etdikləri bir sıra ayələrdə göstərilmişdir:

-...şeytanlar sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil olanları xalqa öyrədərək kafir oldular. Halbuki, o iki mələk:-Biz (Allah tərəfindən göndərilmiş) imtahanıq, sən gəl kafir olma!-deməmiş, heç kəsə (sehr) öyrətmirdilər. Yəhudilər yenə də ər-arvad arasına nifaq salan işləri onlardan öyrənirdilər. Lakin onlar Allahın izni olmadan heç kəsə zərər vura bilməzlər. Onlar ancaq özlərinə faydası olmayan, zərər verən şeyləri öyrənirdilər. Həqiqətən, onlar belə şey-

ləri satın alanların axirətdə payı olmadığını yaxşı bilirlər...(2/102) (Ey möminlər!) Əgər ər-arvad arasında ixtilaf olcağından qorxsanız, o zaman kişinin adamlarından bir nəfər və qadının adamlarından da bir nəfər münsif (vasitəçi) təyin edib onların yanına göndərin! Əgər bu iki vasitəçi ər-arvadı barışdırmaq istəsə, Allah da onların köməyi olar!... (4/35)

Əsrlər boyu ailə üzvləri arasında mövcud olan münasibətlər qorunub saxlanmış və bizlərə gəlib çatmışdır. Lakin tarixin müxtəlif dövrlərində, müxtəlif ictimai-siyasi şəraitlərdə ailə qanunları müxtəlif ailələrdə təhriflərə uğramış, bəzi ailələrdə qanunlar pozulmuş, bəzi ailələrdə irsi adətlərdən kənara çıxmalar baş vermişdir. Məsələn:

Sovet İttifaqı adlı imperiya yarandıqdan sonra gənclərin hamısını özündə birləşdirən Komsomol Komitəsi bizim ölkəmizdə də gənclərin öz valideynlərinə qarşı çıxış etməsinə, valideynlərinə tabe olmamağa, onların xeyr-duasını almadan evlənməyə, ata-ananı məhkəməyə verməyə belə sövq edilirdilər. Çoxlu sayda gənclər ailə adətlərinə qarşı çıxmağa və valideynlərinə itaətsizlik etməyə təhrik edilirdilər. Nəticədə, belə gənclərin qurduğu ailələrdə adətlərimiz unuduldu, gənclərin tərbiyəsi pozuldu.

Valideynlərinizə, digər qohumlarınıza hörmətlə yanaşmağa borclu olduğunuzu dərk edin! Hər kəs ailədə öz yerini və nəyə ixtiyarı çatdığını bilməlidir. Valideynlərinizə, nənə-babalarınıza, digər qohumlarınıza itaət və hörmət etmək, qardaş-bacı arasında qarşılıqlı hörmət şəraitində yaşamaq

sizin üçün Tanrınızın müəyyən etdiyi davranış qaydalarıdır. Bu qanunları pozmamağa çalışın ki, Tanrı sizə kömək olsun!

## 1.15. Ailə tərbiyəsi

Ailədə uşaqların tərbiyə olunması olduqca əsas məsələlərdəndir. Hər bir valideyn çalışır ki, uşaqları gözəl tərbiyə olunsun və cəmiyyətdə yaxşı mövqe tutsunlar. **Ailə tərbiyəsi** əsasən iki istiqamətdə aparılır:

**Birinci istiqamətdə** valideynlər uşaqlara doğulduğu gündən həyatı bacarıqlar öyrədirlər (danışmaq, yerimək, iş görmək və s.).

**İkinci istiqamətdə** isə uşaqlara həyat dərsi verirlər (bitkiləri əkib-becərmək, heyvandarlıqla məşğul olmaq, insanlar arasında münasibətləri, təbiət hadisələrini dərk etmək, proqnoz vermək, ətraf aləmi anlamaq, təbiətdən istifadə etmək və s.). Hər iki istiqamət üzrə paralel şəkildə iş həyata keçirilir. İşin icraçısı–gənc nəslin tərbiyəçisi və müəllimi isə xalqın yaşlı nəslidir. Yaşlı nəsil özündən əvvəlki nəsillərdən aldıqlarını gənc nəslə ötürən vasitəçi rolunu oynayır.

Ata və ana bu ailədə göz açıb-böyüyən uşaqların ilk müəllimləridir. Əgər bu müəllimlərin öz valideynlərindən aldıqları həyat dərsi güclüdürsə, onların da öz övladlarına verəcəkləri həyat dərsi olduqca səviyyəli olacaqdır. Müasir dövrümüzdə valideynlərin əksəriyyəti övladlarının tərbiyəsində düzgün mövqe tutmaqdan çox uzaqlaşmışdılar. Bu isə uşaqlar üçün fəlakət deməkdir. Belə ki, ana və ata bildikləri

həyati bilgilərini və bacarıqlarını öz övladlarına bilərəkdən öyrətmirlər. Bu məsələlərdə ailələri üç qrupa bölmək olar:

**1.** Bəzi ailələrdə ev işlərini yalnız qızlara öyrədirlər, valideynlər elə dərk edirlər ki, ev işlərini oğlanlar görməli deyillər. Belə ailələrdə tərbiyə almış qızlar gələcəkdə ər evində köləyə çevrilir. İşdən uzaqlaşdırılmış oğlanlar isə ailə başçısı olduqda ev işlərini yalnız arvadının görməli olduğunu düşünərək arvadına yardım etmir. Bütün işlərin arvadının görməyə borclu olduğunu düşünür, özünün isə yalnız seyirçi qalmağına üstünlük verir. Belə ailələrdə ər-arvad arasında münasibətlər çox tez pozulur.

**2.** Bəzi ailələrdə ev işlərini uşaqlara tamamilə öyrətmirlər. Valideynlər düşünürlər ki, övladlarını o qədər çox sevirlər ki, onları əziyyətə salmaq istəmirlər. Böyüyəndə uşaqları özləri hər şeyi öyrənəcəkdir. Bu çox yanlış bir düşüncədir. Belə ailələrdə böyüyən uşaqlar həyatı bacarıqları və bilgiləri vaxtında öyrənmədiklərindən tənbəl böyüyürlər və düşüncələri, təfəkkürləri yaxşı inkişaf etmir. Nəticədə bu ailələrdə böyüyən uşaqlar həyatda çox şeyə nail olmaqdan məhrum olurlar. Müstəqil həyatda müstəqil yaşamağı bacarmırlar. Öz şəxsi ailələrinin həyat şəraitini təmin edə bilmirlər. Daima başqalarının köməyinə eytiyacları olur.

**3.** Ağıllı və uzaqgörən valideynlərin olduğu ailələrdə həyatı bilgi və bacarıqları cinsiyyətindən asılı olmayaraq ailənin bütün uşaqlarına öyrədirlər. Belə ailələrdə oğlan və ya qız işi olmur, yalnız iş vardır və ailənin hər bir üzvü bu işi öyrənməkdə və icra etməkdə məsuliyyət daşıyırlar.

Uşaqlar ailənin bütün məsələlərində səfərbər olunaraq işə cəlb edilirlər və uşaqlar problemlərin həlli yollarını axtarmaqda, ailənin uğurlu nəticələrə nail olmasında fəal şəkildə iştiraka cəlb olunduqlarından çıxış yolları axtarmaqda, fəaliyyət göstərməkdə valideynlərinə ən yaxşı köməkçi olurlar. Nəticədə uşaqların təfəkkürü inkişaf edir, düşüncəsi kəsərli olur, valideynlərinin rəhbərliyi altında gələcəkdə özlərinə lazım olan həyat dərsi alırlar və lazımı bacarıqlara yiyələnirlər. Belə ailələrdə böyüyüb tərbiəyə alan uşaqlar öz ailələrinin idarə olunmasında uğur qazanırlar və həyatda öz ailələrini sərbəst idarə etməyə başlayırlar.

Yuxarıda qeyd edilimişdir ki, valideynlər uşaqların ilk müəllimləridirlər. Bu müəllimlər nə qədər diqqətli və bacarıqlı olsalar, onların uşaqlarına verdikləri dərslərinin nəticələri bir o qədər uğurlu olacaqdır. Belə ki, valideynlərin ailədə bir sıra məsuliyyətli borcları vardır:

**1.** Valideynlər uşaqları normal **qidalandırmağa** borcludurlar. Normal qidalanan uşaqlar normal böyüyür və sağlam olurlar. Əksər valideynlər uşaqlara yalnız özlərinin xoşladıqları qidaları yedizdirirlər. Bu isə kökündən yanlışdır. Uşaqlara yalnız lazım olan qidanı yedizdirmək lazımdır. Lazım olmayan ərzaqlarla qidalanan uşaqlar tez-tez xəstələnir, boyları və çəkiləri lazım olan səviyyədə olmurlar.

**2.** Uşaqlar **danışmağı** məhz ata və anasından öyrənirlər. Valideynləri uşaqların nitqindəki qüsurlarını vaxtında düzəltməyəndə nöqsanlı danışığa malik olurlar. Məktəbə gedəndə danışıq qüsurunu düzəltmək müəllimlər üçün çətinlik

törədir. Hər bir valideynin borcudur ki, uşaqlarına ana dilini səlis və nöqsansız danışmağı öyrətsinlər.

-İman gətirib övladları imanda olanların ardınca gedənlərin nəsillərini də Cənnətdə özlərinə qoşarıq...(52/21) Allah pis sözün açıq, ucadan deyilməsini sevməz. Yalnız zülm edilmiş şəxslər müstəsnadır. Allah hər şeyi eşidən və biləndir.(4/148)...küfr edənin küfrü öz əleyhinə olar (zərərini özü çəkər). Kafirlərin küfrü Allah dərgahında onlara qəzəbdən başqa bir şey artırmaz, kafirlərin küfrü onların ancaq ziyanını artırar...pis əməl ancaq onun öz sahibinin başında çatlayar...(35/39,43)...danışanda səsini qaldırma. Çünki, ən çirkin səs uzunqulaq səsidir.(31/29)...Yad kişilərlə yumşaq, əzilə-əzilə danışmayın, yoxsa qəlbində mərəz, şəkk, günah mərəzi olan tamaha özgə təmannaya düşər. Danışdığınız zaman gözəl danışın. Allahın buyurduğu kimi, qəbul olunmuş qayda üzrə gözəl, ciddi bir söz deyin! (33/32)

**3.** Valideynlər uşaqlarına düzgün **yeriş** qaydalarını öyrətməlidirlər. Uşaqlıqdan düzgün yeriş qaydalarını öyrənməyən uşaqların hərəkət etmələrində nöqsanlar əmələ gəlir. Ayaqlarını düzgün qoymağı, addımlarını rəvan atmağı, yeriyəndə sirkələnməməyi, sağa-sola əyilməməyi, qaməti düz saxlamağı və s. yaxşı öyrənə bilmirlər və nəticədə nöqsanlar yaranır:

-Yerişində müvazinət gözlə, nə çox yeyin, nə də çox asta get...(31/29) Qamətini düz saxla, sağa-sola əyilmə!...

**4.** Uşaqlarına xalqın **mədəniyyətini** öyrətmək valideynlərin müqəddəs borcudur. Sizə salam verildiyi zaman onu daha gözəl alın və ya (eyni ilə sahibinə) qaytarın!

Şübhəsiz ki, Allah hər şeyi gözə alandır! (4/86)...Əhdə vəfa edin! Çünki, insan əhd barəsində qiyamət günü cavabdehdir. İnsanın verdiyi əhdi yerinə yetirib–yetirmədiyi haqda sorğu-suala tutulacaqdır. (17/34)...Sizə:-Məclislərdə yer verin!–deyildiyi zaman yer verin ki, Allah da sizə Cənnətdə geniş yer versin. Eləcə də sizə:-Qalxın!–deyildikdə qalxın ki, Allah da sizdən iman gətirənlərin və xüsusilə elm bəxş edilmiş kimsələrin dərəcələrini ucaltsın. Allah etdiyiniz əməllərdən xəbərdardır!(58/11)...Başqalarının evlərinə sahiblərindən icazə almadan və onlara salam vermədən girməyin! (24/27)

**5.** Uşaqlarında **vətənpərvərlik** hissi tərbiyə etmək hər bir valideynin ümdə borcudur. Vətənpərvərlik valideynin şəxsi nümunəsindən qaynaqlanır. Ailədə valideynlər nə dərəcədə vətənpərvərdirlərsə, uşaqları da onlardan nümunə götürərək bir o qədər vətənpərvər olurlar:

-...Əgər üstünüzə silah qaldırsalar, siz də silahlanıb onlarla vuruşun və onları təslim olmağa, cizyə verməyə məcbur edin!...(29/46) Sizinlə vuruşanlarla siz də Allah yolunda vuruşun, lakin həddən kənara çıxmayın. Allah həddi aşanları sevməz! (2/190) Vuruşmaq xoşunuza gəlmədiyi halda, sizə vacib edildi. Bəzən xoşlamadığınız bir şey sizin üçün xeyirli, bəzən də xoşladığınız bir şey sizin üçün zərərli ola bilər. Allah bilir, siz bilməzsiniz. (2/216) Əgər Allah sizə yardım edərsə, heç kəs sizə qalib gələ bilməz...(3/160) Kafirləri təqib etməkdə zəiflik göstərməyin. Əgər siz əziyyət çəkirsinizsə, onlar da sizin kimi əziyyət çəkirlər...(4/104) "...kim düşmənə arxa çevirib qaçarsa , sözsüz ki, Allahın

qəzəbinə uğramış olar. Onun məskəni Cəhənnəmdir. Ora nə pis dönüş yeridir. (8/16)...müharibədə onlara elə bir divan tut ki, arxalarınca gələnləri də qorxudub dağıt. Bəlkə ibrət alsınlar. (8/57) Möminləri döyüşə həvəsləndir. İçərinizdə iyirmi səbirli kişi olsa, iki yüz kafirə, yüz səbirli kişi olsa, min kafirə qalib gələr...(8/65) Əldə etdiyiniz qənimətləri halal və təmiz olaraq yeyin!...(8/69)...sizinlə döyüşə birinci başlayan bir tayfa ilə vuruşmayacaqsınız? Məgər onlardan qorxursunuz? Əgər möminlərsinizsə, bilin ki, əslində qorxmalı olduğunuz məhz Allahdır! (9/13) Döyüşdə əgər ölməkdən və öldürməkdən qaçırsınızsa, qaçmaq sizə heç bir fayda verməz, alnınıza nə yazılmışsa, o da olacaq, qaçsanız da, qaçmasanız da əcəliniz çatan kimi öləcəksiniz. Allahın əzəli hökmünü dəyişdirmək olmaz! (33/16) Allah sizə ancaq sizinlə din yolunda vuruşan, sizi yurdunuzdan çıxardan və çıxartmağa kömək edən kimsələrlə dostluq etmənizi qadağan edər. Onlarla dostluq edənlər ən zalimlərdir. (60/9) Ancaq varlı olduqları halda döyüşə getməyənlər məzəmmətə layiqdirlər. Buna görə də onlar başlarına gələcək müsibəti bilməzlər. (9/93).

**6.** İnsanlarla **ünsiyyət qurmağı** da uşaqlar məhz valideynlərindən öyrənirlər. Valideynlərindən nümunə götürən uşaqlar ilk öncə qohum-qonşuları ilə ünsiyyət qurmağın qaydalarını öyrənirlər. Bu qaydaları mənimsəmək uşaqlara imkan verir ki,  məktəbdə, küçədə hər kəslə ünsiyyət qura bilsinlər. İnsanlarla ünsiyyət qurmağı bacarmaq olduqca vacibdir. Musa Peyğəmbərə verilmiş əmrlərdən üçü qonşularla ünsiyyətə  aid idi. Məhəmməd Peyğəmbə verilmiş

əmrlərdə də insanlarla münasibətə aid qanunlar vardır:-Yetimlərin malını yeməyin, onlara qayğı ilə yanaşın! Əhdə vəfa edin, verdiyiniz sözü tutun! Qohum və əqrabaya, kasıba, yoxsula, qəribə, yolçuya, kimsəsizə əl tutmaq! Ata-anaya hörmət və itaət! Bir-birinizin eybini, sirrini arayıb-axtarmayın, bir-birinizin qeybətini qırmayın!...Allahdan qorxun!...(49/12)...qohumluq əlaqələrini kəsməkdən həzər edin! Şübhəsiz ki, Allah sizin üzərinizdə nəzarətçidir! (4/1) Adamlardan təkəbbürlə üz çevirmə!...(31/18)

**7.** Uşaqlar **sevməyi** də məhz valideynlərindən öyrənirlər. Sevgi ilə əhatə olunmuş uşaqların qəlbi mərhəmət və məhəbbətlə dolu olur. Məhəbbətlə böyüyən uşaqlar insanlara qarşı aqressiv, kobud olmurlar. Vətəni, qardaş-bacını, qohum-qonşunu, ünsiyyətdə olduğu insanları sevməyi öyrənirlər:-...aranızda dostluq, sevgi və məhəbbət yaratması da Onun qüdrət əlamətlərindəndir...(30/21)

**8.** Valideynlər öz övladlarına **əxlaq** normalarını öyrətməkdə Tanrı qarşısında məsuliyyət daşıyırlar:-Kafir qadınları öz kəbininiz altında saxlamayın! (60/10) Zinaya da yaxın düşməyin! Çünki, o, çox çirkin bir əməl və pis bir yoldur! (17/32) Ya Məhəmməd! Mömin kişilərə de ki:-...ayıb yerlərini zinadan qorusunlar!...Mömin qadınlara de ki:-...ayıb yerlərini zinadan qorusunlar...Evlənməyə qüvvəsi (maddi) çatmayanlar Allah öz lütfü ilə onlara dövlət verənə qədər, özlərini qoruyub saxlasınlar!...(24/30,31,33) O kəslər ki, ayıb yerlərini (zinadan) qoruyub saxlayarlar; Onlardır... Firdovs cənnətinə varid olanlar, orada əbədi qalanlar! (23/5,10,11) Allah (mömin qadınlara) həmçinin namusunu,

ismətini möhkəm qoruyub saxlamış İmranın qızı Məryəmi də misal çəkər...(66/12)

Qurani Kərimdə qeyd edilmiş bu ayələrdən də aydın olur ki, valideynlər Tanrının insanlar üçün müəyyənləşdirdiyi qanunlara tabe olaraq lazımı fəaliyyət göstərməkləri ilə yanaşı, öz övladlarına da bildiklərini öyrətməklə onları öz ardınca aparsalar, Allah onları övladlarından ayırmaz və birlikdə Cənnətində bərqərar edər. Atalarımızın belə bir məsəli vardır:-İşlə mənim üçün, öyrən özün üçün!- Eyni zamanda yadda saxlayın ki, **Allahımız tənbəl insanları sevmir!**

## 1.16. Boşanmaq mədəniyyəti

Evlənmiş iki şəxs bir müddətdən sonra evlənməkdə səhv etdiklərini dərk edirlər və boşanırlar. Boşanma təbii bir haldır və təəssüf ki, ölkəmizdə son vaxtlar bu hal çoxalmaqdadır. Qurani Kərimdə boşanmaq barədə "Ət-Talaq" surəsi nazil olmuşdur və bəzi surələrin də bir sıra ayələri boşanmaya aid qanunları özündə əks etdirir:

-(Ya Peyğəmbər!) Övrətləri boşadığınız zaman onları gözləmə müddətlərində (heyzdən pak olduqdan sonra) boşayın. Gözləmə müddətini sayın. Rəbbiniz olan Allahdan qorxun! Onları açıq-aşkar bir pis iş (zina) etməyənə qədər (gözləmə müddəti qurtarmamış yaşadıqları evlərdən) çıxarmayın və onlar özləri də çıxmasınlar! Bu Allahın hüdudlarıdır (hökmləridir). Allahın müəyyən etdiyi hüdudları aşan kimsə özünə zülm etmiş olar. Nə bilirsən, ola bilsin ki, Allah bundan sonra bir iş icad etsin (ərin ürəyinə yenidən zövcəsinin

məhəbbətini salsın və onlar barışsınlar). Bu qadınların (gözləmə müddəti) başa çatdıqda (barışmaq istəsəniz) onları yaxşılıqla saxlayın, yaxud yaxşılıqla (mehrlərini verib) yola salın!...Hamilə qadınların gözləmə müddəti bari-həmlini yerə qoyduqda başa çatır.(65/1,2,4)

-Ey iman gətirənlər! Əgər mömin qadınlarla evlənib onlara toxunmadan əvvəl talaqlarını versəniz, artıq onlar üçün sizə gözləmə müddəti saymağa eytiyac yoxdur. (Onları evlərinizdə saxlayıb gözləmə müddətini başa vurmağa məcbur etməyin! Aranızda yaxınlıq olmadığı üçün nə vaxt istəsələr, o vaxt da başqasına ərə gedə bilərlər). Belə olduqda onlara bir şey (mehrin yarısını və ya bir az mal) verib gözəl tərzdə sərbəst buraxın! (33/49)

-Analar (istər boşanmış və istərsə də boşanmamış olsunlar) uşaqlarını əmizdirmə müddətini tamamlamaq istəyən (atalar) üçün tam iki il əmizdirsinlər...Əgər ata və ana öz aralarında məsləhətləşib, uşağı "iki ildən tez" süddən kəsmək qərarına gəlsələr, ikisinə də heç bir günah gəlməz... (2/233) **(**Boşadığınız qadınları, lakin gözləmə müddəti sona yetməmiş) qadınları imkanınız çatdığı qədər öz yaşadığınız yerdə sakin edin. Bu qadınları sıxışdırmaq məqsədi ilə onlara zərər, əziyyət etməyə cəhd göstərməyin. Əgər onlar hamilədirlərsə, bari–həmlini yerə qoyana qədər xərclərini verin. Həmin qadınlar (gözləmə müddəti qurtardıqdan sonra) sizin üçün uşaq əmizdirirlərsə, onların (süd) haqqını verin! (çünki onlar artıq sizin uşaqlarınıza süd verməyə borclu deyillər). Öz aranızda yaxşılıqla sazişə gəlin! Əgər (bu məsələdə) çətinliyə düşsəniz uşağı başqa bir qadın əmizdirə

bilər. (65/6) Varlı-karlı olan öz varına görə (süd haqqı) versin. İmkanı az olan isə Allahın ona verdiyindən versin. Allah heç kəsi Özünün ona verdiyindən artıq xərcləməyə məcbur etməz...(65/7)

-Talaq vermək (boşama) iki dəfə mümkündür, ondan sonra yaxşı dolanmaq (qadını yaxşı saxlamaq), ya da xoşluqla ayrılmaq (buraxmaq) gərəkdir. **(Ey kişilər!) Onlara (qadınlarınıza) verdiyinizdən bir şey tələb etməniz sizə halal olmaz.** Bu yalnız kişi ilə qadın Allahın (ər-arvadlıq) haqqındakı hökmlərini yerinə yetirməkdən qorxduqları zaman mümkündür...Arvadın ərinə bir şey verməsində heç biri üçün günah yoxdur. Bunlar Allahın hökmləridir. Bu hökmlərdən kənara çıxanlar əlbəttə özlərinə zülm edənlərdir.

-Qadınlarınızı...ya xoşliqla saxlayın, ya da xoşluqla buraxın! Əziyyət və zərər vermək məqsədi ilə haqlarına təcavüz edib onları saxlamayın! Hər kəs bunu etsə, şübhəsiz ki, özünə zülm etmiş olar. Allahın hökmləri ilə oynamayın!.. (2/231) Ey iman gətirənlər! Qadınlara...əziyyət verməyin! Onlarla gözəl (Allahın buyurduğu kimi) rəftar edin! Əgər onlara nifrət etsəniz (dözün). Ola bilsin ki, sizdə nifrət doğuran hər hansı şeydə Allah (sizdən ötrü) çoxlu xeyir nəzərdə tutmuş olsun. (4/19)...Kişilərin qadınlar üzərində şəriətə görə hüquqları olduğu kimi, qadınların da onlar (kişilər) üzərində hüquqları vardır. Ancaq kişilər (daha artıq əziyyətə qatlaşdıqları üçün) onlardan bir dərəcə üstündür... (2/228)

### 1.17. Vəzifəli şəxslərə qarşı münasibət

Xalq arasında hər kəs özündən yaşca, vəzifəcə və dərəcə etibarı ilə böyük olanlara xüsusi hörmətlə yanaşırlar. Belə şəxslərə adı ilə müraciət etmək ayıb sayılır və mədəniyyətsiz hərəkət hesab olunur. Qədimdən bu günə qədər qadınlara "**xanım**", kişilərə "**bəy**" deyə, müraciət ediblər. Kasıblar tabe olduqları varlı şəxslərə **"ağa",** ayrı-ayrı əyalət rəhbərlərinə **"xan"** deyiblər. Onların xanımlarına isə **"bəyim", "xatun"** deyə, müraciət ediblər. Əhali padişahlara, xanlara, ağalara, dövlət başçılarına, alimlərə, şairlərə, yazıçılara, din xadimlərinə və s. şəxslərə xüsusi hörmətlə yanaşıblar. Ölkəmizdə sovet hökuməti qurulduqdan sonra bolşeviklər əhali arasında mövcud olan bu adəti qadağan etdi. Hər kəs "**yoldaş**" adlanaraq eyniləşdirildi. "Bəy", "ağa", "xan", "xatun", "bəyim" kimi müraciət formaları qadağan olundu. Kəndli, fəhlə, dövlət başçısı, alim bir-birlərinə yoldaş deməyə başladılar. Azərbaycanda hər kəsin seyr etdiyi "Axırıncı aşırım" kinosunda belə bir epizod var:-Kərbəlayi Abbasqulu ağaya deyir:-Var–dövlətimi əlimdən aldılar, dinmədim. Torpaqlarımı aldılar, susdum. İndi mənə deyirlər ki, dünən mənim inəyimi otaran İmanın bayrağının altından keçim?! Yox, mən bunu bacarmaram. Mən belə bir hökuməti tanımıram.

Göründüyü kimi əhali arasında nə qədər demokratiya olsa da, insanlar səviyyə etibarı ilə bir-birlərindən fərqlidirlər. Buna görə də xalqımızın gözəl adətlərindən biri də, hər kəsin özündən səviyyə etibarı ilə üstün hesab etdiyi şəxslərə xüsusi hörmətlə yanaşmağıdır. Bu adətimiz Tanrımızın qoyduğu hökmlərindən biridir. **...Allaha, Peyğəmbərlərə və özünüzdən olan ixtiyar sahiblərinə itaət edin**!

(4/59) Allah istədiyi bəndənin ruzisini bol edər, (istədiyininkini də) azaldar.(13/26) Allah ruzi baxımından birinizi digərinizdən üstün etmişdir...(16/71) Peyğəmbəri çağırmağı öz aranızda bir-birinizi çağırmağınızla eyni tutmayın! (Nə deyirsən?–yox,-Bəli, buyur, ey Allahın Rəsulu və ya ey Allahın Peyğəmbəri!)...(24/63)...Dünyada onların dolanacaqlarını öz aralarında Biz bölüşdürdük. Biri o birinə iş gördürsün deyə, birinin dərəcəsini digərindən üstün etdik... (43/32)

## 1.18. Digər insanlara qarşı münasibət

Adətən yetkinlik yaşına çatmış hər kəs (oğlan və ya qız) özünün ailə qurması barədə düşünməyə başlayır. Bu adəti hər bir gənc vacib sayır və təbii proses kimi qəbul edir. Uzun müddət kiminsə subay qalması qohum-əqrabanı, dost-tanışı narahat edir. Hər kəs belə şəxslərin ailə qurmasının vacib olduğunu tövsiyyə edir və ona ailə qurmaqda yardımçı olmağa çalışır. İnsanların ailə qurmasının vacib olması Qurani Kərimdə də göstərilmişdir:

-Aranızdakı subay kişiləri, qul və kənizlərinizdən əməlisaleh olanları evləndirin. Əgər onlar yoxsuldurlarsa, Allah onlara Öz lütfündən varlandırar. Axı Allah genişürəklidir, biləndir. (24/32) Yadınıza salın ki, biz bir zaman israil oğullarından:-Allahdan qeyrisinə ibadət etməyin, valideynlərinizə, yaxın qohumlarınıza, yetimlərə, yoxsullara ehsan edin, insanlarla xoş danışın, namaz qılın, zəkat verin!–deyə, əhd-peyman aldıq...(2/83) Allah pis sözün açıq, ucadan deyilməsini sevməz. Yalnız zülm edilmiş şəxslər müstəs-

nadır. Allah hər şeyi eşidən və biləndir. (4/148)...Danışanda səsini qaldırma. Çünki, ən çirkin səs uzunqulaq səsidir. (31/29)...Danışdığınız zaman gözəl danışın. Allahın buyurduğu kimi, qəbul olunmuş qayda üzrə gözəl, ciddi bir söz deyin! (33/32) Həqiqətən, Rəbbin istədiyi şəxsin ruzisini artırar, (istədiyininkini də) azaldar...(17/30) Məgər onlar Allahın istədiyi şəxsin ruzisini bol etdiyini, (istədiyininkini də) azaltdığını görmürlərmi?...(30/37) Məgər onlar hələ də bilmirlər ki, Allah istədiyinin ruzisini artırar, (istədiyininkini də) azaldar...(39/52)...Bir çoxuna da (kafirlərə) əzab vacib olmuşdur. Allahın alçaltdığı kimsəni heç kəs yüksəldə (səadətə qovuşdura) bilməz. Həqiqətən, Allah dilədiyini edər! (22/18)

# II FƏSİL. ALLAH YARATMAĞA QADİRDİR

Qurani Kərimdə buyurulur ki, Allah yaratmaq istədiyi şeyə "Ol!" deyər, o da dərhal olar. Bu səbəbdən də Allahın gözəl adlarından da biri Yaradandır. Yaradan məkləkləri, cinləri, şeytanları, insanları və kainatı yaratmışdır. Onun yaratdıqlarının hər birinin öz vəzifələri və öz yaranma səbəbləri vardır. Yaradan hər şeyi mükəmməl, nizamla, təkrarsız və əsrarəngiz yaratmışdır.

## 2.1. Mələklər və onların vəzifələri

**-Allah Mələkləri nurdan yaratmışdır.** Mələklərin fikirləri və əməlləri xeyirdən ibarətdir. Özləri müstəqil qərar verib, icra etmək iqtidarında deyillər. Yalnız Allahın əmrlərini icra edirlər. Mələklər Allahdan qabaq söz danışmaz, yalnız Onun əmri ilə iş görərlər.(21/27)...mələklər (Onun övladı deyil, xəlq etdiyi) möhtərəm qullarıdır.(21/26) Mələklərdən hər kəs:-Mən Ondan başqa bir tanrıyam!-desə, onu Cəhənnəmlə cəzalandırarıq. Biz zalimlərə belə cəza veririk.(21/29) Göyləri və yeri yoxdan **yaradan, ikiqanadlı, üçqanadlı** və **dördqanadlı mələkləri** (Peyğəmbərlərə) elçi edən Allaha həmd olsun!(35/1) Yoxsa Biz mələkləri dişi yaratmışıq və onlar da (buna) şahid olublar?(37/150) Bizdən (mələklərdən) elə birisi yoxdur ki, onun (səmada Allaha ibadət üçün) müəyyən bir yeri olmasın! ...Həqiqətən, **biz cərgə-cərgə dururuq!** (37/164,165) Göylərdə neçə-neçə mələklər vardır. (53/26) Mələklər və ruh (Cəbrail) onun dərgahına

(dünya ilə müqayisədə) müddəti əlli min il olan bir gündə qalxarlar! (70/4)...Mələklər də Allahın qorxusundan Onu öyüb mədh edirlər... (13/13)

Adətən insanlar nədənsə mələkləri məhz qız kimi təsəvvür edirlər. Azərbaycanda “Mələk” adı qoyulmuş çoxlu sayda qızlar və qadınlar vardır. Quranda məhz bu barədə yazılmışdır ki:-Yoxsa Biz mələkləri dişi yaratmışıq və onlar da (buna) şahid olublar?(37/150)–deyə, soruşulur. Bu ayədən başa düşmək olur ki, mələklərin cinsiyyəti yoxdur. Onlar yalnız Allahın sadiq qulu olaraq müəyyən əmrlərini icra etmək üçün yaradılmışdılar. Mələklər haqqında Quranda bəzi məlumatlar verilmişdir. Bu məlumatlara əsaslanaraq mələkləri bir neçə qrupda birləşdirmək olar:

**1. Qüdrətli mələklər**-Biz mələkləri yalnız haqq olaraq (peyğəmbərlərə vəhy gətirmək) üçün endiririk...(15/8) ...Ruhulqüds (Cəbrail) onu (Quranı) sənin Rəbbindən iman gətirənlərə səbat etmək üçün bir haqq, müsəlmanlar üçün isə bir hidayət və müjdə olaraq nazil etmişdir!(16/102) Məryəm oğlu İsaya aşkar möcüzələr bəxş etdik və onu müqəddəs ruhla (Cəbraillə-İsmi-əzəmlə) qüvvətləndirdik...(2/87) Cəbrail imrani dilində “Allahın qulu” mənasını verir. “Cəbrailə düşmən olan kəsə soylə ki, həqiqətən, o, (Cəbrail) özündən əvvəlkiləri (Tövratı və İncili) təsdiq edən, möminləri doğru yola yönəldən, (onlara) müjdə verən Quranı Allahın izni ilə sənin qəlbinə çatdırmışdır.(2/97) Onu (Məhəmməd Peyğəmbərə) çox qüvvətli olan (Cəbrail) öyrətdi.(53/5) ...Həmin gün (Qiyamət günü) sənin Rəbbinin ərşini onların (başı) üstündə səkkiz mələk daşıyacaqdır!(69/17) O elçi mələklərin

əlləri ilə (lövhi-məfhuzdan) köçürülüb...O mələk-lər ki, çox mötərəm və çox mütidirlər!(80/15, 16) Bu Quran çox möhtərəm olan bir bir elçinin (Cəbrailin) gətirdiyi kəlamdır...Elə bir elçi ki, çox qüvvətlidir, ərşin sahibinin (Allahın) yanında çox hörmətli, izzətlidir...Elə bir elçi ki, (mələklər arasında) itaət ediləndir, həm də (Allah yanında vəhyə) etibarlı müvəkkildir...And olsun ki, o Cəbraili açıq (ən uca) üfüqdə gördü.(81/19,20,21,23). **Sur** 1-ci dəfə çalınacaq, Allahın istədiyi kimsələrdən–**Cəbrail, Mikail, Əzrail** və **İsrafildən**, yaxud Ərşi daşıyan mələklərdən...başqa dərhal hamı öləcək...(39/68) Sur 2-ci dəfə çalınan kimi qiyamət günü qəbirlərindən qalxıb sürətlə Rəbbinin hüzuruna axışacaqlar...İsrafil 3-cü dəfə surunu çalan kimi onlar hamısı haqq-hesab üçün qarşımızda hazır duracaqlar. (36/51,53).

**2. Xeyirxah mələklər:**-O kəslər ki, mələklər onların canlarını pak olduqları halda alıb:-Sizə salam olsun! Etdiyiniz əməllərə görə Cənnətə daxil olun!-deyərlər. (16/32) Biz sənə Allahdan doğru xəbər gətirmişik. Biz həqiqətən doğru danışanlarıq.(15/64) And olsun işə əncam çəkənlərə...(79/5) And olsun (möminlərin canını) rahatlıqla alanlara...(79/2) ...ruzi bölən mələklərə and olsun...(51/4). Qədr gecəsi min aydan daha xeyirlidir...O gecə mələklər və Ruh (Cəbrail) Rəbbinin izni ilə hər bir işdən ötrü yerə enərlər. (97/3,4) O mələklər ki, Allahın yanında çox möhtə-rəm və Allaha çox mütidirlər. (80/16)

**3. Əzab mələkləri:**-Mələklər...özlərinə zülm edənlərin canlarını aldıqda...onlar təslim olub:-Biz heç bir pislik etmirdik!–deyəcək, mələklər də onlara belə cavab verəcək-

lər:-Xeyir! Allah sizin nələr etdiyinizi çox yaxşı bilir!... Haydı, girin əbədi qalacağınız Cəhənnəmin qapılarına! (16/28,29) Mələklər belə cavab verdilər:-Xeyir! Biz sənin yanına onların (ümmətindən olan kafirlərin) şübhə etdikləri əzabla gəlmişik! (15/63) And olsun (kafirlərin canını) zorla alanlara...(79/1) Biz də rəbbaniləri (Cəhənnəmdəki əzab mələklərini) çağıracağıq!(96/18) Bəs mələklər onların üzlərinə, arxalarına vura-vura canlarını alanda halları necə olacaq?(47/27) Yoldaşı–ona təhkim olunmuş mələk deyəcəkdir:-Bu yanımdakı Cəhənnəm üçün hazırdır...Allah o iki mələyə buyuracaq:-Atın Cəhənnəmə hər bir inadcıl kafiri. (50/23,24)

**4. Gözətçi mələklər:-**Xatırla ki, (insanın) sağında və solunda (onun bütün əməllərini) yazan iki mələk oturmuşdur...Dediyi hər sözü (yazmaq üçün) onun yanında hazır durub gözləyən (iki mələk) vardır.(50/17,18) Biz cinlər göyə qalxmaq istədik, amma onun mələklərdən ibarət güclü gözətçilər və yandırıb-yaxan ulduzlarla dolu olduğunu gördük!(72/8) Onun üstündə on doqquz nəfər (gözətçi mələk) vardır...Biz Cəhənnəm gözətçilərini yalnız mələklərdən etdik...(74/30,31) Sizin üstünüzdə gözətçi mələklər...(Əməllərinizi) yazan və (Allah dərgahında) çox hörmətli olan mələklər vardır...Onlar sizin nə etdiklərinizi bilirlər. (82/10,12) Elə kimsə yoxdur ki, onun üstündə bir gözətçi (mələk) olmasın! (86/4) İnsan üçün öndən və arxadan təqib edən mələklər vardır. Onlar insanı Allahın əmri ilə qoruyurlar!(10/11)

**5. Sorğu mələkləri:-**İnsanı qəbrə qoyduqda onun ya-

nına İnkir və Munkir adlı iki mələk gələr. Qəbirdəki insanı əməllərinə görə sorğu-suala tutarlar. Nə üçün ona verilən öyüd-nəsihəti eşitmədiyi barədə soruşarlar. Əgər qəbirdəki mömin şəxsdirsə mələklər ona:-Allahdan sənə salam olsun!–deyərlər və bu zaman qəbri nurla dolar. Yox, əgər qəbirdəki kafirdirsə ona mələklər:-Allahın lənətinə gəlmisən–deyərlər. Həmin şəxs gündə iki dəfə qəbirdə o üz, bu üzə yandırılar. Buna görə də el arasında:-Allah məni qəbir əzabından qorusun!–deyə, insanlar arzu edərlər. **Onlar ölən gündən qiyamətə qədər qəbir evində səhər-axşam gündə iki dəfə odda yandırılarlar...**(40/40).

## 2.2. Kainatın yaradılması

**"Kainat"** dedikdə qalaktikaların yerləşdiyi nəhəng göy qübbəsini düşünürük. Kainatın yaradılması Quranda öz əksini tapmışdır. Müasir texnikanın köməyi ilə əldə edilmiş elm Quranda kainat haqqında yazılanların cüzi bir qismini izah edə bilmişdir. Quranı oxuyarkən aydın olur ki, kainatda nə varsa, onların hamısı biz insanların mənfəəti, yaşamasını təmin etmək üçün yaradılmışdır:-Ərşi su üzərində ikən hansınızın daha gözəl əməl sahibi olacağını sınayıb bilmək üçün **göyləri və yeri 6 gündə** yaradan Odur! (11/7) Sonra Allah tüstü halında olan göyə üz tutdu. O göyə və Yerə belə buyurdu:-İstər-istəməz vücuda gəlin! Onlar da:-İstəyərək (Allahın əmrinə itaət edərək) vücuda gəldik!–deyə cavab verdilər. Allah onları **yeddi göy** olaraq iki gündə əmələ gətirdi. Beləliklə, 2 gün ərzində Yer, sonar 2 gün ərzində

Yer üzündə olanlar, daha sonar 2 gün ərzində göylər xəlq edildi. **Kainatın yaradılması 6 gün ərzində başa çatdı.** O, hər bir göyün işini özünə vəhy edib bildirdi. Biz aşağı göyü (dünya səmasını) **qəndillərlə** bəzədik və (onu) şeytanlardan, hər cür bəladan hifz etdik.(41/11,12) O, göyləri, yeri və onların arasındakıları 6 günə xəlq etdi, sonar ərşi yaradıb ona hakim olan Rəhmandır…(25/59)…O Yerə girəni də, Yerdən qalxanı da, Göydən enəni də, Göyə qalxanı da bilir…(57/4) Məgər Rəbbinin **kölgəni** (günçıxandan günbatanadək) necə uzatdığını görmürsənmi? Əgər istəsəydi onu daim öz yerində saxlayardı. Sonra Biz Günəşi kölgəyə bir əlamət etdik. Sonra o kölgəni (Günəşin yüksəlməsi ilə) yavaş-yavaş özümüzə tərəf çəkdik.(26/45,46). Sizə qorxu və ümid məqsədi ilə **şimşək** göstərən…Odur. **Göy gurultusu** Onun şəninə təriflər deyir…O **ildırımlar** göndərib kafirlər Allah barəsində mübahisə edərkən onların vasitəsi ilə istədiyini vurar. Göylərdə və yerdə kim varsa özləri də, kölgələri də səhər-axşam istər-istəməz Allaha səcdə edər. (13/12,13,15)

…Səmaya üz tutaraq onu **yeddi qat** halında düzəldib nizama salan Odur! (2/29) Biz səmada **bürclər** yaratdıq, onlara baxanlar üçün (ulduzlarla) bəzədik. (15/16) …insanlar (gecə vaxtı) yollarını (və qibləni) ulduzlar vasitəsi ilə taparlar. (16/16) Allah **göyləri** gördüyünüz kimi **dirəksiz** yaratmışdı…(31/10) Biz (sizə) ən yaxın olan göy üzünü **ulduzlarla** bəzədik…(37/6)…onları şeytanlara atılan mərmilər etdik və şeytanlar üçün yandırıb–yaxan alovlu atəş əzabı hazırladıq.(67/5) Göylərdə neçə-neçə mələklər vardır..



**"Biz aşağı göyü qəndillərlə bəzədik."**

(53/26) Səmada bürclər yaradan, orada bir **çıraq (Günəş)** və **nurlu Ay** vücuda gətirən (Allah)…(25/61) Məgər kafir olanlar göylə yer bitişik ikən Bizim onları ayırdığımızı… bilmirlərmi!?...(21/30) **Gecənin** zülmətindən **səhəri** yarıb çıxaran…Odur!(6/96)…Gecəni dincəlməyiniz üçün **qaranlıq,** gündüzü çalışıb ruzi qazanmağınız üçün **işıqlı** edən Odur!(10/67)…Allah bəndələrinin mənafeyi naminə bəzən insanlar daha çox ruzi qazana bilsinlər deyə, gecəni qısaldıb gündüzü uzadar, bəzən də onlar daha çox istirahət edib dincələ bilsinlər deyə, gündüzü qısaldıb gecəni uzadar. Allah hər şeyi eşidən və görəndir!(22/61)

Günəşi və Ayı bir **ölçü vasitəsi** edən Odur!(6/97) …Onların hər biri müəyyən müddətə qədər (qiyamət gününə qədər) dövr edər…(31/29) O gecəni və gündüzü, Günəşi və Ayı sizə (sizin mənfəətinizə) tabe etdi. (16/12) Nə Günəş Aya çatar (yetişər), nə də gecə gündüzü ötə bilər!...(35/40)

Yeni doğan aylar (**hilal)** səndən sual edildikdə, söylə ki, bunlar insanların istifadəsi və həcc üçün vaxt ölçüləridir… (2/189) Biz Ay üçün də mənzillər müəyyən etdik. Nəhayət o, (həmin mənzilləri başa vurduqdan sonra) dönüb xurma ağacının quru və əyri budağı kimi (hilal) şəklində olar. (35/39) Günəşi işıqlı, Ayı nurlu edən, illərin sayını və hesabı biləsiniz deyə, Ay üçün mənzillər müəyyən edən Odur! (10/5). Həqiqətən Allah yanında ayların sayı göyləri və yeri yaratdığı gündən bəri Allahın kitabında **12**-dir.




**"Günəşi bir nur, Ayı bir çıraq yaratdır."**

Onların dördü **haram aylardır** (rəcəb, zülqədə, zülhiccə və məhərrəm). Ona görə də həmin aylarda özünüzə zülm etməyin…(9/36)…Allahdan ruzi istəyənlər üçün bərabər olaraq orada yer əhlinin ruzisini 4 gündə-mövsümdə müəyyən etdi…(41/10)

**-Biz Yeri döşədik**…Biz hər şeydən cüt-cüt ya-ratdıq… (51/48,49) Yeri yarıb **bulaqlar** qaynat-dıq…(54/12)…yeri döşəyib düzəltdik. Ondan suyunu və **otlağını** çıxartdıq. (Orada) dağları yerləşdirdik. (Bütün bunlar ) sizin və

heyvanlarınız üçündür.(79/30,32,33) Allah sizi yırğalamasın deyə, Yer üzündə möhkəm dayanan dağlar və (istədiyiniz yerə) gedib çata biləsiniz deyə, **çaylar** və **yollar** yaratdı. O, (yollarda) əlamətlər (dərə, təpə, çüxur) də müəyyən etdi…(16/15,16)…Bəzi daşların içərisindən nəhrlər axar, bəzisi yarılıb içindən su fışqırar və bəzisi də Allahın qorxusundan (uca yerdən, dağdan) yuvarlanıb düşər…(2/74)…dağlarda müxtəlif rəngli–ağ, qırmızı, tünd qara yollar (qayalar) peyda etdik. (35/27)…onu bərəkətli etdik…(41/10)…sizə **şirin su** içirdik. (77/27) Biz (buludla) yüklənmiş **külək** göndərdik…(15-22) Küləkləri rəhməti (yağışı) önündə müjdəçi olaraq göndərən də Odur…(25/48) Əgər Allah istəsə küləyi saxlayar…(42/33)…küləklər (yağmur yüklü) ağır **buludları** hərəkətə gətirdiyi zaman, Biz onları ölü (qurumuş) bir məmləkətə tərəf qovur, ora **yağmur** endirir və onunla hər cür meyvə yetişdiririk…(7/57)…Biz buludları onların üstündə kölgəlik etdik…(7/160)…Allah buludları qovar, sonar onları bir araya toplayar, sonar da üst-üstə yığıb topa halına salar. Və görürsən ki, o buludların arasından yağmur çıxar… Buludların **şimşəyinin** parıltısı az qala gözləri kor edər. (24/43)… Allah göydən dağlar kimi **dolu** yağdırar, sonra da onunla istədiyini bəlaya düçar edər, istədiyindən də onu sovuşdurar…(24/43) Sizə həm qorxu, həm də ümid verən **ildırımı** göstərməsi…Onun qüdrət əlamətlərindəndir…(30/24) Sizi Yer üzündə yerləşdirdik və orada sizin üçün dolanacaq yaratdıq. (7/10)...(Ey insan!) Sən Yer üzünü qupquru görərsən. Biz ona yağmur endirdiyimiz zaman o, hərəkətə (cana) gəlib qabarar (göyərər) və hər növ gözəl (meyvədən, bitkidən)

bar gətirər. (22/5)...sizin üçün gözəl baxçalar yetişdirdik...(27/60)...Biz...növbənöv meyvələr yetişdirdik...(39/21) ...Biz **xurma** ağacından, onun tumurcuğundan bir-birinə sarmaşmış salxımlar...**üzüm** bağları, bir-birinə bənzəyən və bənzəməyən **zeytun** və **nar** yetişdirdik.(6/99)...sizin üçün yaşıl ağaclardan (Ərəbistanda bitən **mərx** və **ifar**) **od** əmələ gətirdi...indi ondan od yandırırsınız.(36/80)...biçilən **taxıl** dənləri yetişdirdik...(50/9)...dən və bitki..sarmaşan bağlar ...dən...üzüm və yonca...zeytun və xurma...ot və ələf yetişdirdik...(Bütün bunlar) sizin və heyvanlarınızın istifadəsi üçündür. (80/27,28,29,30)



**"Şimşəyin parıltısı az qala gözləri kor edər."**

**Allah ..ora (Yer üzünə) cürbəcür heyvanlar** səpələmişdir. (31/10)...Onların bəzisi qarnı üstə sü-rünür, bəzisi iki, bəzisi də dörd ayaq üstə gəzir...(24/45)...Ruzi olaraq verdiyimiz halal şeylərdən yeyin!–deyərək, sizə **qüdrət halvası** və **bildirçin** göndərdik...(2/57) Allah o heyvanlardan (**inək**, **qo-**

**yun**, **dəvə**, **keçi)** səkkiz cift yaratdı. (6/143) **Davarı** da O yaratdı. Bunlarda sizin üçün istilik, cürbəcür mənfəət vardır, həm də onlardan (ətindən) yeyirsiniz. Onlar sizin yüklərinizi özünüzü yormadan çata biləcəyiniz bir ölkəyə...daşıyarlar. Sizin minməyiniz və sizin üçün bəzək olsun deyə, **atı**, **qatırı** və **uzunqulağı** O yaratdı...davarda sizin üçün bir ibrət vardı. Biz onların qarınlarındakı qanla ifrazat arasında olan təmiz **südü** sizə içirdirik. O içənlərin (boğa-zından) rahat keçər. Rəbbin **bal arısına** belə vəhy etdi:-Dağlarda, ağaclarda və insanların qurduğu yerdə...özünə yuva tik...sonra bütün mey-vələrdən ye və Rəbbinin sənə göstərdiyi yolla rahat, asan-lıqla get!...O arıların qarınlarından müxtəlif rəngli, insanlar üçün şəfa olan **bal** çıxar...Allah...heyvanların dəri-lərindən həm köç vaxtı, həm də bir yerdə qaldığınız zaman (daşın-ması) sizin üçün yüngül, asan olan **evlər-çadırlar** düzəltdi, onların **yunundan**, **tükündən** və **qılından** müəyyən vaxta qədər...istifadə edəcəyiniz ev əşyası...və başqa şeylər...verdi. (16/5,7,8,66,68,69,80) İki **dəniz** eyni deyildir. Birinin suyu çox şirin, dadlı və içməyə rahat, digərinin isə həddindən artıq şor və acıdır. Onların hər birindən təzə ət (balıq) yeyir, taxdığınız (inci və mərcan kimi) bəzəklər çıxardırsınız. Alla-hın lütfündən və nemətlərindən ruzi axtarmağınız üçün **gəmilərin** də orada (suda) yara-yara üzdüyünü görürsən! (35/12) İki dənizi O qovuşdurdu... Amma onların arasında **maneə** vardır, bir-birinə qatışmazlar. O iki dənizdən **inci** və **mərcan** çıxar. (55/19,20). Allah yeri sizə ram edən Odur! Onun qoynunda gəzin, Allahın ruzisindən yeyin!...(67/15) ...dənizi sizə ram edən Odur!...(16/14)...Allah...Yeri sizin

üçün beşik etdi və (istədiyiniz yerə) doğru-düzgün gedə biləsiniz deyə, orada sizin üçün **yollar** saldı. (43/10)



**“Pis əməllər üzündən quruda pozuntu əmələ gələr.”**



**“İnsanların öz əməlləri üzündən suda pozuntu əmələ gələr.”**



**“Allah başınızın üstündən sizə əzab göndərməyə... qadirdir!”**



**“Allah başınızın üstündən sizə əzab göndərməyə... qadirdir!”**

İnsanların öz əməlləri ilə etdikləri pis əməllər üzündən suda və quruda fəsad, pozuntu əmələ gələr ki, Allah onlara etdikləri bəzi günahların cəzasını daddırsın və bəlkə, onlar (tövbə

edib pis yoldan) qayıtsınlar. (30/41)



**“Allah ayaqlarınızın altından sizə əzab göndərməyə... qadirdir!”**

Ölü torpaq onlar üçün bir dəlildir. Biz onu (yağışla) dirildir, oradan (arpa, buğda, düyü) dənlər çıxardırıq, onlar da ondan yeyirlər. (36/33) Biz həddindən artıq möhkəm olan və insanlara fayda verən **dəmiri** də icad etdik...(57/25)...dəmiri onun üçün yumşaltdıq...**mis** mədənlərini sel kimi axıtdıq... (34/10,12) Həqiqətən, Allah göyləri və yeri zaval tapmasınlar (öz məhvərindən çıxmasınlar) deyə, **tutub saxlayır**. Əgər onlar öz məhvərindən çıxsalar, Allahdan başqa onları heç kəs tutub saxlaya bilməz...(35/41) Göylərin və Yerin xəzinələri Allaha məxsusdur...(63/7) Göylərdə və Yerlərdə olanların hamısının sahibi, müqəddəs və pak olan, yenilməz qüvvət və hikmət sahibi Allahı təqdis edib, Onun şəninə

təriflər deyər! (62/1) Otlar da, ağaclar da Allaha səcdə edər! (55/6)

## 2.3. İnsanın yaradılması

-(Ya Məhəmməd!) sənin Rəbbin mələklərə:-Mən yer üzündə bir xəlifə (canişin) yaradacağam–dedikdə, mələklər:-Biz Sənə şükr etdiyimiz, şəninə təriflər dediyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən yer üzündə fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?–söylədilər. Allah (onlara):-Mən bildiyim şeyi siz bilmirsiniz!–buyurdu.(2/30)...Rəbbin mələklərə belə demişdi:-Mən palçıqdan bir insan (Adəmi) yaradacağam. Mən onu tamamlayıb (insan şəklinə salıb) Öz ruhumdan üfürən kimi ona (hörmət əlaməti olaraq) səcdə edin!(38/71,72) Biz insanı quru (toxunduqda saxsı kimi səs çıxardan) və qoxumuş qara palçıqdan yaratdıq.(15/26)...Allah Adəmi torpaqdan yaratdı. Sonra ona “**Bəşər ol**!”–dedi, o da oldu. (3/59) Sonra onu düzəldib insan şəklinə saldı və ona Öz ruhundan üfürdü (can verdi). O sizə **göz, qulaq** və **ürək** verdi.(32/9)“...Biz onu **eşidən** və **görən** yaratdıq. (76/2)

(Allah Adəmi yaratdıqdam sonra) Adəmə bütün şeylərin adlarını öyrətdi. Sonra onları (həmin şeyləri) mələklərə göstərərək:-İddianız doğrudursa, bunların adlarını Mənə bildirin!-dedi...Onlar:-Sən pak və müqəddəssən! Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik. Hər şeyi bilən Sən, hikmət sahibi Sənsən!–dedilər...(Sonra) O:-Ey Adəm, bunların adlarını onlara bildir!–dedi. Adəm mələklərə bunların adlarını xəbər verdikdə, Allah:-Mən sizə, göylərin və ye-

rin gözə görünməyən sirlərini və sizin zahirə çıxardığınız, yaxud gizli saxladığınız işləri bilirəm, söyləmədimmi?–buyurdu...Biz mələklərə:-**Adəmə** səcdə edin!–dedikdə, İblisdən başqa hamısı səcdə etdi. Yalnız o lovğa-lanaraq imtina etdi və kafirlərdən oldu.(2/31,32,33,34) Allah İblisə:-Mən sənə əmr edəndə sənə səcdə etməyə nə mane oldu?–deyə, buyurdu. İblis:-Mən ondan daha yaxşıyam. Çünki, Sən məni oddan, onu isə palçıqdan yaratmısan! (7/12) Allah buyurdu:-Oradan (Cənnətdən) aşağı en! Orada sənə (Allahın əmrinə) təkəbbür göstərmək yaraşmaz! İblis dedi:-Mənə qiyamətə qədər möhlət ver! Allah buyurdu:-Sən möhlət verilənlərdənsən! İblis dedi:-Sən məni azdırıb yoldan çıxartdığın üçün, mən də sənin düz yolunun üstündə oturub insanlara sənə ibadət və itaət etməyə mane olacağam!(7/13,14,15,16) Sizi tək bir nəfərdən (Adəmdən) xəlq edən və onunla ünsiyyət etmək üçün özündən **zövcəsini** (Həvvanı) yaradan Odur!... (7/189) Biz dedik:-Ey Adəm, sən zövcənlə (Həvva ilə) Cənnətdə qal və hər ikiniz oradakı meyvələrdən bol-bol yeyin, yalnız bu ağaca (buğdaya) yaxın düşməyin! Yoxsa özünüzə zülm edənlərdən olarsınız! Şeytan Adəmin və Həvvanın örtülü ayıb yerlərini özlərinə göstərmək məqsədi ilə pıçıldayıb dedi:-Rəbbiniz bu ağacı yalnız mələk olmamağınız və ya (Cənnətdə) əbədi qalmamağınız üçün qadağan etmişdir. (7/20) Şeytan Adəmə dedi:-Sənə meyvəsindən yeyəcəyin təqdirdə heç vaxt ölməyəcəyin və həmişə Cənnətdə yaşayacağın əbədiyyat ağacını və köhnəlib xarab olmayan bir mülkü göstərimmi?...Adəm və Həvva həmin ağacın meyvəsindən yedilər və dərhal hər ikisinin ayıb yerləri göründü.

Onlar lüt bədənlərinə Cənnət ağaclarının yarpaqlarından yapışdırmağa başladılar. Beləliklə, Adəm Rəbbinin əmrindən çıxdı, amma mətləbinə yetmədi...Həvva ilə birlikdə Yer üzünə endirildi.(20/120,121) Şeytan onları azdırıb (buğdadan yedizdirməklə) nemətlər içində olduqları yerdən uzaqlaşdırdı. Biz də (Adəmlə Həvvaya və Şeytana):-Bir-birinizə düşmən kəsilə-rək buradan kənar olub Yer üzünə enin! Yerdə sizin üçün müəyyən vaxta qədər (ömrünüzün axırınadək) sığınacaq və yaşayış vasitələri vardır!-dedik. Adəm Rəbbindən bəzi xüsusi kəlmələr öyrənərək **tövbə etdi**. Doğrudan da O tövbələri qəbul edəndir və mərhəmətlidir! (2/35,36,37) (İblis) dedi:-Sənin izzətinə-qüdrətinə and olsun ki, onların (Adəm oğullarının) hamısını (haqq yolundan) azdıracağam. Yalnız Sənin sadiq bəndələrindən başqa! (38/82,83) Allah buyurdu:-Çıx get! Sənə qiyamətə qədər möhlət verdim! Onlardan hər kəs sənə uysa, bil ki, cəzanız Cəhənnəmdir. Özüdə tamam-kamal bir cəza! (17/63) Mən mütləq Cəhənnəmi səninlə və sənin ardınca gedənlərlə (sənə uyan Adəm oğulları ilə) dolduracağam! (38/85)

**-Ey insanlar!...Yer üzündə şeylərin təmiz və halal olanlarını yeyin**! Şeytanın izi ilə getməyin! Həqiqətən, şeytan sizinlə açıq-aydın düşməndir. O sizə ancaq pis və murdar işləri görməyi...əmr edər. Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə (islama) gəlin! Şeytanın yolu ilə getməyin, çünki o, sizin açıq düşməninizdir!"(2/168,169, 208). "Əgər biz istəsəydik hər kəsi doğru yola salardıq... lakin Mən:-Cəhənnəmi mütləq (günahkar) cinlər və insanlarla dolduracağam!-sözünü gerçək olaraq demişəm! Bizim

bu hökmümüz labüddür. Bu sözün, bu hökmün doğruluğunu sübut etmək üçün günahkar, kafir, yaxud müşrik olacağını bidiyimiz şəxsi doğru yola salmadıq. Çünki, həmin şəxs **Bizim ona bəxş etdiyimiz ağılla** yaxşını pisdən ayırıb doğru yolu özü tutmalı idi.(32/13)

-Biz Adəm övladını **şərəfli** və **hörmətli** etdik... yaratdığımız məxluqatın çoxundan üstün etdik...(17/70) Allah sizin üçün özünüzdən zövcələr yaratdı, zövcələ-rinizdən də sizin üçün **oğullar, nəvələr** əmələ gətirdi, pak nemətlərdən sizə ruzi verdi....(16/72) Allah insanı nütfədən (mənidən, bir qətrə sudan) xəlq etdi. (16/4) Sonra onu (Adəm övladını) nütfə halında möhkəm bir yerdə (ana bətnində) yerləşdirdik. Sonra **nütfəni** laxtalanmış **qana** çevirdik, sonra laxtalanmış qanı bir parça **ət** etdik, sonra o bir parça əti **sümüklərə** döndərdik, sonra sümükləri ətlə örtdük və daha sonra onu bambaşqa (yeni) bir **məxluq** olaraq yaratdıq...Sonra siz mütləq öləcəksiniz. Sonra siz qiyamət günü yenidən diriləcəksiniz! Siz Onun hüzuruna cəm ediləcəksiniz. (23/13,14,-15,16,79)...O sizi analarınızın bətnində üç zülmət (pərdə, uşaqlıq və qarın) içində yaranışdan-yaranışa salaraq yaradır.(39/6) O axıb tökülən bir sudan yaradılmışdır. O su (kişilərin) bel sümüyündən, (qadınların isə) köks sümüyündən çıxar!(86-6,7)...O bimədən heç bir qadın hamilə olmaz və bari-həmlini yerə qoymaz... (41/47)...O istədiyinə ancaq **qız**, istədiyinə də ancaq **oğlan** verir. Yaxud hər ikisindən– həm oğlan, həm də qız verir, istədiyini də **sonsuz** edir... (42/49,51) Sizi torpaqdan yaratması, sonra da sizin bir insan olub yer üzünə yayılmağınız Onun qüdrət əlamətlərin-

dəndir. Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda dostluq, sevgi və məhəbbət yaratması da Onun qüdrət əlamətlərindəndir... dillərinizin və rənglərinizin müxtəlif-liyi də Onun qüdrət əlamətlərindəndir... Sizi zəif bir şeydən (nütfədən, bir qətrə sudan) yaradan, gücsüzlükdən (körpəlikdən) sonra **qüvvətli** (cavan) edən, qüvvətli olduq-dan sonra taqətsiz və **qoca** edən Allahdır...(30/20,21,22, 54,)...Sonra da öldürüb onu qəbrə qoydu...(80-21)...Biz sizi bir kişi və bir qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq...(49/13) İnsan tələsən, hövsələsiz yaradılmışdır....(21/37) İnsan üçün öndən və arxadan təqib edən mələklər vardır. Onlar insanı Allahın əmri ilə qoruyurlar. (13/11) Allah ruzi baxımından birinizi digərinizdən üstün etmişdir...(16/71) Həqiqətən, insan var-dövlətə çox hərisdir. (100/8) Yer üzündə ruzi əldə edə bilməyən neçə-neçə canlılar vardır. Onların da, sizin də ruzinizi Allah verir... Allah öz bəndələrindən istədiyinin ruzisini artırar, istədiyininkini də azaldar...(29/60,62)...Dünyada onların dolanacaqlarını öz aralarında Biz bölüşdürdük. Biri o birinə iş gördürsün deyə, birinin dərəcəsini digərindən üstün etdik....(43/32) **Allah insaflıları sevər!** (49/9)

-Sizin üçün gecəni örtük, yuxunu rahatlıq, gündüzü də (ruzi qazanmaq üçün) dirilik (vaxtı) edən Odur! (25/47) Biz Peyğəmbərləri müjdə gətirən və əzabla qorxudan göndərdik! (4/165) Bu Quran elə bir kitabdır ki, onu sənə insanları öz Rəbbinin izni ilə zülmətlərdən nura (küfrdən imana), həm də yenilməz qüvvət sahibi və hər cür tərifə, şükrə layiq olan



**"Sizi üç pərdə arxasında yaradarıq."**



**"Sizi...qüvvətli edən Allahdır."**

Allahın yoluna çıxartmaq üçün nazil etmişik. (14/1) (Ey insan!) Sənə yetişən hər bir yaxşılıq Allahdandır, sənə üz verən hər bir pislik isə özündəndir...(4/79) Sizin zəhmə-

tiniz ey insanlar, cürbəcürdür. Bəziniz Cənnət üçün, bəziniz isə Cəhənnəm üçün çalışırsınız. Bizim öhdəmizə düşən yalnız doğru yolu göstərməkdir. Mömin, kafir olmaq hər kəsin öz işidir. (92/4,12)



**"Taqətsiz və qoca edən Allahdır."**

-(Sərvətinizi) xalqın mal-dövləti hesabına artması üçün sələmlə verdiyiniz malın Allah yanında heç bir bərəkəti (artımı) olmaz! (30/39). O kəslər ki, sözü, öyüd-nəsihəti dinləyib onun ən gözəlinə, düzgününə uyarlar. Onlar Allahın doğru yola yönəltdiyi kəslərdir. Ağıl sahibləri də elə onlardır. (39/18) Hər şeyi zamanın, vaxtın boynuna yıxmaq doğru deyildir, çünki, canlı və cansız məxluqat kimi zamanı da yaradan Allahdır!(45/24)

**-Həqiqətən, hər çətinlikdən sonra bir asanlıq gələr**. Buna görə də çətinliklərə səbrlə dözmək lazımdır. (94/6)...

Allah alış-verişi halal, sələm almağı isə haram (qadağan) etmişdir.(2/275) Sələm yeyənlər (qiyamət günü) qəbirlərindən cin vurmuş (dəli) kimi qalxarlar. Bunların belə olmaları:-Alış-veriş də sələm kimi bir şeydir!–dedikləri ucundandır. Halbuki, alış-veriş halal, sələm almağı haram (qadağan) etmişdir. İndi hər kəs Rəbbi tərəfindən gələn nəsihəti qəbul etməklə (bu işə) son qoyarsa, keçmişdə aldığı (sələm) onundur (ona bağışlanar). Onun işi Allaha aiddir. Amma (yenidən sələmçiliyə) qayıdanlar Cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar. Allah sələmi (sələmlə qazanılan malın bərəkətini) məhv edər....Allahdan qorxub sələmdən qalan məbləğdən (faizdən) vaz keçin! Əgər belə etməsəniz o zaman Allaha...qarşı müharibəyə girişdiyinizi bilin! Yox əgər tövbə etsəniz, sərmayəniz (malınız) sizindir. Beləliklə, nə siz zülm edərsiniz, nə də sizə zülm olunar! (2/275,276,278, 279)...**insanlar arasında ədalətlə hökm et!** Nəfsdən gələn istəklərə uyma, yoxsa, onlar səni Allah yolundan sapdırar... (38/26)...Allah ədalətli olanları sevər!(60/8) Ölçəndə ölçüdə düz olun, düzgün tə-rəzi ilə çəkin! Bu (sizin üçün) daha xeyirli və nəticə etibarı ilə daha yaxşıdır!(17/35) ...Qadağan olmasına baxmayaraq, **rüşvət** aldılar, haqsız yerə xalqın malını yedilər. Biz onlardan olan kafirlər üçün şiddətli bir əzab hazırlamışıq.(4/161) Bir-birinizin mallarını haqqınız olmadığı halda yeməyin, xalqın mallarından bir qismini bilə-bilə haqsız yerə yemək üçün günah yolu ilə (rüşvətlə) hakimlərə müraciət etməyin!(2/188)...(Malına qürrələnib) sevinmə! Şübhəsiz ki, Allah (malına qürrələnib) sevinənləri sevməz! Allahın sənə verdiyindən özünə axirət qazan (malını Allah

yolunda sərf et). Dünyadakı nəsibini də unutma. (O maldan qismətinin ancaq bir kəfən olduğunu bil!) Sabah səni Allahın əzabından qurtaracaq yaxşı əməllər et! Allah sənə (sərvət verməklə) yaxşılıq etdiyi kimi, sən də (varından yoxsullara, qohum-əqrabaya xərcləməklə) yaxşılıq et...! (28/76,77) Siz mal-dövlətinizin yalnız qırxdan birini (1/40) Allah yolunda sərf etməyə çağrılan kimsələrsiniz... (47/38). ...Yaxşı işlər görməkdə bir-birinizi ötməyə çalı-



**"Bir-biri tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq."**

şın!...Allahın sizə verdiyi ruzidən (eytiyacı olanlara) sərf edin!...(36/47) Allah tərəfindən bəxş olunmuş mal-dövləti sərf etməyə xəsislik edən-lər heç də bunu özləri üçün xeyirli hesab etməsinlər. Xeyir, bu onlar üçün zərərlidir...(3/180) Sənin Rəbbin həm bağışlayan, həm də şiddətli cəza verən-dir! (41/43) Məgər insan güman edir ki, o başlı-başına cəza-

sız buraxılacaqdır?!(75/36) Sizin üstünüzdə gözətçi mələklər, əməllərinizi yazan və Allah dərgahında çox hörmətli olan mələklər vardır. (82/10,11)...Biz sizin etdiyiniz əməlləri orada mələklərə bir-bir yaxdırmışdıq.(45/29)...Allah özünü bəyənənləri və lovğalıq edənləri sevməz!(94/37) Məgər onlar başlarının üstündəki göyü və ayaqlarının altındakı Yeri görmürlərmi? Yer və göy onları elə əhatə etmişdir ki, bu dairədən heç yerə çıxıb qaça bilməzlər. Əgər istəsək, onları yerə batırar, yaxud göyün bir parçasını onların başına endi-



**“Pak nemətlərdən sizə ruzi verdik.”**

rərik...(34/54)...onlar üçün qaçıb can qurtarmağa heç bir yer yoxdur!(42/35) Yaxşılıqla pislik eyni ola bilməz!...(41/34) Kim yaxşı bir iş görsə, ona həmin işin on qat əvəzi (savabı) verilər. Kim bir pis iş görərsə, ona həmin işin misli qədər cəza verilər. Onlara haqsızlıq edilməz. (6/160)...heç kəsə əbədi həyat vermədik... Hər bir kəs ölümü dadacaqdır. Yoxlamaq məqsədi ilə Biz sizi xeyir və şərlə, sağlamlıq, var-dövlət, cah-calal, xəstəlik, yoxsulluq və eytiyacla sınağa çəkərik. Və siz qiyamət günü əməllərinizin əvəzini almaq üçün

ancaq Bizim hüzurumuza qaytarılacaqsınız! (21/34,35)

**-Biz insanı məşəqqətdə yaratdıq.** Məgər insan heç kəsin ona gücü çatmayacağını zənn edir? Məgər heç kəsin onu görmədiyini güman edir? Məgər Biz ona **iki göz** vermədikmi? Eləcə də **bir dil** və **qoşa dodaq** (vermədikmi)? Biz ona **iki yolu** (küfr və iman yolunu) göstərmədikmi? Lakin o **əqəbəni** (maneəni) keçə bilmədi. (90/4,5,7,8,9, 10,11) Allah nə etdiklərinizi bilir!... (24/28)...aralarında gizli söhbət edən üç adamın dordüncüsü, beş adamın altıncısı Allahdır...Allah yenə onların yanındadır...Allah hər şeyi biləndir! (58/7)...Allah yenilməz qüvvət və intiqam sahibidir! (3/4)...Allahın qəzəbi də, əzabı da çox şiddətlidir! (4/84)...Allah onlara gördükləri işlər barəsində xəbər verəcəkdir! (5/14)...Hökm Allahındır və O, ən tez haqq-hesab çəkəndir!...Allah başınızın üstündən və ayaqlarınızın altından (göydən və yerdən) sizə əzab göndərməyə... qadirdir! (6/62,65)

...Rəbbin heç kəsə haqsızlıq etməz! (18/49)...Allahdan lazımınca qorxun!...(3/102)...Allah tezliklə haqq-hesab çəkəndir!...(2/202) Məgər insan elə güman edir ki, o, başlı-başına (cəzasız) buraxılacaq? (75/36) Məgər onlar başlarının üstündəki göyü və ayaqlarının altındakı Yeri görmürlərmi? Yer və göy onları elə əhatə etmişdir ki, **bu dairədən heç yerə çıxıb qaça bilməzlər.** Əgər istəsək, onları yerə batırar, yaxud göyün bir parçasını onların başına endirərik... (34/54)...onlar üçün qaçıb can qurtarmağa heç bir yer yoxdur! (42/35)



**“Yerlə göy onlarıı əhatə etmişdir.”**

Son vaxtlar dünyada və bizim ölkəmizdə həkimlər insanların üzərində kosmetik əməliyyatlar aparmaqla üz quruluşunda dəyişiklik edirlər. Bəzi insanlar qabırğalarının bir neçəsini çıxartdırırlar. Xüsusən, bu hal müğənnilər arasında daha çox yayılmışdır. Allahın yaratdıqlarına düzəliş vermək günah sayılır. Bu hal heyvanlar üzərində də həyata keçirilir. Bəzi insanlar müxtəlif heyvanların qulağını, quyruğunu kəsirlər, itlərin tüklərini qırxaraq görkəmlərini müxtəlif formalara salırlar. (Qəzaya uğrayıb cərrahiyyə əməliyyatı olunmuş insanlar isə müstəsnadır.)

-Allah ona (Şeytana) lənət etdi. O isə dedi:-Mən Sənin bəndələrinin bir qismini ələ alacağam...Onları hökmən çaşdıracaq, xülyalara salacağam... və **Allahın yaratdıqları-na dəyişiklik verməyə əmr edəcəyəm**! Allahı atıb Şeytanı özünə dost tutan şəxs, əlbəttə, ziyana uğramışdır. (4/118,119)

## 2.4. Peyğəmbərlər və onların missiyaları

**“Peyğəmbər”** fars sözü olub “**xəbər aparan**” deməkdir. Bütün islami mətnlərdə və Qurani Kərimdə “peyğəmbər” sözünün yerinə **“Nəbi”**-ərəbcə-**“xəbər verən”** sözü işlənir. Dinin ilk şərti Allahın tək tanrı olduğunu qəbul etməkdirsə, ikinci əsas şərti isə Allahın insanlar arasından seçdiyi **Nəbilərə inanıb onun öyüd-nəsihətlərinə qulaq asaraq əməl etməkdir. “Nəbi”** titulu verilmiş şəxs **“Rəsul-Allahın rəsulu”** adlanır. **“Rəsul”** ərəb sözü olub **“elçi”** deməkdir. Allah elçilərini özü seçir və onu digər insanlardan elm, mərifət, əxlaq, davranış baxımından üstün edir. Eyni zamanda insanlar Allahın elçisinə iman gətirmədikdə onların əli ilə möcüzə göstərir ki, insanlar baxıb ibrət alsınlar, iman gətirsinlər. Peyğəmbərlər hansı xalqın arasından seçilibsə, dini kitablar da həmin xalqın ana dilində göndərilmişdir:-Allah istədiyi kimsəni özünə (peyğəmbər) seçər və tövbə edib Ona tərəf qayıdan kəsi də doğru yola yönəldər! (42/13) Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilən (Qurana) inanmış və möminlər də iman gətirmişdilər. (Onların) hamısı Allaha, Onun mələklərinə, kitablarına və bütün peyğəmbərlərinə iman gətirərək dedilər:-Biz Onun peyğəmbərləri arasında fərq qoymuruq. (Allahın hökmlərini) eşitdik (anladıq) və itaət etdik. Ey Rəbbimiz, bizi bağışla, (axırda) Sənin dərgahına (hüzuruna) qayıdacağıq! (2/285)

İLk peyğmbər **Adəm** Peyğəmbər olmuşdur. Sonuncu peyğəmbər isə **Məhəmməd** Peyğəmbərdir:-Məhəmməd ...Allahın rəsulu (elçisi) və peyğəmbərlərin sonuncusudur...

(33/40) Biz səndən əvvəl də özlərinə vəhy etdiyimiz ancaq **kişi peyğəmbərlər** göndərmişdik...(16/43)

Qurani Kərimdə Adəm, Şis, İdris, Nuh, Hud, Salih, İbrahim, İshaq, İsmail, Lut, Əyyub, Yəqub, Yusif, Şueyb, Musa, Harun, Yuşa, İşmail, Davud, Süleyman, Yunis, Zəkəriyyə, Yəhya, İsa əl-Məsih, İlyas, Əlyas, Əçiya, Üzeyir, Xızır, Loğman, Zülqərneyn, Ərmiya, Əl-Yəsəi və Məhəmməd Peyğəmbərlərin adı vardır. El arasında belə bir and vardır:-And olsun 124 min peyğəmbərə! Peyğəmbərlərin sayının neçə olması dəqiq deyildir. Bu rəqəmin də dəqiq olması haqqında heç bir yazılı mənbə yoxdur. Peyğəmbərlərin dəqiq sayını yalnız Allah bilir. Qurani Kərimdə yuxarıda adları çəkilən peyğəmbərlərdən bəzilərinin haqqında geniş məlumat verilmişdir. Həyatı, davranışları, qabiliyyətləri və peyğəmbərliyi və s. barədə müxtəlif surələrin müxtəlif ayələrində öz əksini tapmışdır. Bəzi peyğəmbərlər haqqında az bilgi verilmişdir. Bəzilərinin isə yalnız adı çəkilərək yad edilmişdir:-...Biz peyğəmbərlərin bəzisini digərindən üstün etdik...(17/55) Çübhəsiz, insanlara doğru yolu göstərmək bizim öhdəmizdədir. (92/12) Allah möminlərə lütf edərək öz cərgələrindən onlara peyğəmbər göndərdi ki, ilahi ayələri oxusun. (3/164) Bu həmin Allahdır ki, yazıb-oxumaq bacarmayan savadsız insanlara öz cərgələrindən peyğəmbər göndərdi ki, onlara kitab (Quran) və hikmət öyrətsin. Bundan əvvəl həmin insanlar açıq-aşkar zəlalətdə idilər. (62/2) Allah (möminlərə) müjdə verən və (kafirlərə) qorxudan peyğəmbərlər yolladı, insanlar arasında onların anlaşa bilmədikləri məsələlərdə hakimlik etmək üşün haqlı

kitab (Quran) göndərdi.(2/213) Onlara de ki, əgər yer üzü mələklərin məskəni olsaydı, onlar üçün peyğəmbərliyə mələk göndərərdik.(17/95) Hər ümmətin öz peyğəmbəri vardır.(10/47) Öz içində peyğəmbər olmayan ümmət yoxdur!(35-24) Biz heç bir ümmətə elçi (peyğəmbər) göndərməyincə, ona əzab vermərik!(17/15) Heç bir elçini mənsub olduğu tayfanın dilindən başqa dildə göndərmədik, ta ki, Allahın çağırışını onlara çatdıra bilsin. (14/4) Biz səndən (Ya Məhəmməd!) əvvəl də peyğəmbərlər göndərmişdik. Onlardan kimisi haqqında sənə xəbər vermişdik, kimisi haqqında xəbər verməmişdik...(40/78) Ya Peyğəmbər! Həqi-qətən Biz səni (ümmətinə) bir şahid, bir müjdəçi və bir qorxudan kimi göndərdik.(33/45) Heç bir ümmətə mələk deyil, ancaq **kişi peyğəmbərlər** göndərdik ki, onlara vəhy edirdik. Əgər bilmirsinizsə kitab əhlindən soruşun!(21/7) Biz peyğəmbərləri yeməz-içməz (yemək yeməyən) bir bədən yaratmadıq. Onlar (dünyada) əbədi də deyillər. (21/8)

Yuxarıda göstərilmiş ayələrə yekun vuraraq aşağıdakı kimi nəticələr çıxarmaq olar:

1. Peyğəmbərlər yalnız kişilər arasından seçilmişdir.
2. Peyğəmbərləri Allah özü seçir.
3. Peyğəmbərin əsas vəzifəsi Allahın tək tanrı olduğunu, yaxşı əməl sahiblərinin Cənnətlə mükafatlandıracağını, pis əməl sahiblərinin Cəhənnəm odu ilə cəzalandıracağını insanlar arasında təbliğ etməkdir.
4. Peyğəmbərlər yalnız Allahın kəlamlarını xalqa çatdırmağa təhkim olunmuşlar, Allahın adından danışmağa ixtiyarları yoxdur.

5. Peyğəmbərlər Allahsevərliyi, elmi, əxlaqı, davranışı, mədəniyyəti, etiqadı, ibadəti və s. sahədə ümmətinə örnək olmalıdır.

6. Peyğəmbərlər yalnız Allahın icazəsi olduqda möcüzə göstərə bilərlər. Çünki möcüzə göstərmək yalnız Allaha məxsusdur.

7. Peyğəmbərlər Allahın icazəsi olmadan yaşayış yerlərini, həyat tərzini dəyişə bilməz, əks təqdirdə Allah tərəfindən cəzalanarlar. (Yunus Peyğəmbərin timsalında bunu görmək olar).

8. Peyğəmbərlər insanlar arasında yalnız ədalətlə hökm etməlidir.

Allahtəala Qurani Kərimdə Məhəmməd Peyğəmbərin əxlaqı barədə belə buyurur:-Doğurdan da, sən böyük bir əxlaq sahibisən. (68/4) Allahın mərhəmətindəndir ki, sən onlara qarşı bu qədər həlimsən. Əgər sərt və daşürəkli olsaydın, sənin ətrafından dağılıb gedərdilər. (3/159)

Peyğəmbərlərin biri digərindən Allahın verdiyi nemətləri ilə fərqlənirlər. Onların yaşadıqları dövrlər müxtəlif olduqları kimi həyat tərzləri, davranışları, elmləri, bacarıqları və s. də müxtəlifdir. Quranda bu barədə yazılmışdır:-...Yusifi Misir torpağında yerləşdirdik, həm də ona yuxu yozmaq öyrətdik...(12/21) Biz Musaya 9 aşkar möcüzə (əsa, günəş kimi parıldayan yədu-beyza, çəyirtkə və digər həşəratlar, qurbağa, qan, qıtlıq, daşların arasından fəvvarə verən su, dənizin yarılması və Tur dağının qaldırılıb İsrail oğullarının başları üzərində saxlanılması) verdik. (17/101) Biz Luta da bir hökm və elm verdik...(21/74) Biz.. Süleymana...hökm və

elm verdik. Biz dağları və quşları Davudla birlikdə...ona ram etdik.(21/79) Əmri ilə bərəkət verdiyimiz yerə (Şama) doğru şiddətlə əsən küləyi də Süleymana Biz ram etdik.(21/81) Biz şeytanlardan qəvvaslıq edənləri və başqa işləri görənləri də Süleymanın ixtiyarına verdik.(21/82)...Biz Davuda Öz dərgahımızdan bir lütf bəxş edib:-Siz ey dağlar, siz ey quşlar! Davudla birlikdə Allahı təqdis edib şəninə təriflər deyin!–deyə, buyurduq və dəmiri onun üçün yum-şaltdıq...(34/10)...Sizi (düşmənlə) vuruşdan qorumaq üçün (Davuda) zireh (toxumaq) sənətini öyrətdik.(21/80) Biz dağları ona ram etmişdik. Onlar axşam-səhər onunla birlikdə Allahı təqdis edib şəninə təriflər deyirdilər.(38/18) Biz quşları da toplu halında onun ixtiyarına vermişdik, hamı ona tabe idi. (38/19) Biz onun mülkünü möhkəmləndirmiş, ona hikmət, düzgün hökm vermək qabiliyyətini bəxş etmişdik.(38/20) Həqiqətən, Loğmana:-Allaha şükr et!–deyə, hikmət verdik. (31/12) Bəsirət və qüvvət sahibi olan bəndələrimiz İbrahimi, İshaqı, Yəqubu yad et!...Biz axirət yurdunu anmaq xislətini onlara məxsus etdik. (37/45,46)

Dövr dəyişdikcə Allahın peyğəmbərlərinə öyrətdiyi elmlərin də məzmunu dəyişmişdir. Məsələn:-Süleyman Peyğəmbər uzaq diyara özünün **uçan xalçasında** gedirdi (sonradan təyyarələr yarandı). Nuh Peyğəmbər ilk dəfə olaraq **gəmi** düzəltdi. Zindanda 20 il qalan Yusif Peyğəmbər vaxtı bilmək üçün **saat** düzəltmişdi. İdris Peyğəmbər ilk dəfə **iynə ilə paltar tikməyi** insanlara öyrətdi. Yer üzündə ilk dəfə olaraq İbrahim peyğəmbər özünü **sünnət** etdi (100 yaşında). İbrahim Peyğəmbər Allahın əmri ilə oğlu İsmaili qurban

kəsməyə aparandan sonra Allah ona qurbanlıq qoç göndərdi və ilk **İsmail qurbanını** İbrahim Peyğəmbər kəsdi. Davud Peyğəmbər dəmiri əli ilə yumşaldıb **dəmir zireh toxumağı və qılınc qayırmağı** insanlara öyrətdi. Allahın kəlamlarını-"Zəburu" ilk dəfə Davud Peyğəmbər gözəl **avazla** oxudu. İsa Peyğəmbərin insanları **xəstəlikdən sağaltmaq və ölünü diriltmək** qabiliyyəti var idi. Süleyman Peyğəmbər ilk **ordu** yaratdı, quşlarla, heyvanlarla danışmağı bilirdi və dünyada **ən varlı hökmdar** idi. Məhəmməd Peyğəmbər ən gözəl **tacir** olmuşdur. Dünyada ilk dəfə olaraq ilin sonunda ambarda qalan mallarını camaata **pulsuz paylamaq** adətini qoymuşdu və ən dürüst, ən etibarlı və ən bacarıqlı tacir sayılırdı. Müasir dövrdə mövcud olan iqtisadi qanunların əsasını qoymuşdur.

**Peyğəmbərliyin 3 əsas şərti var:**

1. **Allahın izni ilə möcüzə göstərmək bacarığının olması** (...İsa onlara aşkar möcüzələrlə gəldikdə onlar:-Bu açıq-aydın sehrdir!- dedilər. (61/6)

2. **Özündən əvvəlki peyğəmbərlər tərəfindən onun gəlişi və nişanələri barədə məlumatın verilməsi.** Məsələn:-Məhəmməd ə/s peyğəmbərin gəlişini İsa ə/s peyğəmbər xəbər vermişdir. Əhməd adlı peyğəmbərin gələcəyini və kürəyində-çiyinlərinin arasında "nübuvvət möhürü"–kül rəngində xal olacağını göstərmişdir. (Xalqımız arasında belə bir deyim indi də yaşamaqdadır:-Oğlanların çiynində və ya kürəyində noxud boyda xalı olarsa:-Peyğəmbər nişanəsidir-deyirlər.) -Onu da xatırla ki, bir vaxt Məryəm oğlu İsa belə demişdi:-Ey İsrail oğulları! Həqiqətən, mən özümdən əvvəl

nazil olmuş Tövratı təsdiq edən və məndən sonra gələcək Əhməd adlı bir peyğəmbərlə (sizə) müjdə verən Allahın elçisiyəm!... (61/6)

**3. Peyğəmbərliyə dəlalət edən əlamətləri özündə cəmləşdirmək:**-ədalətli hökm etmək, ən müşkül məsələləri açmaq, kamil elm sahibi olmaq, gələcək barədə məlumat verə bilmək. Yusif ən yetgin dövrünə çatanda ona hikmət və elm verdik. (12/21)

Peyğəmbərlərdən 5-i:- "Ülul-əzm"-yəni "şəriət kitabı" və risalət sahibi adlanırlar:-Nuh, İbrahım, Musa, İsa və Məhəmməd Peyğəmbərlər.

Xüsusi ibadətgahlarda Allaha ibadət edib, namaz qılıb, dua edən peyğəmbərlər:-Musa –Tur dağında, Yunis dəryada-balığın qarnında və Məhəmməd ə/s peyğəmbər isə Beytul-məmurda ibadət etmişlər.

Peyğəmbərlərin bəziləri meraca ("yüksəlmək") qalxmışdılar. Bu hadisə barədə irəlidə ətraflı məlumat alacaqsınız. Merac hadisəsinə "isra" (gecə vaxtı yerimə) deyilir. İbrahim, Yəqub, Musa, İsa və Məhəmməd ə/s peyğəmbərlər meracda-**"İlahi seyrangahda"** olmuşdular.

Peyğəmbərlərdən 4-nü onlara iman gətirməyən insanlar öldürmüşdülər. Yəhya, Şueyb, İdris, İsa və Zəkəriy-yə Peyğəmbər dinsiz kafirlər tərəfindən qətlə yetirilmişdilər. İsa Peyğəmbər çarmıxa (çahar-4 deməkdir) çəkilmişdir. Yəni əllərindən və ayaqlarından ağaca mıxlayaraq edam etmişdilər.

Xızır Peyğəmbər "abi-həyat" (əbədi həyat) suyundan içmişdir və deyilənə görə Qiyamətə qədər ölməz bir həyata qovuşmuşdur. Ona batini elm verilmişdir. Yəni insanlara

baxmaqla gələcəyi barədə məlumat verməyi bilirdi. Gözəgörünməzdir. Dara düşən insanların yardımına tələsər və onların gözünə görünərək xilas edər:-Onlar öz dərgahımızdan mərhəmət peyğəmbərlik və vəhy əta etdiyimiz və Öz tərəfimizdən elm, qeybə dair bəzi bilikləri öyrətdiyimiz bəndələrimizdən birini–Xızırı tapdılar. (18/65) Quranın bu ayəsindən aydın olur ki, Xızır Peyğəmbər qeyb aləminə aid biliklərə malik olmuşdur. Buna görə də gələcəyi xəbər verməyə qadir idi. (Mart ayının əvvəlində Azərbaycanın rayonlarında:-Xızır, Xızır, Xızır İlyas...-deyərək, uşaqlar dəstə-dəstə küçələrə çıxaraq nəğmə oxuyarlar və Xızır Peyğəmbəri ruzisi tükənmiş, heyvanının otu qurtarmış adamlar və soyuq havadan qurtarmaq istəyən insanlar onu kömək etməyə çağırarlar.)

Bütün Peyğəmbərləri Allahtəala möcüzələr göstərməklə hər şeyə qadir olduğuna inandırmışdır. Sonra Allahın qoyduğu qanunları təbliğ etməyi tapşırmışdır. Məsələn:-İbrahim Peyğəmbər buyurdu:

-Ey Allahım, insanları öləndən sonra necə dirildəcəyini mənə göstər!-demişdir. Allah buyurdu:-Ən yaxşı tanıdığın 4 quş götür və onları tikə-tikə doğra və ətləri yaxşı-yaxşı qarışdır. Qarışdırdığın əti yenidən 4 hissəyə böl və hər hissəni bir dağın başına at. Sonra quşları çağır!

İbrahi Peyğəmbər Allahın dediyi kimi etdi. Ət parçalarının hərəsini bir dağa atdıqdan sonra quşları çağırdı və quşlar dirilərək onun hüzuruna qaçdılar. Bundan sonra İbrahim Peyğəmbər Allahın hüzurunda səcdəyə qapanaraq dedi:-Ey aləmlərin Rəbbi! Sənə inandım və itaət edirəm.

Bütün Peyğəmbərləri Allahtəala sınaqdan keçirmişdir və onların nə dərəcədə səbir və itaət göstərə biləcəklərinə nəzarət etmişdir. Bu barədə Quranda belə buyurulur:-Biz hər bir Peyğəmbər üçün insan və cin şeytanlardan düşmənlər yaratdıq. Hər bir Peyğəmbər Allahı sevdiyindən, daima müşkül işdə onlara yardımçı olacağından, onu qoruyacağından və yaxşı əməllərinin mükafatını mütləq verəcəyindən və öz dinini hifz edəcəyindən, ən əsası isə Qiyamət gününün olacağına inandığından kafirlərin təzyiq və işgəncələrinə səbr edir, din yolunda hər cürə məhrumiyyətlərə dözür, Allahın icazəsi olmadan işgəncələrdən bezib öz yurdunu və öz xalqını tərk etmirdi. Lakin Peyğəmbərlərin də səbrləri və itaətləri özünə görə idi. Məsələn:-Məhəmməd Peyğəmbəri küçədə daş-qalaq edirdilər, təhqirlərə məruz qalırdı, üz-gözü qan içində evə dönürdü, yenə də səbr və təmkin göstərirdi. Qızı Fatimənin:-Sən bunlara necə dözürsən?–sualına belə cavab vermişdi:-Kaş nəyin xatirinə səbr etdiyimi biləydin!

Yunus Peyğəmbər isə xalqı tərəfindən o qədər işgəncələrə məruz qalmışdı ki, axırda dözməyib öz xalqını tərk etmək fikrinə düşdü. Allahdan icazə almadan bir gəmiyə minib uzaqlara getmək istədi. Gəmi yerindən tərpənmədi. Bu zaman gəmidə olan bir rahib dedi:

-Aranızda bir günahkar var. Onu tapıb yerə düşürsəniz gəmi gedəcəkdir.

Düz 3 dəfə püşk atdılar. Hər dəfə püşk Yunus Peyğəmbərə düşdü. Onu götürüb gəmidən dənizə atdılar. Allah dənizdəki bir balığa əmr etdi və balıq Yunus Peyğəmbəri uddu. 21 il balığın qarnında yaşayaraq Allah dua edib onu bağış-

laması üçün yalvardı. Axırda Allah onu bağışladı və balığa əmr etdi ki, onu sahilə atsın. Balıq Yunus Peyğəmbəri sahilə atdı. (Bu balığa müasir dövrdə də Yunus balığı deyir-lər.) Yunus Allahın izni olmadan qövmünü (xalqını) tərk edib getdiyinə görə özünü qınadığı halda dənizə atılarkən balıq onu uddu. (37/142) Nəhayət, o xəstə olduğu halda onu boş bir yerə sahilə atdıq. (37/145) Əgər o, (Allahı) çox təq-dis edənlərdən (namaz qılanlardan) olmasaydı. Yəqin ki, balığın qarnında qiyamət gününə qədər qalardı. (37/142, 143) Biz onun-Yunusun duasını qəbul buyurduq və balığın qarnından çıxartmaqla onu qəmdən qurtardıq. Biz möminlə-rə belə nicat veririk. (21/88) Bəndəmiz Əyyubu yad et!... Biz onu (müsibətlərə) səbr edən gördük. Nə gözəl bəndə! (38/41,44)

### 2.5. İmam. İmamın missiyası

**“İmam”** sözü ərəb dilində “**rəhbər”, “başçı”** deməkdir. İmam islami mədəniyyətə malik olması xalq tərəfindən bəyənilən, Quranı gözəl bilən və dini işlərdə möminləri ardınca aparmağı bacaran şəxsdir. İmam bu üç əsas keyfiyyətlərə malik olmalıdır və adamlar arasında hökm edərkən yalnız Allahın kitabına əsasən hökm etməlidir.

Həzrəti Məhəmməd Peyğəmbərin dövründə Peyğəmbər özü imam vəzifəsini icra edərək islam dininin ilk imamı olmuşdur. Namaza rəhbərlik edirdi və Quranın ayələrini insanlar arasında təbliğ edərək, Allahın hökmlərini onlara çatdırırdı. Adamlar arasında olan mübahisə və münaqişələri həll edərkən Allahın kitabını rəhbər tutaraq hökm edirdi.

Həzrəti Peyğəmbər olmadıqda Əbu Bəkir imamlıq edirdi. Həzrəti Məhəmməd Peyğəmbər öz sağlığında Həzrət Əlini Məkkənin canişini təyin etmişdir. Həzrət Əli eyni zamanda Məkkədə imamlıq etmişdir.

Hal-hazırda günümüzə qədər gəlib çatan tarixi məlumatlardan aydın olur ki, 12 imam görkəmli şəxsiyyətlər kimi islam tarixində bu gün də hörmət və izzətlə anılır. Bu imamların əsas məziyyətlərindən biri onların Məhəmməd Peyğəmbərin nəslinin nümayəndələri olmasıdır.

**Həzrət Əli.** Həzrət Əli Məhəmməd Peyğəmbərin əmisi Əbu Talibin oğludur. Anası Fatimə binti Əsəddir. Yeganə insandır ki, Kəbənin içərisində anadan olub. 8 yaşından Məhəmməd Peyğəmbər tərəfindən tərbiyə olunub. 10 yaşında olarkən Həzrəti Məhəmməd Peyğəmbərə iman gətirib. Quranı və Allahın tək Tanrı olmasını qəbul edən ilk gəncdir. 13 yaşında düşmənləri aldatmaq üçün Məhəmməd Peyğəmbərin yatağında yataraq onun həyatını xilas etdi. Bu barədə belə bir ayə nazil olmuşdur:

-İnsanların eləsi də vardır ki, Allahın razılığını qazanmaq yolunda öz canını fəda edər. Allah öz bəndələrinə qarşı çox mehribandır! (2/207)

Həzrət Əli hicrətin 2-ci ili zilhiccə (dekabr) ayının əvvəlində Məhəmməd Peyğəmbərin qızı Fatimə ilə ailə qurdu. O zaman Fatimənin 18, Əlinin isə 21 yaşı var idi. Onların 5 övladı oldu:-Həsən, Hüseyn, Zeynəb, Ümmul-Gülsüm və Möhsün.

Həzrət Əli islam dini uğrunda gedən döyüşlərdə Məhəmməd Peyğəmbərin bayraqdarı olmuşdur. Məhəmməd

Peyğəmbərin qılıncı Cəbrayılın Cənnətdən gətirdiyi metaldan qayrılmışdı və Zülfüqar qılıncı (**Zülfüqar-fəqərələrə sahib olan**-deməkdir. Qılıncın orta hissəsində insanın onurğa sütununa oxşayan bir xətt vardı) adlanırdı. Məhəmməd Peyğəmbər "Ühüd" döyüşündə zülfüqar qılıncını Həzrət Əliyə vermişdi. O da qılıncı alıb düşməni məğlub etmişdi.

Həzrət Əli islamı qəbul edən ilk gənc olduğuna görə Tanrı ona hikmət, güc  və elm əta etmişdir. O həyatının 25 ilini Peyğəmbərin yanında keçirmişdi. Eyni zamanda o, islam ordusunun sərkərdəsi idi:-Müaviyəni ordu qoruyur, mən isə ordunu qoruyuram!–deyirdi. O döyüşə gedərkən zirehinin arxa hissəsini geyinməzdi. Ondan bu barədə soruşanlara isə belə cavab verirdi:-Mən heç vaxt düşmənə arxa çevirməyəcəyəm. Elə buna görə də mənim arxadan zireh bağlamağa eytiyacım yoxdur!

Məhəmməd Peyğəmbər Həzrət Əlini çox sevirdi və onun döyüş məharətini, elmini yüksək qiymətləndirirdi:-Mən elmin şəhəriyəm, Həzrət Əli isə bu şəhərin qapısıdır. Sizin aranızda ən yaxşı qazi Əlidir–deyirdi.

Məhəmməd Peyğəmbər Həzrət Əlini öz sağlığında Məkkə şəhərinə canişin təyin etdi. Məhəmməd Peyğəmbərin vəfatından sonra Həzrət Əlinin ilk görəcəyi iş Quranın ayələrini toplayıb nizamlayaraq yaz-dırmaq oldu. Həzrət Əli Cəmi 4 il 4ay xilafət dövrü (hicri 36-40-cı illər arası) yaşamışdı.  İmamət müddəti isə 30 il olmuşdur.

Çox təəssüf ki, digər dinlərdə olduğu kimi islam dinində də təriqətlərə bölünmə müşahidə olunur. Həzrət Əli Allahın rəhmətinə qovuşduqdan sonra islam dinində

**sünnü**lük (sünnə-davranış-yəni Peyğəmbərin davranışları) və **şiə** (şiə-arxasınca gedən, yolunu davam etdirən deməkdir) təriqətləri yarandı. Müqəddəs Qurani Kərimdə deyilir:-...Hər dövrün bir kitabı var. (13/38) Amma insanlar din barəsində öz aralarında firqələrə bölünüb parçalandılar...(21/93) Göründüyü kimi Qurani Kərimə görə firqələrə bölünmək qəbulolunmazdır.

Hicrətin 40-cı ilində, ramazan ayının 19-da Əburrəhman ibn Mülsəm Muradi Küfə məscidində sübh namazı qılarkən Həzrət Əlinin başına zəhərli qılıncla vurdu. İki gün ağır yaralı yatdı. Yaralı yatarkən görüşünə gələnlərə deyirdi: -Məni əldən vermədən öncə, məndən soruşun, mənim sinəmdə çoxlu elmlər var. Əfsuslar olsun ki, mən bu elmi daşıyan bir adam tapa bilmədim. Məndə elə bir elm və elə bir bilik var ki, əgər sizlərə desəm, dərin quyudan su çıxarda bilən bir uzun ip kimi yerinizdə titrəyərsiniz. Məni əldən vermədən öncə soruşun cavab verim. Allaha and olsun ki, keçmişləri və ya gələcəkdə baş verənləri məndən soruşsanız, mən onların hamısını sizə deyərəm. Soruşun cavab verim!

Həzrət Əli elmli, bilikli olduğundan elmə aid qiymətli kəlamları bu gün də öz əhəmiyyətini qoruyub saxlayır:

-Alimlərin düz sözü dərmandır, səhv sözü dərd.

-Hər kəs alimlərlə oturub-dursa, ehtiram tapar.

-Hər bir qabı doldurmaq olar, elm qabından başqa.

-Elm, ədəb üçün sərf etdiyin mal xərclənməyib.

-Alimlərin elmi və biliyi bəhanə axtaranların yolunu kəsər.

-Elminizi nadanlığa sərf etməyin, yəqinliyi şəkk ilə

sındırmayın, bilib və yəqin eşidib işə başlayın!

| № | İmamların adları | İmamlıq dövrü | Ölüm səbəbi |
|---|---|---|---|
| 1. | Həzrət Əli (Məhəmməd Peyğəmbərin əmisi Əbu Talibin oğludur) | 30 il | 63 yaşında namaz vaxtı qılıncla başından aldığı zərbədən ölüb |
| 2. | İmam Həsən (Həzrət Əlinin və Peyğəm-bərin qızı Fatimənin oğludur) | 10 il | 47 yaşında arvadı zəhərləyib |
| 3. | İmam Hüseyn (İmam Əlinin oğlu) | 10 il | 67 yaşında başını kəsdilər (aşura günü) |
| 4. | İmam Zeynəlabdin | 35 il | 56 yaşında şəhid olub |
| 5. | İmam Məhəmməd Bağır | 19 il | 57 yaşında zəhərlənib |
| 6. | İmam Cəfəri Sadiq | 34 il | 65 yaşında zəhərlənib |
| 7. | İmam Museyi Kazım | 35 il | 55 yaşında zindanda zəhərlənib |
| 8. | İmam Rza | 20 il | 55 yaşında zəhərlənib |
| 9. | İmam Məhəmməd Taqi | 17 il | 25 yaşında arvadı zəhərləyib |
| 10. | İmam Əliyyən Naqi | 33 il | 41 yaşında zəhələnib |
| 11. | İmam Həsən Əsgəri | 6 il | 28 yaşında şəhid olub |
| 12. | İmam Mehdi (Sahibbəzzəman) | | 5 yaşında itib (qeyb olub) |

**İmamların şəcərəsi.**

Həzrət Əli ramazan ayının 21-i gecəsi 63 yaşında başından aldığı qılınc yarasından vəfat etdi. Qəbri İraqın Nəcəf şəhərindədir. (Məzarının yeri 130 il gizli qaldı.)

Həzrət Əlinin oğlu imam Həsənin nəsli **"şərif"**, oğlu imam Hüseynin nəsli isə **"seyid"** adlanır.

"Şərif"–sözü ərəb dilində "şərafətli"- deməkdir.

"Seyid"– sözü isə ərəb dilində "ağa"–deməkdir.

Yuxarıdakı cədvəl 2-də 12 imam adı ilə tanıdığımız və daima hörmətlə yad etdiyimiz imamların nəsil ardıcıllığı verilmişdir. Bu şəxsiyyətləri yalnız məhərrəm ayında deyil, daima yad etmək lazımdır. Çünki onlar islam dininin yaşamasında, xalqa olduğu kimi çatdırılmasında, sidq ürəklə Allaha inamlarında və Həzrəti Məhəmməd Peyğəmbərin layiqli davamçıları olmalarında hər kəsə örnək olan izlər qoymuşlar. Onların hər biri Allahın haqq yolu uğrunda şəhid oldular, lakin bir olan Tanrıya inam və sevgilərinə xələl gətirəcək heç bir hərəkətə yol vermədilər.

Hər il məhərrəm ayında bəzi ölkələrdə-xüsusən, İranda və Azərbaycanda imamların yad edilməsi mərasimləri keçirilir. Bu adətin əsası İmam Hüseynin şəhid olmasından sonra qoyulmuşdur. İmam Hüseyn Həzrət Əlinin oğludur. Ömrünün 10 ilini imamlıq etmişdir. Hicrinin 60-cı ili şaban (avqust) ayının 3-də övladları və qohumları ilə Məkkəyə ziyarətə gəlmişdilər. 95 gün Məkkədə qaldılar. Kufə camaatı zalım hökumətə qarşı üsyana hazır idilər və rəhbərlik etmək üçün İmam Hüseyni dəvət edirdilər. İmam Hüseyin bu səfərin təhlükəli olduğunu bəyan edib:-Kim istəmirsə get-məsin–dedi. Məkkəyə gələnlərdən bir qismi qalmağı üstün

tutdu, qalanları İmam Hüseyinlə getməyi qərara aldı. Yezidin adamları onları qətlə yetirəcəkləri barədə məlumat almışdılar, lakin buna baxmayaraq İmam Hüseyin getməyi məsləhət bilmişdi. 300 nəfər mömin İmam Hüseynin başçılığı ilə Məkkədən Kufəyə yola düşdülər.

Kərbəlada Yezidin qoşunu ilə qeyri-bərabər döyüşdə 72 nəfər mömin şəhid oldu. İmam Hüseyni və qalan möminləri əsir götürüb məhərrəm ayının 10-da Ömər Səidin başçılığı ilə Kərbəladan Kufəyə gətirdilər. Ömər Səidin əmri ilə Şimr İmam Hüseynin başını kəsdi. Deyilənə görə bu zaman Allah möcüzə göstərdi və kəsilmiş baş danışmağa başladı. Bunu görən kafirlər çox qorxdular. Yezidin əmri ilə əsir möminləri hörmətlə Mədinəyə yola saldılar. Beləliklə, İmam Hüseyn hicrətin 61-ci ili məhərrəm (yanvar) ayının 10-da, 57 yaşında şəhid oldu. Qəbri Kufədədir. Bu hadisə möminlər tərəfindən unudulmasın deyə, özlərini "şiə"lər adlandıran möminlər tərəfindən hər ilin məhərrəm ayında "məhərrəmlik" ayini icra edilməyə başlandı. Bu günə qədər gəlib çatan ayin bəzi təhriflərə məruz qalmışdır. Qılıncla baş yarmaq, zəncirlə özünü döymək, kütləvi şəkildə mərsiyyə deyib ağlamaq kimi mənfi adətlər yaranmışdır. Halbuki, bizi yaradan Tanrı buyurmuşdur:-Allah yolunda öldürülənlərə "ölü" deməyin! Əksinə, onlar Allah dərgahında diridirlər. Siz bunu dərk etmirsiniz! (2/154)

Bütün imamlar öz Allahı yolunda şəhid olublar və ayədən göründüyü kimi hər zaman diridirlər, onda diri insanı ağlamaq nə dərəcədə doğrudur? Əgər Quranı Kərimdə:- ...Allah onlar üçün bir əcəl (vaxtı) müəyyən etdi ki, ona heç

bir şək-şübhə yoxdur!(17/99) Hər bir ümmətin (əzəldən müəyyən edilmiş) əcəl vaxtı vardır. Onların əcəli gəlib çatdıqda bircə saat belə nə yubanar, nə də tələsərlər!(7/34) deyə, buyurulursa, insanların, o cümlədən, imamların ölümünə özünü döyərək ağlamaqla Allahın qoyduğu qanuna qarşı gəlmək doğru olarmı? Allah istəsəydi imamları və bütün möminləri heç kəs öldürə bilməzdi. Onların ölümü Tanrımızın istəyi ilədir:-Heç bir ümmət əcəlini nə qabağa çəkə bilər, nə də yubada bilər. (15/5)

Deməli, Kərbəla şəhidlərinin və bütün imamların şəhid olaraq ən yüksək məqama yüksəlməsini Allahımız öz əzəli hökmü ilə müəyyənləşdirmişdir. Məhərrəmlikdə özünü döymək, ağlamaq olmaz. Çünki, özünə qəsd edən insanları Allah sevmir. Siz də özünüzə qəsd etməyin! Zəncirlə başını yarıb qan tökmək isə daha böyük günahdır. Çalışın günaha batmayın! -Həqiqətən Allah yanında ayların sayı...12-dir. Onlardan **dörd**ü haram aylardır (rəcəb, zülqədə, zülhiccə və məhərrəmlik ayları haram aylardır. Bu aylarda qanın tökülməyi haram edilmişdir)...(9/36)

# III FƏSİL. DİN VƏ ONUN MAHİYYƏTİ

“**Din”** ərəb sözü olub “əvəz”, “cəza”, “hesabat”, “şəriət-qanun” mənalarını ifadə edir. Din bəşəriyyəti düzgün yola-onu yaradan Allahın doğru yoluna yönəltmək üçün peyğəmbərlər vasitəsi ilə insanlara təqdim olunan əxlaq kodeksidir. Etiqadi prinsiplər, əxlaqi normalar, əməli qanunlar və elmdir. Din insanın mənəvi dünyasını zənginləşdirən, yaşamaq stimulu verən, gələcəyə inam aşılayan, öz bacarıqlarına güvənməyə əsas verən, inancın və əməlin vəhdətidir. İnsanı mətinləşdirən, kamilləşdirən, yaşamaq və yaratmaq eşqi verən, gələcəkdə gördüyü yaxşı əməllərinə görə mükafatlandırılacağı, pis əməllərinə görə isə cəzalandırılacağı ilə xəbərdar edən vasitədir. Din insanı həyatı anlamağa, təbiətin maddi sərvətlərindən səmərəli istifadə etməyə, yaranmış problemləri həll etmək üçün ağıllı qərar verməyə, çətinliklərə mətinliklə sinə gərməyə yardım edən üsuldur.

Bizim dinimiz **İslam** dinidir. “İslam” ərəbcə “təslim ol!” deməkdir. İslamı qəbul edənlərə “müsəlman” deyilir. “Müsəlman”–“təslim olmaq” deməkdir. “Müsəlman oldum!”–yəni “Allaha təslim oldum” mənasını verir. İslamı qəbul edən sidq ürəklə özünü-qəlbini Allaha təslim edir. Müsəlman ailəsində doğulmaq böyük xoşbəxtlikdir. Lakin bu hələ müsəlman olmaq demək deyildir. Müsəlman olmaq üçün Allahın tək Tanrı olduğunu dərk etmək və Onun seçdiyi Peyğəmbəri qəbul edərək öyüd-nəsihətlərinə əməl etmək lazımdır. “O sizi seçdi və dində sizin üçün heç bir

çətinlik yeri qoymadı...sizə **müsəlman** adını verdik ki, Peyğəmbər sizə, siz də insanlara şahid olasınız...” (22/78).

Din insanın hisslərinə və davranışlarına nəzarəti Allahın ona bəxş etdiyi **ağlının** nəzarətinə verir. Allah yaratdığı bütün məxluqatlardan fərqli olaraq insana **ağıl** bəxş etmişdir və daima ağılla davranmağı tövsiyə etmişdir. Din insanın onu yaradan Tanrı qarşısındakı məsuliyyətini dərk etməyə kömək edən vasitədir. İnsanlar dinin sayəsində öz hiss və davranışlarına ağlının gücü ilə hakim olmağı, Tanrısının insanlar üçün müəyyənləşdirdiyi qanun çərçivəsində qiymətləndirməyi bacarırlar. Dinin köməyi ilə insanlar duyğularını və hərəkətlərini tənzimləyir, həyatının yaşamını anlayır, ətrafında baş verən təbiət hadisələrinin səbəblərini dərk edir və öz ömür yolunu müəyyənləşdirir, nəfsinə qalib gəlir. Din insana Tanrının qoyduğu iki yolu göstərir:

**1. Yaxşı işlər** görüb Tanrısının müəyyən etdiyi qanunlara itaət edən, daima Yaradanını anıb şükr edən insanlara mükafat olaraq **Cənnətə gedən yolu** göstərir. ...Yaxşı işlər görənlərin mükafatı nə gözəldir!(3/136) ...Allah yaxşı iş görənləri sevər.(3/148) Allah iman gətirib yaxşı işlər görənlərə vəd etmişdir ki, onları bağışlanma və böyük mükafat gözləyir!(5/9) ...Yaxşı işlər görməkdə bir-birinizi ötməyə çalışın!(5/48) Allah ...onlara (ağacları) altından çaylar axan Cənnətlər əta etdi. Onlar orada əbədi qalacaqlar. Yaxşı işlər görənlərin mükafatı budur!(5/85) İman gətirib yaxşı işlər görənlərin heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər...(6/48) ...Kim yaxşı bir iş görərsə, ona həmin işin on qat əvəzi (savabı) verilər. Kim pis bir iş görərsə ona

həmin işin misli qədər cəza verilər. Onlara haqsızlıq edilməz.(6/160) ...Allahın mərhəməti yaxşılıq edənlərə çox yaxındır.(7/56) Yaxşı işlər görənləri Cənnət və daha artıq mükafatlar (Allahın camalına tamaşa etmək) gözləyir. Onların üzünə nə bir toz (ləkə), nə də bir zillət qonar.(10/26) ...Bu dünyada yaxşılıq edənləri yaxşılıq (gözəl həyat) gözləyir.(16/30) ...Quran (bütün bəşəriyyəti) ən doğru yola (islama) yönəldir, yaxşı işlər görən möminlərə böyük bir mükafata nail olacaqları ilə müjdə verir.(17/9) İman gətirib yaxşı işlər görənlərin mənzili isə Firdovs cənnətləri olacaqdır.(18/107) Kim Rəbbinin hüzuruna iman gətirib yaxşı əməllər etdiyi halda gələrsə, belələrini ən yaxşı dərəcələr gözləyir.(20/75) ...İman gətirib yaxşı işlər görənlər Nəim cənnətlərində olacaqlar!(22/56). Tövbə edib yaxşı işlər görənlərə gəldikdə isə, onların nicat tapmaları mümkündür. (28/67).

**2. Pis əməllərdən** çəkinməyən, Tanrısının qanunlarını pozan, zalimlik edərək kafir olan, naşükür insanlara isə **Cəhənnəmin yolunu** göstərir:-...kafir olanları şiddətli bir əzab gözləyir...(35/7). ...Hələ ki, əylənib kef çəkin. Axırda məskəniniz atəş olacaqdır!(14/30). ...Allah tezliklə haqq-hesab çəkəndir!(14/51). O gün (Qiyamət günü) hər kəs öz canının hayında olar. Hər kəsə əməlinin əvəzi (cəzası) verilər və onlara heç bir haqsızlıq edilməz!(16/111). Yoxsa sizi əbəs yerə yaratdığımızı və (qiyamət günü dirildib haqq-hesab üçün) hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz(23/115). Ey insanlar!...Allahın vədi şübhəsiz ki, haqdır! (Qiyamət günü mütləq gələcəkdir!) (31/33). Siz

mütləq biləcəksiniz ki, rüsvayçı əzab kimə gələcək, kim həmişəlik əzaba düçar olacaqdır! (39/39,40).

Din insanları daima elmli olmağa dəvət edir. Çünki, elmsiz insan cahil olur və cahilliyi ucbatından özünə və ətrafındakı insanlara daima pislik edir. Tanrı pislik edən insanları sevməz. ...Allahdan öz bəndələri içərisində ancaq alimlər qorxar...(35/28). Allah istədiyi şəxsə hikmət (elm, mərifət, müdriklik) bəxş edər. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir (əbədi səadət) verilmişdir. Bunu ancaq ağıllı adamlar dərk edərlər! (2/269).

Həzrəti Peyğəmbər elmli olmağı müntəzəm olaraq təbliğ etmişdir. Onun bu günümüzə qədər gəlib çıxan gözəl kəlamları elmi yüksək qiymətləndirdiyini göstərir:-Hər kim mənə bir hərf öyrətsə, mən ona qul olaram. Uşaqlıqda qazanılan bilik, daşa həkk olunmuş yazıdır. Elm dünyanın uzaq ölkəsində olsa da, ona yiyələnmək üçün yola çıxmaq-dan çəkinməyin! Elmindən fayda gələn alim min abiddən üstündür! Elmə sərf olunan vaxt namaza sərf olunan vaxtdan üstündür. Ömrünü elmə sərf edən adam heç vaxt ölmür! Alimin qələminin mürəkkəbi bir şəhidin qanından daha müqəddəsdir! Bir ölkədə zəlzələ olsa, ölkənin bir küçəsi xaraba qalar, elmsiz isə bütün ölkə xaraba olar!

İnsanlar daima təhsil aldığı, elmi bilikləri öyrədən müəllimlərinə hörmətlə yanaşmışdır. Müəllimlərin öyrətdikləri bilikləri həyatları üçün lazım olan hava və su kimi qiymətləndirib öyrənməyə çalışdılar. Hər kəs öyrəndiyi bilikləri özlərindən sonra gələnlərə estafet kimi ötürməyi özlərinin mənəvi borcu kimi qəbul edirlər. Əgər kimsə

vaxtında bu bilikləri öyrənməsə, gələcək nəsilləri necə öyrədə bilər? Bu xalqın gəncliyini savadsızlaığa gətirib çıxardar və xalqın gələcəyi savadsız bir kütləyə çevrilər və mənən məhv olar. Həzrəti Peyğəmbər demişkən:-...Elmsiz bütün ölkə xaraba qalar! Hər bir xalq çalışmalıdır ki, ölkəsini xarabazara çevirməsin! Elm öyrənməyi, ölkəni Cənnətə çevirməyi həyata keçirməklə xoşbəxt gələcəyi təmin etsin!

Dini öyrənmək və onun qanunlarına əməl etmək, elmə yiyələnmək, həyatı olduğu kimi dərk etmək bəşəriyyət üçün böyük səadətdir. Dini bilmək insanı azadlığa, səadətə, xoşbəxtliyə və gözəl gələcəyə qovuşdurur. Allahın nazil etdiyi sonuncu dini-islamı qəbul edərək Haqqın yolu ilə gedənlər özünə xoşbəxt gələcəyi təmin etmiş olur. Çox təəssüf ki, aramızda dinindən dönən insanlara da rast gəlmək olur:-Necə ola bilər ki, Onlar Allahın dinindən başqa bir din axtarsınlar? Halbuki, göylərdə və yerdə onların hamısı istər-istəməz Ona (Allaha) təslim olmuşlar və Onun hüzuruna qayıdacaqlar.(3/83) Öz peyğəmbərlərini doğru yolu göstərən rəhbərlə (Quranla) və Haqq dinlə göndərən Odur! (61/9). Kim islamdan başqa bir din ardınca gedərsə (o din), heç vaxt ondan qəbul olunmaz və o şəxs axirətdə zərər çəkənlərdən olar. (3/85). Lakin dində həddi aşmaq olmaz! Ey kitab əhli! Öz dininizdə həddi aşmayın! Allah barəsində yalnız Haqqı deyin!...(4/171).

## 3.1. İnanc

**İnanc** insanların inandığı, istinad etdiyi vasitədir. Bu vasitə konkret və müəyyən bir obyektə yönəlmişdir. İnsan-

ların inandığı obyekt real və ya qeyri-real ola bilir. Buna görə də insanların inancı da real və qeyri-real obyektə inanmağa sövq edir. Məsələn:-hər bir uşaq inanır ki, onun atası hər kəsdən güclüdür. Uşağın bu inamı o vaxt real ola bilir ki, onun atası həqiqətən də bəzi atalardan güclüdür. Lakin o zaman bu inamı qeyri-real olur ki, Allah onun atasından da güclü atalar yaratmışdır. Amma uşaq yalnız öz atasının gücünə inanır. Bu misalda inanc konkret bir şəxsdir-yəni uşağın atasıdır.

Xəstə ana inanır ki, əgər uzaq diyarda olan oğlu geri dönsə, xəstəliyi sağalacaq və bütün iztirabları sona yetəcək. Ananın bu inamı yenə də yalnız onun özünə məxsusdur və konkret bir obyektə yönəlmişdir. Ola bilər ki, həqiqətən də oğlu geri dönsün, lakin Allah ananın sağalmağına yardım etməsin və ananın əcəli yetişsin. Bu zaman ananı əcəlin əlindən geri dönmüş oğlu xilas edə bilməz. Deməli, ananın bu inancı qeyri-realdır.

İnsanlar dağlara (Baba dağ), bitkilərə (üzərlik), heyvanlara (pişik), pirlərə, qayalara, rəhmətə qovuşan insanların qəbrinə, suya, küləyə və s. təbiət ünsürlərinə inanırlar. Onların bu inancları da real və qeyri-realdır. Yəni ola bilsin ki, kimsə Nardaran pirini ziyarət etsin və xəstəliyi sağalsın. Yəni həmin adam ziyarətə gedir və sağalır. Onun sağalmağı reallıqdır. Lakin sağalmağının səbəbi ziyarətə getdiyi Nardaran piri deyil, sağalmağını arzuladığına və zəhmət çəkib sağalmağı üçün inamla getdiyinə görə Tanrısı tərəfindən sağalmağına hökm verilmişdir. Bu isə əsl reallıqdır. Dinin mahiyyəti ondan ibarətdir ki,  insanı qeyri-reallıqdan xilas

edir, ona reallığı dərk etməkdə yardımçı olur. Reallığı dərk edən insan anlayır ki, onun sağalmasına səbəb qayalar, dağlar, qəbirlər və s. cansız ünsürlər deyil. Sağalmağı üçün cəhd etdiyini görən və zəhməti müqabilində ona sağlamlıq əta edən Tanrısıdır. Çünki, O, istədiyi insanları yaradır və ya öldürür, sağaldır və ya xəstə edir. Çünki:-Allah hər şeyə qadirdir! (Əl-Bəqərə surəsi, 20-ci ayə). (Sonrakı misallarda surələr və ayələr yalnız rəqəmlərlə göstərilmişdir. 1-ci rəqəm surələri, 2-ci rəqəm isə həmin surənin ayəsini ifadə edəcəkdir).

## 3.2. Səmavi dinlər

Adəm Peyğəmbər ilə Həvvanın dövründən bu günə qədər insanlar arasında yayılmış dinlər iki qrupa bölünür: səmavi dinlər və bəşəri dinlər. Müqəddəs Qurani Kərimdə deyilir:-...Hər dövrün bir kitabı var. (13/38) Amma insanlar din barəsində öz aralarında firqələrə bölünüb parçalandılar...(21/93). Sizi zülmətdən nura çıxartmaq üçün öz bəndəsinə açıq-aşkar ayələr nazil edən Odur!(57/9). Yer üzündə baş verən və sizin öz başınıza gələn elə bir müsübət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl, o bir **kitabda (lövhü-məhfuzda)** yazılmamış olsun...(57/22). Biz insanı... yaratdıq...(76/2). Biz ona haqq yolu göstərdik...(76/3). **Allah sizin üçün din seçdi..**.(2/138). Dini sizin üçün qanun etdik...(42/4). Allah (həmin kitabdan) istədiyi şeyi məhv edər, istədiyini sabit saxlayar. Kitabın əsli (lövhü-məhfuzda) Onun yanındadır (13/39). Bu Quran, insanlar üçün elə bir moizədir ki, onunla həm qorxsunlar, həm Allahın tək bir

Tanrı olduğunu bilsinlər, həm də, ağıl sahibləri düşünüb ibrət alsınlar! (13-52). **Həqiqətən Biz Quranı qədr gecəsi lövhü-məhfuzdan dünya səmasına nazil etdik** (97/1). Qədr-qiyməti yüksək, şanı uca, tərtəmiz səhifələrdədir. (80/14). Bu Quran Allah dərgahında çox möhtərəm, mötəbər səhifələrdədir (80/13). O Allahla peyğəmbərlər arasında olan elçi mələklərin əlləri ilə lövhü-məhfuzdan köçürülüb (80/15). Onu Məhəmməd əleyhissəlama çox qüvvətli olan Cəbrail öyrətdi (53/5). Əgər nəsihət etmək fayda versə, ümmətinə Quranla öyüd-nəsihət ver! (87/9). Bizim öhdəmizə düşən yalnız doğru yolu göstərməkdir. Mömin və ya kafir olmaq hər kəsin öz işidir. (92/12).

Yuxarıda göstərilən Quran ayələrindən aydın olur ki, Allah dərgahında **lövhü-məhfuz** adlı qanun kitabı vardır. Bu kitabda Allah yaratdıqları məxluqatlar üçün qanunlar yazıb müəyyənləşdirmişdir. Müəyyən dövrlərdə Allahın izni ilə mələklər həmin qanun kitabından bəzi qanunları köçürüb peyğəmbərlərə-Allahın Yer üzündəki elçilərinə çatırmışdılar. Bir olan Tanrımız Peyğəmbərlərin köməyi ilə insanlara haqq yolunu göstərmişdir. İnsanlara bu qanunlarla öyüd-nəsihət verilmişdir. Bu qanunları qəbul edib ona tapınan insanlar haqqın yolunu seçmişdilər.

Adəm Peyğəmbərdən  Məhəmməd Peyğəmbərə qədər yaşamış müxtəlif peyğəmbərlərə göndərilən dinlərin-qanunların məzmunu və həcmi müxtəlif olmuşdur. Bəzi peyğəmbərlərə Allahın qanunları və öyüd-nəsihətləri səhifələr (sühif) şəklində, bəzi peyğəmbərlərə isə kitab şəklində göndərilmişdir. Məsələn:-İlk peyğəmbər olmuş **Adəm** peyğəm-

bərə **10 səhifə**, onun oğlu **Şis** peyğəmbərə **50 səhifə, İdris** peyğəmbərə **50 səhifə, İbrahim** peyğəmbərə **20 səhifə** göndərilmişdir. Cəmi **110 səhifə** nazil edilmişdir.

**Musa** peyğəmbərə **"Tövrat"**, **Davud** peyğəmbərə **"Zəbur", İsa** peyğəmbərə **"İncil"** və sonuncu peyğəmbər olan **Məhəmməd** Peyğəmbərə isə "**Qurani Kərim"** endi-rilmişdir. Musa Peyğəmbər ilə Məhəmməd Peyğəmbərə ki-tablarla yanaşı **Allahın öz səsi ilə əmrlər verilmişdir.** Musa Peyğəmbərə **10 əmr** və Məhəmməd Peyğəmbərə isə **12 əmr** verilmişdir. Müqəddəs Qurani Kərimdə bunu təsdiq edən ayələr vardır:-Rəbbin göylərdə və yerdə olanları (özünün bütün yaratdıqlarını) çox gözəl tanıyır. Biz peyğəmbərlərin bəzisini digərlərindən üstün etdik və Davuda Zəbur verdik (17/55). Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy göndərdiyimiz kimi sənə də vəhy göndərdik. Biz İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun övladlarına, İsaya, Əyyuba, Yunusa, Haruna və Suleymana da vəhy göndərdik. Biz Davuda da Zəburu verdik.(4/163). Onların ardınca Məryəm oğlu İsanı özündən qabaqkı Tövratı təsdiq edən kimi göndərdik. Onun içində haqq yol və nur olan, özündən əvvəlki Tövratı təsdiq edən, müttəqilər üçün doğru yol və nəsihət olan İncili verdik.(5/46). İncil əhli Allahın onda nazil etdiyi (əhkam) ilə hökm etsin. Allahın nazil etdiyi ilə hökm etməyənlər, əlbəttə günahkardır.(5/47)... İnsanları doğru yo-la yönəltmək üçün Tövratı... O endirdi...(3/3,4). Tövratdan özlərinə bir hissə verilmiş şəxsləri görmürsənmi? Onlar öz aralarında hökm vermək üçün Allahın kitabına dəvət olunurlar...(3/23) ...Tövratı götürün və onu oxuyun!(3/93).

Sonra onların ardınca...Məryəm oğlu İsanı göndərib ona İncil verdik(57/27). Sənə özündən əvvəlki (müqəddəs kitabları) təsdiq edən Quranı haqq olaraq O (Allah) nazil etdi...(3/3). Sənə Quranı nazil edən Odur!(3/7). Cəbrailə düşmən olan şəxsə söylə ki, həqiqətən o, (Cəbrail) özündən əvvəlkiləri (Tövratı və İncili) təsdiq edən, möminləri doğru yola yönəldən, (onlara) müjdə verən Quranı Allahın izni ilə sənin qəlbinə çatdırmışdıq. (2/97).

Qurani Kərimdə yazılan bu ayələrdən aydın olur ki, Yer üzündə insanlar artıb çoxaldıqca Allahın qoyduğu qanunları pozaraq haqqın yolundan azmış, fitnə-fəsad törətmişdilər. Müxtəlif dövrlərdə Allah insanlar arasından peyğəmbərlər seçərək əvvəlki peyğəmbərləri və dini təsdiq etməyi, yeni nazil etdiyi dini insanlar arasında təbliğ etməyi tapşırmışdır. Bu səbəbdən də hər dövrün öz peyğəmbəri və öz dini-kitabı olmuşdur. Zaman-zaman Allah mövcud olan dini ləğv edərək yeni din nazil etmişdir. Əvvəlki dini kitablardan bəzi ayələri saxlamış, digərlərini ləğv etmişdir. Yeni din nazil olduqda insanların bir qrupu yeni seçilmiş peyğəmbəri qəbul etməyərək onun təbliğ etdiyi dinə etiqad göstərməmişdir. ...Məryəm oğlu İsa belə demişdir:-...mən özümdən əvvəl nazil olmuş Tövratı təsdiq edən və məndən sonra gələcək Əhməd adlı bir peyğəmbərlə müjdə verən Allahın elçisiyəm!(61/6)-deyə, öz ümmətinə-israil oğullarına haqq yolunu göstərsə də, Quran nazil olduqda bir qrup insanlar onu qəbul etməmişdi.-Onlar Allahın nurunu öz ağızları ilə söndürmək istəyirlər. Allah isə kafirlərin xoşuna gəlməsə də öz nurunu tamamlayacaqdır! (61/8). Müşriklərin

xoşuna gəlməsə də, **islamın** bütün dinlərdən üstün olduğunu göstərmək üçün öz peyğəmbərini doğru yolu göstərən xəbərlə (Quranla) və haqq dinlə göndərən Odur!(61/9). Allah (həmin kitabdan) istədiyi şeyi məhv edər, istədiyini də sabit saxlayar (bəndələrinə aid hər hansı bir hökmü ləğv edib başqası ilə dəyişər və ya olduğu kimi saxlayar). Kitabın əsli (lövhü-məhfuz) Onun yanındadır.(13/39)–deyə, Qurani Kərimdə buyrulmuşdur.

Müasir dövrümüzdə xristian dininin üstünlük təşkil etdiyi inkişaf etmiş ölkələrin məşhur elm xadimlərinin Qurani Kərimi oxuduqdan sonra islam dinini qəbul etməsi, bu dinin əvvəlki dinlərdən üstün olmasını, Quranın əvvəlki kitablardan daha mükəmməl olmasını sübut edir. Qeyd edildiyi kimi İtaliya dövlətinin ölkə ərazisindəki müsəlman uşaqları oxuyan məktəblərdə islam dinini tədris etməyə icazə verməsi buna parlaq bir süburdur. Hal-hazırda Yaponiya dövləti islam dinini öyrənməyə səy göstərir.

Yuxarıda deyilənlərdən aydın olur ki, səmavi dinləri bütün canlıları və onların məskunlaşdığı kainatı yaradan Allah öz dərgahından nazil etmişdir. Yəni Allah məxluqatı yaratdıqdan sonra onların davranışlarını tənzimləmək üçün **lövhü-məhfuz adlı qanun kitabını** yazmışdır. İlk peyğəmbər olan Adəmlə Həvvanın dövründən bu günə qədər isə yerdəki insanlar üçün öyüd-nəsihət və qanun olaraq lövhü-məhfuzdan köçürülüb peyğəmbərlərə verilmiş kitabları nazil etmişdir ki, bu kitabları təbliğ edən dinlər isə səmavi dinlər adlanır. Səmavi dinləri yaradan Allahdır. O Allah ki, bizi yatatmışdır və istədiyi vaxda da öldürəcəkdir.

## 3.3. Zəbur

Zəbur Davud Peyğəmbərə verilmiş səmavi kitamdır:

-...Biz Davuda da Zəburu verdik(4/163). Zəbur 150 nəğmədən ibarətdir. Allahın sifətləri, qüdrəti, mərhəməti, Allaha ibadət və s. tərənnüm edilir. İlk dəfə olaraq Tanrı Davud Peyğəmbərə Öz kəlamlarını avazla oxumaq qabiliyyəti verdi. O vaxtdan bütün dini kitablar avazla oxunur. Zəbur əvvəlki kimi-əslində olduğu kimi qalmamış, illər ötdükcə insanlar məzmununu dəyişdirərək təhrif etmişdilər.




**Zəbur**



**Yerusəlim ş. Əl-aksa məscidi**

**Əl-Aksa məscidi** 1278-1367-ci ildə (hicri 677-769-cu ildə) tikilib. Sərhədləri Şm.-310m, C-281m, Ş-462m və Q-

491m-dir. 4 minarəsi var:-1) Bab-əl-Maqarib ("Fəxri minarə") müqəddəs yerin C.Ş.-dədir. 2) Bab-as-Silsilə müqəddəs yerin Q.-də yerləşir. (Eyni adlı darvaza ilə "Əl-Əşrafi" mədrəsəsiarasında). 3) Bab-əl-Qavanima müqəddəs yerin Şm.Q-də yerləşir. 4) Kalaun minarəsi müqəddəs yerin Şm.-da yerləşir. Məscidin 4 darvazası var: Qərbində "Bab-an-Nazır, Bab–al-Qavanima, Şimalında Bab-al-Atam və Bab Xatta darvazaları yerləşir.

### 3.4. Tövrat

**"Tövrat" Musa Peyğəmbərə** verilmişdir (Musa sözü qibti dilində "mu"-su, "sa"-ağaclar mənasını verir.) və Allaha etiqad etmək üçün bəni-israil ümmətinə (indi yəhudilər adlanan xalqa) nazil edilmişdir. Bu dinə dünya əhalisinin təxminən 20 mln. nəfəri etiqad edir. Bəni–israil övladları İbrahim Peyğəmbərin nəvəsi Yəqub Peyğəmbərin nəslidir. Yəqub Peyğəmbərin ləqəbi "İsrail" olub. "İsrail" sözünün mənası "Allahın bəndəsi" deməkdir. Quranda da bu xalq İsrail oğulları kimi təqdim olunur. Yəqub Peyğəmbərin 12 oğlundan 4-cüsünün adı Yəhudi olduğundan bu xalq yəhudilər adlanır. Musa Peyğəmbərin arvadı (Şueyb peyğəmbərin qızıdır) ilə vətəninə dönərkən Tur dağının ətəyində ilk dəfə olaraq Allahın öz səsini eşitdi və Tanrı ona Tövratı verdi. Hər dəfə Allahla danışmaq üçün yeddi gün ac qalıb orqa-



**Tövrat**

nizmini saflaşdırdıqdan sonra Tur dağına gedirdi. Tövrat ona gil lövhələr üzərində verildi. Yəhudilərin və xristianların dini kitabı olan Bibliyanın I hissəsi "Qədim əhd" adlanır. "Qədim əhd"in əvvəlində yerləşən hissə Tövratdan götürülmüş nümunələrdir. Babil hökmdarı Navuxodonosor Qüds şəhərini dağıdıb əsil Tövratı yandırmışdı. Sonralar Tövratı əzbər bilənlərin hafizəsində qalanları yenidən yazmışdılar. Bu Musa Peyğəmbərə verilmiş əsl Tövrat deyildir.

Bibliyanın II hissəsi "Yeni əhd" adlanır. Qurani Kərimdə deyilir:-Yəhudilərin bir qismi (Tövratdakı) sözlərin yerini dəyişib təhrif edir...(46/46). Qüdsdəki Süleyman Peyğəmbər tərəfindən tikilmiş məbədin yerində ucalan "Beytul müqəddəs" ("Müqəddəs ev") müqəddəs ziyarətgahlarıdır.

Musa Peyğəmbərə Tanrı tərəfindən kitabla bərabər **10 əmr** verilmişdir. Bu əmrlər aşağıdakılardır:

1. Məndən başqa Allahınız yoxdur!
2. Yalandan and içməyin!
3. Cümə ertəsi (şənbə) gününü yada salın!
4. Ata-ananıza hörmət edin!
5. Qan tökməyin!
6. Zina etməyin!
7. Oğurluq etməyin!
8. Qonşunuza yalandan şahidlik etməyin!
9. Qonşunuzun arvadı ilə sevişməyin!
10. Qonşu malına göz dikməyin!

## 3.5. İncil

**"İncil"** yunanca:-"Yuvangeliye"-"müjdə" deməkdir. Quranda deyilir:-Onların ardınca **Məryəm oğlu İsanı** özündən qabaqkı Tövratı təsdiq edən kimi göndərdik. Ona içində haqq yol və nur olan, özündən əvvəlki Tövratı təsdiq edən, müttəqilər üçün doğru yol nəsihət olan İncili verdik (5/46).

İncil xristianların dini kitabıdır. Qədim yunan dilində "xristian"-"məsihi"–yəni "Məsihə inanan" deməkdir. "Məsih" alnına yağ sürtülmüş, yəni hakimiyyəti təsdiq edilmiş şəxs deməkdir. İsa Peyğəmbərə verilmiş addır. Qədim yəhudilərdə padişah hakimiyyətə gələndə, din xadimləri onun alnına hakimiyyətini təsdiq edən müqəddəs yağ sürtürdülər.



**İncil**

Xristianların əqidəsinə görə Davud Peyğəmbərin nəslindən bir nəfər dünyanın sonunda ilahi hökumət quracaqdır və bu həmin hakimiyyət üçün təsdiq olunmuş şəxs İsa Məsih Peyğəmbərdir. Müasir İncil də əslində dəyişdirilmişdir və "Bibliya"nın "Əhdi-əntiq" hissəsinin əvvəlini təşkil edir. 325-ci ildə Nikey şəhərində kilsə qurultayı keçirildi və İncillərin çoxu qeyri-qanuni elan edildi. 4 İncil saxlanıldı. Matvey, Mark (Apostollar), Luka və İohann (apostolların şagirdləri) tərəfindən yazılmış İncillər etibarlı mənbə kimi qəbul olundu.

Hal-hazırda əksər ölkələrin və respublikamızın istifadə etdiyi tarix "miladi tarixi" adlanır. İsa Peyğəmbərin anadan olduğu gündən miladi tarixi hesablanmağa başlayıb.

### 3.6. Qurani Kərim

**Qurani Kərim** sonuncu Peyğəmbərə verilmiş dini kitabdır:-Biz bir ayənin hökmünü ləğv edib onu başqası ilə əvəz etdikdə-Allah nə nazil etdiyini ...Özü daha yaxşı bilir... (16/101).

Yuxarıda göstərilən ayədən aydın olur ki, müəyyən dövrlərdə Allah əvvəl nazil etdiyi dinində bəzi ayələri saxlayır və bəzilərini ləğv edərək yenisi ilə əvəz edir. O cümlədən də, islamdan əvvəlki dinin–xristian dininin bəzi hökmlərini ləğv etmiş və əvəzində islam dinini haqq olaraq nazil etmişdir. Quran haqqında irəlidə daha dolğun məlumat veriləcəkdir. Qurandan başqa Peyğəmbər meraca (merac Barədə də kitabda geniş məlumat veriləcəkdir) qalxarkən Allahdan **12 əmr** almışdır. Bu əmrlər aşağıdakılardır:




Qurani Kərim

**1.** Allaha şərik qoşmamaq!

**2.** Ata-anaya hörmət və itaət!

**3.** Qohum və əqrabaya, kasıba, yoxsula, qəribə, yolçuya, kimsəsizə əl tutmaq!

**4.** İsraf etməmək, malını boş yerə xərcləyib sovurmamaq!

**5.** Uşaqları öldürməmək (ərəblər qız doğulanda diri-diri torpağa basdırırdılar).

**6.** Zina etməmək!

**7.** Nahaq yerə heç kimi öldürməmək!

**8.** Yetimlərin malını yeməyin, onlara qayğı ilə yanaşın!

**9.** Əhdə vəfa edin, verdiyiniz sözü tutun!

**10.** Ölçüdə və çəkidə düz olun!

**11.** Bilmədiyiniz bir şeyin ardınca kor-koranə getməyin! İnsan şüurlu varlıqdır, ağılla hərəkət edin!

**12.** Yer üzündə özündən razı, qürurla yeriməyin! İnsan öz yerini bilməlidir!

İnsanlar arasında dinə qarşı münasibət cürbəcürdür. Bəziləri onu qəbul edir, bəziləri qəbul etmir və bəzi insanlar isə dindarların yanında özünü dindar kimi aparır, dini qəbul etməyənlərin yanında isə dinsiz kimi davranır:-Amma insanlar din barəsində öz aralarında firqələrə bölünüb parçalandılar. Onların hamısı Bizim hüzurumuza qayıdacaqlar. (Biz də müvafiq surətdə əməllərinin əvəzini verəcəyik) (21/93). Elə insanlar da vardır ki, cəmiyyət içərisində özlərini nümayişkəranə olaraq dindar kimi göstərirlər, lakin dindən xəbərləri belə yoxdur. Bu barədə Qurani Kərimdə belə buyrulur: De ki:-Mənə dini məhz Allaha məxsus edərək, yalnız Ona ibadət etmək əmr olunmuşdur!(39/12). De ki:- Mən Allaha dinimi (ibadət və itaəti) yalnız Ona məxsus edərək (heç bir şərik qoşmadan) tapınıram!(39/14). ...Allahın dininə yalnız Ona məxsus edərək ibadət edin!...(23/65).

Dini qəbul edən hər kəs sidq ürəklə yalnız Allaha tapınaraq ibadət eməlidir. İnsanın imanı kamil olmalı, onun

etiqadı Allaha tapınmaqla tamamlanmalıdır. İnsanın dindar olmağı onun gözəl davranışlarında, yaxşı əməllərində, kamilliyində, müdrikliyində və elmliliyində təzahür etməlidir. Qüdrət sahibi olan Allah hər kəsin nə dərəcədə dindar olub-olmamasını onun özündən daha yaxşı bilir. (Ey insan!) Sən (dua edərkən) səsini ucaltsan da, (ucaltmasan da) heç bir fərqi yoxdur. Çünki, Allah sirri də, sirdən daha gizli olanı da (məxfini də) bilir. (Allah nəinki qəlblərin sirlərindən, hətta ani olaraq ürəklərdən keçən gizli niyyətlərdən də xəbərdardır. Buna görə də özünü yorub uca səslə dua, yaxud zikr etmə. Əsas məsələ Allaha edilən ibadətin səmimiyyətidir.)(20/7). Çünki:-Allah hər şeyə şahiddir! (4/33).

İslam dini Allah dərgahından nazil olunmuş sonuncu din olduğuna görə Allaha iman gətirən hər kəs onu qəbul etməlidir. İslamı qəbul etməyınlər ziyana uğramış və özünə zülm etmiş insanlardan olacaqdır:-Kim islamdan başqa bir din ardınca gedərsə, (o din) heç vaxt ondan qəbul olunmaz və o şəxs axirətdə zərər çəkənlərdən olar!(3/85). Səhər-axşam yalvararaq, qorxaraq, səsini qaldırma-dan ürəyində Rəbbini yad et və qafillərdən olma!(7/205). Çünki, Allah yanında haqq olan din, əlbəttə islamdır... (3/19).

Allahın nazil etdiyi dini qəbul edib Tanrısının haqq yolu ilə gedən insanlar Allah tərəfindən sevilən insanlardır. Allahın müqəddəs ayələrini öyrənib ona əməl edənlər və başqalarına öyrədən insanlar isə Allah yanında daha çox savab qazanmış olurlar və Rəbbi tərəfindən sevilən insanlardır.

Dində ifrata varmağı da Allah qadağan etmişdir. **...Dininizdə haqsız yerə ifrata varmayın!..** (5/77)–deyə,

Quranda buyurulmuşdur. O cümlədən, dində olmayan şeyi deyib, Allahın adından hökm etmək də qadağan edilmişdir. ...Öz dininizdə həddi aşmayın, Allah barəsində yalnız haqqı deyin!...(4/171). Qurani Kərimdə kişi ilə qadın arasında din barəsində ayrı-seçkilik qoyulmur...İstər kişi, istər qadın olsun, Mən heç birinizin əməlini puça çıxartma-ram! Siz (hamınız) bir-birinizdənsiniz, **dində kişi, qadın eynidir.** (3/195)...onlara əmr edilmişdir ki, Allaha, dini yalnız Ona məxsus edərək, digər batil dinlərdən (keçmiş səmavi din-lərdən və bəşəri dinlərdən) islama dönərək ibadət etsinlər, namaz qılıb zəkat versinlər. Doğru-düzgün din budur! (21/5).

Allah dində firqələrə parçalanmağı da qadağan etmiş-dir:-O kəslərdən ki, öz **dinini parçalayıb firqə-firqə oldu-lar.** Hər bir firqə öz dininə (öz dinini haqq olduğuna) se-vinər.(30/32). Tövbə edərək Allaha tərəf dönün! Ondan qorxun, namaz qılın və müşriklərdən olmayın!(30/31). Yə-hudilərin bir qismi (Tövratdakı) sözlərin yerini dəyişib təhrif edir və dillərini əyərək dinə (islama) tənə vurmaq məqsədilə (sənə qarşı):-Eşitdik və qəbul etmədik; eşit və eşitməz ola-san (kar olasan) və "raina"-deyirlər. Əgər onlar:-Eşitdik və itaət etdik, eşit və bizə tərəf bax!-desəydilər, əlbəttə onlar üçün daha xeyirli və doğru olardı. Allah onları öz küfürləri ucundan lənətə düçar etmişdir. Onların yalnız az bir hissəsi iman gətirmişdilər. (4/46).

Yuxarıda qeyd edilən ayələrdən aydın olur ki, dini qə-bul edən insanlar öz aralarında qruplara bölündülər. Məsə-lən:-müasir dövrdə xristianlığı qəbul edənlər 3 qrupa-firqəyə

bölünüblər:-a) katolik; b) provaslav və c) protestant. İslam dininə etiqad edən insanlar da Peyğəmbərin vəfatından sonrakı dövrlərdə 2 qrupa-firqəyə bölündülər:-a) sünnülər; b) şiələr. Qurani Kərimdə islama etiqad edən insanların da əvvəlki möminlər kimi firqələrə bölünməsi Allah tərəfindən qadağan olunmuşdur. Bütün dini kitablar ramazan ayında nazil olmuşdur!

**“Quran”** ərəb dilində **“Oxu!”** sozündən ibarət olub-“qurənun”-“oxumaq, qiraət” mənasını verir:-Bu Allah tərəfindən nazil edilməsinə, Haqdan gəlməsinə heç bir şəkk-şübhə olmayan və müttəqilərə Allahdan qorxanlara, pis əməllərdən çəkinənlərə doğru yol göstərən kitabdır! (2/2). Bu qorxutmaq və öyüd-nəsihət vermək üçün sənə nazil edilən kitabdır.(7/2). Bunlar hikmətlə dolu kitabın ayələridir. (10/1). Bu ayələri hikmət sahibi və hər şeydən agah olan (Allah) tərəfindən təsbit olunmuş, sonra da müfəssəl izah edilmiş bir kitabdır...(11/1). Bunlar açıq-aydın kitab ayələridir.(12/1). Bunlar kitabın ayələridir. Rəbbindən sənə nazil olan Quran haqqdır, lakin insanların əksəriyyəti ona inanmaz.(13/1). Bu Quran elə bir kitabdır ki, onu sənə insanları öz Rəbbinin izni ilə zülmətlərdən nura, həm də yenilməz qüvət sahibi və hər cür tərifə, şükrə layiq olan Allahın yoluna çıxartmaq üçün nazil etmişik. (14/1). Bunlar (mükəmməl ilahi) kitabın və açıq-aydın (möcüzə) olan Quranın ayələridir. (15/1). Qorxan bir kimsəyə yalnız öyüd-nəsihət olaraq göndərdik. (20/3). Bunlar (haqqı batildən ayıran, möcüzələri, hökmləri) açıq-aydın kitabın ayələridir.(26/2). Kitabın (Quranın) aləmlərin Rəbbi tərəfindən nazil edilməsində heç

bir şəkk, şübhə yoxdur!(32/2). Kitabın (Quranın) nazil edilməsi yenilməz qüvvət sahibi olan və (hər şeyi) bilən Allahdandır!(40/2). Biz onu mübarək bir gecədə (qədr gecəsi) nazil etdik!...(44/3). Ya Məhəmməd! Biz sənə hər namazda oxunub təkrarlanan 7 ayəni (Əl-Fatihə surəsini) və böyük, əzəmətli Quranı verdik!(15/87).

Ayələrdən gördüyünüz kimi Quranın Allah tərəfindən nazil olması və göndərilmə səbəbləri çoxlu sayda surələrin 1-ci və ya 2-ci ayələrində təsdiq olunur. Quran Allah tərəfindən nazil olunduğundan, Həzrəti Məhəmməd Peyğəmbər məhz Allah tərəfindən elçi seçildiyindən onun təbliğ etdiyi din-İslam dini sonuncu səmavi dindir!

Qurana bir sıra adlar verilmişdir:- **Qurani Kərim, Əl-Furqan, Əl-Mushəf** (Quranın əlyazması), **Əl-Zikr, Əl-Kitab, Ət-Tənzil.**

Qurani Kərimin ilk surələri və ayələri miladi 609-cu ildə Məkkədə nazil olub. İlk nazil olan ayələr yuxarıda da qeyd edildiyi kimi, 19 ayədən ibarət olan Əl-Ələq surəsinin ilk 5 ayəsidir.

**1.** (Ya Peyğəmbər!) Qurani Kərimi (bütün məxluqatı) yoxdan yaradan Rəbbinin adı ilə (bismilləh!-deyərək) oxu!

**2.** O, insanı laxtalanmış qandan yaratdı!

**3.** (Ya Peyğəmbər!) Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir!

**4.** O Rəbbin ki, qələmlə yazmağı öyrətdi!

**5.** O Rəbbin ki, insana bilmədiklərini öyrətdi.

İnsanlara aramla, yavaş-yavaş oxuyasan deyə, Biz Quranı hissələrə ayırıb (ayə-ayə, surə-surə) göndərdik. Biz

onu (tədriclə, bir-birinin ardınca 23 ilə yaxın bir müddət ərzində) nazil etdik. (17/106). Biz Quranı haqq olaraq nazil etdik, o da haqq olaraq (heç bir dəyişikliyə uğramadan) nazil oldu. (17/105).
**"Quran"** kəlməsi Qurani Kərimdə 70 dəfə təkrarlanır. **"Allah"** kəlməsi Quranda 2707 dəfə yazılmışdır. "Ali İmran" surəsinin 154-cü və "Əl-Fəth" surəsinin 29-cu ayələrində ərəb əlifbasının 28 hərfi cəmlənmişdir. "Mücadilə" surəsinin bütün ayələrində "Allah" sözü vardır.

## 3.7.Quranın oxunuş qaydaları

Quranı oxuyarkən xüsusi qaydalara riayət etmək olduqca vacibdir. Çünki, ərəb dilində hərflərin uzun və ya qısa tələffüz olunması sözün mənasını kəskin şəkildə dəyişir. Allah kəlamının mənasını dəyişmək özü bir günah sayılır. Bu barədə Quranda xüsusi ayə mövcutdur:-Qurani Kərimin qiraəti (oxunuşu) **"tərtil"** surətində olmalıdır. "Tərtil" sözünün lüğəti mənası **"tənzim etmək, uyğunlaşdırmaq"** deməkdir. Quranın kəlmə və hərfləri düzgün tələffüz edilsin deyə, nizamlı surətdə və hecalarla oxunması qaydası tətbiq edilir. Bu oxunuş ayələrin mənasına diqqət edilməsi ilə müşayyət olunmalıdır. Quranın kəlmə və hərflərinin düzgün öyrədilməsi məqsədi ilə "Təcvid" elmi yaradılmışdır. **"Təcvid"** sözünün lüğəti mənası **"gözəlləşdirmək"** və ya **"keyfiyyətli etmək"** deməkdir. Qiraət termini olub hərfin xüsusiyyət və qaydalarına riayyət etməklə onun öz məxrəcində tələffüz edilməsinə deyilir. "Təcvid" qaydasına əsasən

Quranda kəlmələrdəki həriflər bir-birləri ilə birləşir. Quranı oxuyarkən əvvəlki sözün axırıncı hecası özündən sonra gələn sözün birinci hecası ilə assimilyasiya olunur. Bu zaman əvvəlinci sözün sonuncu hecasındakı hərflərlə sonuncu sözün əvvəlinci hecalarındakı hərflərdə dəyişiklik baş verir. Məsələn:-əvvəlinci söz "n" hərfi ilə bitirsə və özündən sonra gələn söz "b" hərfi ilə başlayırsa, onda "n" hərfi "m" kimi tələffüz edilərək "b" hərfinə bitişik oxunur. Belə oxunuş tərzi "təcvid" qaydası (Quran oxumağın xüsusi qaydası) adlanır."Təcvid" elminin köməyi ilə Qurani Kərim Həzrəti Peyğəmbərimizin dövründə olduğu kimi oxunur və eşidildiyi kimi qiraət olunur. Belə qiraət Quranın kə kəlmələrinin dəyişikliyə məruz qalmasının qarşısını alır. Quranın kəlmələrinin olduğu kimi, dəyişikliyə məriz qalmadan oxunuşuna "**Quranın tilavəti"**deyilir. Yəni Quran daha gözəl şəkildə qiraət olunur.

**Quran Həzrəti Peyğəmbərimizin dövründən bu günə qədər avazla oxunur**. Məqsəd ondan ibarətdir ki, avazla oxunuş insanların qəlbinə daha tez yol tapır. Eyni zamanda avazla oxuduqda insanın ruhu pərvazlanır, qəm-qüssə, problemlər yaddan çıxır. İnsanın qəlbi gözəl amallar, gözəl əməllər üçün "köklənir". Eyni zamanda Quranı avazla oxuduqda təcvid qaydalarına dəqiq əməl olunur, sözlərin tələffüz qaydalarına xələl gəlmir, bu da sözlərin təhrif olunmasının qarşısını alır.

Quranda elə ayələr vardır ki, bu **ayələri oxuduqdan sonra mütləq Allaha səcdə etmək** lazımdır. Bunlar aşağıdakı 15 ayədir. Bu ayələrin hər birini oxuyandan sonra müt-

ləq Allaha səcdə edilməsi vacib sayılır:-Rəbbinin yanında olanlar (Allahın yanında olan mələklər) Ona ibadət etməyi özlərinə ar biməzlər. Onu pak, müqəddəs tutub şəninə tərif-lər deyər və ancaq Ona səcdəyə qapanarlar!(7/206). Haqq olan (qəbul olunan) dua yalnız Allaha olan dualardır. Ondan başqasına edilən dualar qəbul olunmaz. Müşriklərin vəziy-yəti (quyu üstündə duraraq) ağzına su gəlməsi üçün iki ovcunu açan (dili və əlləri ilə quyuya işarə edərək ovcunun su ilə dolmasını gözləyən), lakin (quyu heç bir şey anla-madığı üçün) suyun ona yetişmədiyi adamın vəziyyətinə bənzəyir. (Bütlər də belədir, çünki onlar görməz, eşitməz və dərk etməzlə). Kafirlərin duası zəlalətdən (puç, mənasız sözlərdən) başqa bir şey deyildir!(13/14). Allah belə buyur-du:-İki Tanrı qəbul etməyin. O yalnız tək bir Tanrıdır. An-caq Məndən qorxun!(16/51). Onlar üzüqoylu səcdəyə qapa-nıb ağlayar. Qurandakı (öyüd-nəsihət) isə onların (Allaha) itaətini daha da artırar.(17/109). Bunlar Adəmin və Nuhla gəmiyə mindirdiyimiz adamların nəslindən, İbrahimin, İsrailin (Yəqubun) nəslindən seçib haqq yola yönəltdiyimiz, Allahın nemət bəxş etdiyi peyğəmbərlərdəndir. Onlar Rəh-manın (Allahın) ayələri özlərinə oxunduğu zaman ağlayaraq səcdəyə qapanırdılar.(19/58). (Ey insan!) Məgər Göylərdə və Yerdə olanların (bütün canlıların), günəşin, ayın və ul-duzların, dağların, ağacların və heyvanların, insanların bir çoxunun (möminlərin) Allaha səcdə etdiyini görmürsənmi? Bir çoxuna da (kafirlərə) əzab vacib olmuşdur. Allahın alçal-tdığı kimsəni heç kəs yüksəldə (səadətə qovuşdura) bilməz. Həqiqətən, Allah dilədiyini edər!(22/18). Ey iman gətirən-

lər! Rükü edin, səcdəyə qapanın, Allaha ibadət edin və yaxşı işlər görün ki, bəlkə nicat tapasınız!(22/77). O göyləri, yeri və onların arasındakıları altı günə xəlq edən, sonra ərşi yaradıb ona hakim olan Rəhmandır. Bunu bir biləndən (Allahın özündən və ya Cəbraildən) xəbər al! (25/59). O böyük ərşin sahibi olan Allahdan başqa heç bir tanrı yox-dur!(27/26). Bizim ayələrimizə ancaq ayələri-mizlə öyüd-nəsihət olunduqları zaman səcdəyə qapananlar və təkəbbür göstərməyərək Rəbbini həmd-səna ilə təqdis edənlər iman gətirərlər.(32/15).

(Bu sözləri eşidən Davud o biri iddiaçı ağzını açmağa macal tapmamış) dedi:-O sənin bircə qoyununu öz qoyunla-rına qatmaq istəməklə, şübhəsiz ki, sənə zülm etmişdir. Doğ-rudan da, şəriklərin çoxu bir-birinə haqsızlıq edər. Yalnız iman gətirib yaxşı işlər görənlərdən savayı. Onlar da (təəssüf ki,) çox azdırlar! (İddiaçılar bir-birinə baxıb güldükdə, ya-xud çıxıb getdikdən sonra) Davud (bu işdə şübhəyə düşərək) Bizim onu imtahana çəkdiyimizi güman etdi. O dərhal Rəbbindən öz bağışlanmasını dilədi və dizi üstə düşüb səc-dəyə qapanaraq tövbə etdi. (38/24).

Gecə və gündüz, Günəş və Ay Onun (vəhdəniyyatına, qüdrət və əzəmətinə dəlalət edən) əlamətlərdəndir. Günəşə və Aya səcdə etməyin! Onları yaradan Allaha səcdə edin! Əgər Ona ibadət edirsinizsə (heç bir şərik qoşmadan) ibadət edin!(41/37). (Ey insanlar!) Gəlin Allaha səcdə edin!Allaha ibadət edin! (Ondan başqasına itaət etməyin!)(53/62). Özlə-rinə Quran oxunduqda səcdə etmirlər?(84/21). Yox, yox! Sən (ey Peyğəmbər!) ona uyma! Sən ancaq (Rəbbinə) səcdə

et və (Ona) yaxınlaş!(96/19).

Göründüyü kimi ayələrin hər birində Allaha səcdə etmək hökm və tövsiyyə olunur. Ona görə də bu ayələri oxuduqdan sonra hər kəs Allaha səcdə etməlidir! Hər bir insan öz qürurlu başını, onu yaradaraq Öz tükənməyən nemətlərindən bol ruzi verən Rəbbinin önündə əyərək yalnız Ona səcdə etməlidir! Allah hər kəsin ibadətini qəbul edər.

Quranın hər bir kəlməsinin mənasını ana dilində dərk etmək olduqca vacibdir. Çünki, ayələrin mənasın anlamayan insan Quranın anlatdıqlarını dərk etməz. Belə insan bu kəlamların qədrini bilməz və Allahın qoyduğu qadağaları pozar, haqqın yolundan asanlıqla azar. Lakin kəlmələrin mənasını dərk etdikdə halalı-haramdan, yaxşını-pisdən seçməyi öyrənər. Allahın öyüd-nəsihətlərinə əməl edər. Allahdan qorxar, pis əməllərinin cəzasının veriləcəyini, yaxşı əməllərinin mükafatını alacağını şüurlu olaraq anlayar. Belə insanlar Haqqın yolundan azmağa cəsarət etməz. Lakin ayələrin mənasını bilməklə yanaşı Quranın ərəb dilində oxunuşu çox vacibdir. Ərəb dilində nazil olduğundan Quranı ərəb dilində oxumaq sözləri olduğu kimi tələffüz etməyə yardım edir və nəticədə Allahın kəlmələrinin mənasında təhriflər yaranmır. Çünki ayələr özünəməxsus qafiyə və ahəngə tabedir. Şerdən fərqlənir, lakin axıcı olması ilə yadda qalır, deyiliş tərzi gözəlləşir. Hər sözün bir neçə rəmzi mənası vardır. Həzrəti Peyğəmbər buyurmuşdur ki, hər kəlmənin 7 batini mənası vardır. Ona görə də Quranı ərəbcə oxumaq məqsədə müvafiq hesab edilmişdir. Bəzi savadsız insanlar Quranın ərəb dilində oxunmasını ana dilimizə hörmətsizlik

kimi təqdim edirlər. Lakin bu belə deyildir. Hal-hazırda ölkəmizdə Quranın ana dilimizə tərcümə olunmuş variantları vardır. Quranı ana dilimizdə bilməklə yanaşı ərəb dilində oxumağı öyrənməyə çalışmaq faydalıdır. Bu hər kəsin axirəti üçün dəyərlidir və Allahın rizasını qazanmağa kömək edər. Eyni zamanda məclisdə Quran oxunarkən və ya kimsə Qurandan misallar çəkərək söhbət edirsə, onu ədəblə dinləmək olduqca vacibdir. Quranı dinləməyin vacibliyi və əhəmiyyəti ayələrdə də öz təsdiqini tapır:-Quran oxunarkən onu dinləyin və susun ki, bəlkə (onun sayəsində) rəhm olunasınız! (7/204).

**Yatmazdan əvvəl Quranı oxumaq daha faydalıdır**:-...Həm də (gecə ibadət etdiyin zaman) aramla, ağır-ağır Quran oxu! (73/4) Şübhəsiz ki, gecə qalxmaq (çox çətin olsa da) daha əlverişli və söz demək daha münasibdir! (73/6) Çünki, gündüz (Ya Peyğəmbər!) uzun-uzadı davam edən (dünyəvi) işlərin vardır. (Gecə isə insan rahatlaşır, heç kəs ona mane olmur. İnsan öz daxilinə qapılıb Rəbbi ilə tək qalır. Qulaq qəlbə daha yaxın olur.) (73/7).

Bəzi ölkələrdə Quranın ayələrinin “**təfsir**”i nəşr olunaraq insanlara çatdırılmışdır. “**Təfsir**”-“**ayələrin şərhi**” deməkdir. Bu günə qədər 60 cilddə Quran ayələrinin təfsiri nəşr olunmuşdur. ...Quran oxumaq istədiyin zaman məlun Şeytandan qaçaraq Allaha sığın! Əuzu billahi minəş-Şeytanir-racim! –sözlərini de! (16/98).

Quranı oxuyub qurtardıqdan sonra:-Sada-qallahu azim! (Hər şeyin doğrusunu Allah bilir!) demək vacibdir.

## 3.8. Quranın quruluşu

**1. Qurani Kərim quruluşuna görə 30 cuza bölünür.** Hər cuz 2 **hizbə** bölünür. Hər bir hizb özlüyündə 4 **hissəyə** bölünür. Bu ümumu bölgüdür. Cuzların adı başlandığı surənin ilk kəlməsi ilə adlanır. Məsələn:-Quranı oxumağı ilk dəfə öyrənənlərə adətən "**Əmmə cuz**"u öyrədirlər. Bu sonuncu-30-cu cuzdur. Onu, əvvəlcə öyrətməyin mənası ondan ibarətdir ki, buradakı surələr həcmcə kiçikdirlər. Həcmcə kiçik olmaları öyrənməsini asanlaşdırır. Quranı yeni öyrənənlər üçün kiçik həcmli surələrin öyrədilməsi asan olur. "Əmmə cuz" "Ən-Nəbə" (Böyük xəbər) surəsinin 1-ci ayəsinin ilk kəlməsi olan "əmmə" sözü ilə adlanır. 78-ci ayədən başlayaraq 114-cü surə də daxil olmaqla Quranın axırıncı hissəsini əhatə edir. Tərkibinə 37 surə və 564 ayə daxildir. "Əmmə" cuz həcmcə bütün cuzlardan böyükdür.

**QURAN→ 30 CUZ → 60 HİZB → 240 HİSSƏ**

Yəqin ki, yaşlı nəslin:-30 cuzv Quran haqqı!-deyə, and içdiyini eşitmisiniz. And içən yaşlılardan soruşsanız ki, andın mənası nədir, bəlkə də çoxu bilməz. Əslində, onlar özləri də bilmədən Quranın 30 cuzdan ibarət olduğunu insanların diqqətinə çatdıraraq and içirlər. Amma bu kor-koranə çatdırmaqdır və savadsızlıqdan irəli gəlir. Cuzların bölünməsi də müxtəlifdir: a) Tərkibində olan surələrin və ayələrin sayı eyni deyildir. "Əmmə" cuz 37 surədən və 564 ayədən ibarət olduğu halda, 2-ci cuz "Əl-Bəqərə" surəsinin 142-252-ci ayələrini əhatə edir.

-(Mədinədəki yəhudilər və münafiqlərdən) ağılsız adamlar deyəcəklər:-Müsəlmanları (əvvəlcə) üz tutduqları qiblədən (Beytulmüqəddəsdən) döndərən nədir? (Ya Məhəmməd!) Onların cavabında de:-Şərq də, qərb də Allahındır. O, istədiyi şəxsi doğru yola yönəldir. (2/142) (Ya Məhəmməd!) Bunlar (bu söylənilənlər) Allahın ayələridir (qüdrət nişanələridir) ki, onları sənə doğru-düzgün bildiririk. Sən həqiqətən, (Allah tərəfindən seçilərək insanlara) göndərilən (mürsəl) peyğəmbərlərdənsən! (2/252).

**2.** Qurani Kərim **surələrdən** ibarətdir. Hər bir surə isə ayələrdən ibarətdir. **Quranda 114 surə** və **6236 ayə** vardır. (Sxem 1-ə bax!).

Bütün surələr "Bismilləhir-Rahmənir-Rahim"–Rəhimli və mərhəmətli Allahın adı ilə!-kəlməsi ilə başlayır. Yalnız "Ət-Tövbə" surəsindən başqa. "Ət-Tövbə" surəsi "Bismilləhir-Rahmənir-Rahim" kəlmələri ilə başla-mır. Bu surədə insanların pis əməllərdən çəkinərək "tövbə" edib Allahın doğru yoluna qayıtmağı tövsiyyə olunur. Surədə qeyd edilir ki, insanların tövbəsini Allah qəbul edib, onun günahlarını bağışlayır. Ona görə də Quranda göstərilən Allahın öyüd-nəsihətlərinə əməl etsinlər. Yaxşı işlər görən-lər mütləq mükafatlandırılacaqlar. Haqq yoluna dönmə-yənlər də mütləq cəzalandırılacaqlar.

**Surələrdən 28-i həriflərlə başlayır.** Yəni bu surələrin 1-ci ayəsi hərflərdən ibarətdir. Sanki hansısa kodları ifadə edir. Bu hərflərin mənası bu günə qədər öz izahını tapa bilməmişdir. Ərəb əlifbasının 12 hərfindən istifadə olunmuşdur və bu hərflər müxtəlif sayda qeyd edilmişdir:

**Əlif** (13), **Lam** (13), **Mim** (17), **Ha** (9), **Ra** (6), **Sin** (5), **Ta** (4), **Sad** (3), **Ya** (2), **Eyn** (2), **Kaf** (1), **Qaf** (1). Həriflər cəmi **77** dəfə yazılmışdır. Göründüyü kimi ən çox əlif, lam və mim hərifləri işlənmişdir. Hərflərlə başlanan surələrin 1-ci və 2-ci ayələri Quranın Allah dərgahında mövcud olan "lövhi məhfuz" adlanan qanun kitabından mələklərin əlləri ilə köçürülüb Peyğəmbərə nazil edilməsi, Peyğəmbər ərəb olduğundan məhz ərəb dilində nazil edilməsi, Peyğəmbərin Allah tərəfindən seçilmiş Rəsulu (elçisi) olduğunu, möminləri Cənnətlə müjdələmək, kafirləri Cəhənnəmlə qorxutmaq üçün bir öyüd-nəsihət olaraq göndərildiyini təsdiq edir.

**Bəzi surələrin adları həriflərin adı ilə adlanır.** "Taha", "Yasin", "Sad", "Qaf" surələri 1-i ayəsindəki hərflərin adı ilə adlanmışdır. Bizim fikrimizcə ayrı-ayrı surələr Allah dərgahında yerləşən "lövhi məhfuz" adlanan qanun kitabının müxtəlif hissələrindən götürüldüyündən həriflər nazil olunmuş ayələrin həmin kitabdakı yerini bildirir. Əlbəttə, hər şeyin yaxşısını Allah bilir. Bu fərziyyənin doğru olub-olmadığına yalnız Allah qərar verə bilər.

Hərflərlə başlanan surələrin ilk ayələrində belə deyilir:-Allahdan başqa heç bir tanrı yoxdur!(3/2) Siz Allahdan başqasına ibadət etməyəsiniz. Mən sizi Allah tərəfindən (Cəhənnəmlə) qorxudan, (Cənnətlə) müjdələyənəm.(11/2) (Ya Məhəmməd!) Bu sənin Rəbbinin öz qulu Zəkəriyyaya olan mərhəmətinin xatırlanmasıdır.(19/2) Bu Quran və haqqı batildən ayıran açıq-aydın bir kitabın ayələridir.(27/1) Bu açıq-aydın bir kitabın ayələridir.(28/2) İnsanlar yalnız:-iman

gətirdik!–demələri ilə onlardan əl çəkilib imtahan olunmayacaqlarınımı sanırlar?(29/2) Bunlar hikmətli kitabın ayələridir. (31/2) (Ya Məhəmməd!) Hikmətlə dolu Qurana and olsun ki, Sən, həqiqətən, peyğəmbərlərdənsən!(36/2,3) Şanlı-şərəfli, öyüd-nəsihətlə dolu Qurana and olsun!(38/1) (Bu Quran) rəhimli olan Allah tərəfindən nazil edilmişdir.(41/2) (Ya Məhəmməd!) Yenilməz qüvvət və hikmət sahibi olan Allah sənə və səndən əvvəlkilərə belə vəhy edir!(42/3) "öylərdə və yerdə nə varsa hamısı Onundur! O (hər şeydən) ucadır, (hər şeydən) uludur!(42/4) (Haqqı batildən ayıran) açıq-aydın Qurana and olsun ki, Biz onu anlaya və biləsiniz deyə, ərəbcə Quran etdik.(43/2,3) (Haqqı batildən, halalı haramdan ayıran) açıq-aydın Kitaba and olsun ki, Biz onu mübarək bir gecədə (qədr gecəsində) nazil etdik. Biz (o kitab vasitəsi ilə kafirləri Öz əzabımızla) qorxuduruq! (44/2,3) Kitabın (Quranın) nazil edilməsi yenilməz qüvvət və hikmət sahibi olan Allah tərəfindəndir.(45/2) Kitabın (Quranın) nazil edilməsi yenilməz qüvvət və hikmət sahibi olan Allah tərəfindəndir!(46/2) (Ya Peyğəmbər!) Şanlı Qurana and olsun (ki, Məkkə müşrikləri sənə iman gətirmədilər!) Bəli, özlərindən (onları Allahın əzabı ilə) qorxudan bir peyğəmbər gəldiyinə təəccüb etdilər. Kafirlər dedilər:-Bu əcaib bir şeydir! İnsandan da peyğəmbər olarmı? Ancaq mələk peyğəmbər olar!(50/1,2).

Surələr **quruluşuna** görə ayələrdən ibarətdir. (Aşağıda ayələr haqqında məlumat veriləcəkdir.)

Surələr **məzmununa** görə cox müxtəlifdir: Allahın sifətlərini, qüdrət əlamətlərini bildirir, qanundur, hökm edir,

elmi bilik verir, öyüd-nəsihət verir, müjdələyir, qorxudur, təsvir verir. Eyni zamanda bəzi hadisələr müxtəlif surələrdə verilməklə təkrar olunur.

**Surələr əhəmiyyətinə görə  də müxtəlif funksiyaya malikdir**. Məsələn: "Əl-Fatihə" surəsi "Quranın anası", "Yasin" surəsi "Quranın qəlbi", "Ər-Rahmən" surəsi "Quranıı gəlinciyi" adlandığı halda, "İxlas" surəsi "Quranın dörddən birinə bərabər" sayılır. "Ən-Nas" və "Əl-Fələq" surələri "nəzər duası" kimi qəbul olunmuşdur. "Əl Fatihə" surəsindən süfrə duası kimi istifadə olunur.

Surələr **həcm** etibarı ilə olduqca müxtəlifdir**.** Bəzi surələr cox qısa, bəziləri cox uzundur. "Əl-Bəqərə" ən uzun surə olub 286 ayədən ibarətdir. Bundan başqa 17 surənin hər biri 100-dən çox ayədən ibarətdir. Bəzi surələr–"Əl-Kövsər", "Ən-Nəsr" və "Əl-Əsr" surələri həcmcə çox kiçik-dir, onların hər biri cəmi 3 ayədən ibarətdir. Digər surələrin həcmi isə müxtəlifdir.

**Zamana** görə surələr 3 qrupa bölünür: Məhəmməd Peyğəmbərdən əvvəlki dövr, Məhəmməd Peyğəmbərin yaşa-dığı dövr və gələcək zamanlara aid olan surələr. Quran ayələri zaman etibarı ilə 23 il müddətinə dünya səmasına na-zil olmuşdur. Bu barədə "Əl-İsra" surəsinin 106-cı ayəsində deyilir:-İnsanlara aramla, yavaş-yavaş oxuyasan deyə, Biz Quranı hissələrə ayırıb (ayə-ayə, surə-surə) göndərdik. Biz onu (tədricən, bir-birinin ardınca 23 ilə yaxın bir müddət ərzində) nazil etdik.

**Məkan** etibarı ilə surələrin 86-sı Məkkə şəhərində, 28-i Mədinə şəhərində nazil olmuşdur. Quran 114 surədən və

6236 ayədən ibarətdir.

**Surələr Qurani Kərimdə nazil olunma ardıcıllığı ilə yerləşdirilməyib.** Məsələn: "Əl-Ələq" surəsinin ilk 5 ayəsi ilkin olaraq nazil olmasına baxmayaraq, bu ayələr kitabda 96-cı surənin əvvəlində yerləşdirilmişdir.

**Surələr ayələrdən ibarətdir.** Ayələrin həcmi olduqca müxtəlifdir. Bəzi ayələr bir sözdən, bəziləri bir cümlədən, bəziləri isə bir neçə cümlədən ibarətdir. Elə ayələr də vardır




**Surələrin təsnifat sxemi.**

ki, bir neçə ayə bir cümləni əmələ gətirir.

Elə ayələr də vardır ki, onlar dönə-dönə təkrarlanır. Xüsusən. "**Ər-Rəhman**" (rəhimli olan Allah) surəsində bu hal daha çox qabarıq şəkildə verilmişdir. "Ər-Rəhman" surəsi 78 ayədən ibarətdir. Surənin 13-cü ayəsi 30 dəfə (16,

18, 21, 23, 25, 28, 30, 32, 34, 36, 38, 40, 42, 45, 47, 49, 51, 53, 55, 57, 59, 61, 63, 65, 67, 69, 71, 73, 75, 77-ci ayələrdə) təkrarlanır və soruşulur:-**(Ey cinlər və ey insanlar!) Belə olduqda Rəbbinin hansı nemətlərini yalan saya bilərsiniz?!**

**1.** Rəhman! (Rəhimli olan Allah!)

**2.** Öz Peyğəmbərinə Quranı öyrətdi.

**3.** İnsanı yaratdı!

**4.** Ona danışmağı (fikrini və duyğularını bəyan etməyi) öyrətdi.

**5.** Günəş və Ay müəyyən bir ölçü ilə (hərəkət edər).

**6.** Otlar da, ağaclar da Allaha səcdə edər!

**7.** Göyü O ucaltdı, tərəzini (ədalət tərəzizisini) O qoydu!

**8.** Ona görə ki, çəkidə həddi aşmayasınız! (İnsafı əldən verməyəsiniz).

**9.** Tərəzini düz tutun, çəkini əsgiltməyin! (Çəkidə insaflı olun, tərəzini korlamayın.)

**10.** Yeri də bütün məxliqat üçün O döşədi.

**11.** Orada növbənöv meyvələr və tumurcuqlu (salxımlı) xurma ağacları;

**12.** Saçaqlı dənli bitkilər və xoş ətirli çiçəklər vardır.

**13.** (Ey cinlər və ey insanlar!) Belə olduqda Rəbbinin hansı nemətlərini yalan saya bilərsiniz?!

**78.** (Ya Peyğəmbər!) Sənin əzəmət və kərəm sahibi olan Rəbbinin adı nə qədər uca, nə qədər uludur!

Ayələrdə bəzi hadisələr də təkrar olaraq qeyd edilir.

## 3.9. Quranın məzmunu

Quranın məzmunu çoxşaxəlidir. Həyatın elə sahələri, elmin insana məlum olan elə incəlikləri yoxdur ki, Quranda ona toxunulmamış olsun. Hətta elə mətləblərdən söhbət açılır ki, insan şüuru onu dərk etmək qabiliyyətinə qadir deyildir. Quranda verilmiş bilgiləri məzmun etibarı ilə aşağıdakı kimi qruplaşdırmaq olar:

**1. Quran Allahın sifətlərini şərh edir:-**Ən gözəl adlar (əsmayi-hüsna) **Allah**ındır. Onu bu adlarla çağırıb dua edin! Onun adları barəsində küfr edənləri tərk edin! Onlar etdikləri əməllərin cəzasını alacaqdır!(7/180). Allahdan başqa heç bir **Tanrı** yoxdur! Ən gözəl adlar Onundur!(20/8). ...Allah hər şeyin **Rəbb**idir!(6/164)...Allah hər şeyə **Qadir**dir! (2/109) Biz onları yalnız **Haqq** olaraq yaratdıq.(44/39) Allah hər şeyin **Xaliq**idir!(39/62) **Pərvərdigara**! Olacağına şübhə etməyən bir gündə bütün insanları toplayan Sənsən!...(3/9)**...İlahi** hikməti ilə çox gözəl bilir!...(42/27) ...**Rəhmana** səcdə edin!...(25/60). ...O istədiyini **Yaradır**... (42/49) ...Allah öz işində **Qalib**dir...(12/21) ...Allah uca və **Ulu**dur!(25/10) ...Allah bağışlayan və **Qüdrət** sahibidir! (4/149) ...O hər şeyə **Vəkil**dir!"(39/62) ...Allah hər şeyə **Şahid**dir!(4/33) ...Allah böyük **Kərəm** sahibidir! (3/74) ...Sən hakimlərin **Hakimi**sən! (11/45)

Bu adlardan başqa Allahın **Kərim, Mövlam, Rəhim, Adil, Heydər, Sübhan, Xudaya, Xudavəndi-aləm, Şahimərdan, Rəbbulaləmin, Allahtəala** və s. adları vardır. Allahın 100 adı vardır. Bunlardan 99 adı ilahi mahiyyətin ən

uca sifətlərini ifadə edir. 100-cü ad isə **Allahdır.**

...Allah pak və müqəddəsdir!..O bütün eyb və nöqsanlardan xalidir..Göylərdə və yerdə nə varsa hamısı Ona məxsusdur, hamısı Onun itaətindədir!(2/116)...Allah hər şeyi eşidən və biləndir!(2/181)...Allah bağışlayan və rəhm edəndir!(2/192)...Allah qüvvət və hikmət sahibidir!(2/209)...Allah etdiklərinizin hamısından xəbərdardır!(2/234)...Allah kafirləri haqq yoluna yönəltməz!(2/264)...Allah öz vədəsindən əsla dönməz!(3/9)...Allah möminlərin dostudur!(3/68)...Allah ürəklərdə olanları biləndir!(3/154)...Allah onların niyyətlərində olanları (əməl dəftərinə) yazır.(4-81)...Allah eytiyacsız-dır!"(4/131)...Allah şükrə qiymət verən və hər şeyi biləndir!(4/147)...O özünə rəhimli olmağı yazmışdır!(6/12)...Allah zalımları daha yaxşı tanıyandır!(6/58)...Hökm Allahındır və O ən tez haqq-hesab çəkəndir!(6/62)...Allah həddi aşanları sevməz!(7/55) ...Allah xainləri sevməz! (8/58) ...O böyük ərşin sahibidir!(9/129)...Allah yenilməz qüvvət və intiqam sahibidir!(14/47) Əl-İxlas surəsi də yalnız Allahın sifətlərini şərh edir. Bu surə namaz qılınarkən təkrar edilir. Əl-İxlas surəsi 4 ayədən ibarətdir:

**1.** (Ya Peyğəmbər!) De ki:-(Mənim Rəbbim olan) O Allah birdir (şəriki yoxdur)!

**2.** Allah (heç kəsə, heç nəyə) möhtac deyildir! (Hamı Ona möhtacdır. O əzəli və əbədidir!)

**3.** O, nə doğmuş, nə də doğulmuşdur! (Allah Özünə heç bir övlad götürməmişdir!)

**4.** Onun heç bir tayı-bərabəri, bəmzəri də yoxdur!

Eyni zamanda müqəddəs Quranda deyilir:-Allahdan

başqa heç bir tanrı yoxdur! Əbədi və əzəli varlıq Odur! O nə mürgü, nə də yuxu bilər. Göylərdə və Yerdə nə varsa, hamısı Onundur! Allahın izni olmadan (qiyamətdə) Onun yanında kim şəfaət edə bilər? O, bütün yaranmışların keçmişini və gələ-cəyini bilir. Onlar Allahın elmindən Onun özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü (elmi, qüdrət və səltənəti) Göyləri və Yeri əhatə etmişdir. Bunları mühafizə etmək Onun üçün heç də çətin deyildir. Ən uca və ən böyük varlıq da Odur! (2/255) Əvvəl də, axır da, zahir də, batin də Odur! O hər şeyi biləndir. Allah öz əzəli elmi və qüdrəti ilə hər şeyi görüb bildiyi halda, Özü görünməz, dərkolunmazdır. Allahın varlığı aşkar mahiyyəti isə tamamilə gizlidir. (57/3)

**2. Quran Allahın qüdrət əlamətlərini göstərir:-**Allah möcüzə göstərməyə qadirdir!(6/37) ...Allah istədiyini yaradar. O, bir işin əmələ gəlməsini qərara aldıqda, ona ancaq:-**OL!**–deyər, o da olar!(3/47)...Allah Adəmi torpaqdan yaratdı. Sonra ona:-Bəşər ol!–dedi, o da oldu.(3/59) Gecəni dincəlməyiniz üçün (qaranlıq), gündüzü (çalışıb ruzi qazanmağınız üçün) işıqlı edən Odur! Həqiqətən, bunda (Allahın kəlamını) eşidənlər üçün (ibrətamiz) dəlillər vardır!(10/67) Göylərdə və yerdə (Allahın birliyini sübut edən) neçə-neçə əlamətlər, nişanələr vardır ki, insanlar onların yanından üzlərini çevirib keçərlər (onlara baxıb ibrət almaz, onların həqiqi mənaları haqqında düşünməzlər)(12/105) Yeri (insanların və başqa canlıların yaşaya biməsi üçün) döşəyən, orada möhkəm dağlar, çaylar yaradan, bütün meyvələrdən cüt-cüt yetişdirən, gecəni gündüzlə örtüb bürüyən Odur! Şübhəsiz

ki, bunda düşünən insanlar üçün (Allahın qüdrətini və vəhdaniyyətini sübut edən) neçə-neçə dəlillər vardır!(13/3) Allah yer üzündə yaratdığı cürbəcür şeyləri də (heyvanları, bitkiləri, meyvələri) sizin ixtiyarınıza verdi. Öyüd-nəsihət qəbul edənlər üçün, sözsüz ki, bunda da (Allahın qüdrətini və əzəmətini bildirən) əlamətlər vardır!(16/13) Həqiqətən Səfa və Mərvə dağları Allahın əlamətlə-rindəndir!...(2/158) Həqiqətən, göylərin və yerin yaradılma-sında, gecə ilə gündüzün bir-birini əvəz etməsində, içəri-sində insanlar üçün mənfəətli şeylər olan gəmilərin dənizlərdə üzməsində, quruyan yer üzünü Allahın göydən yağmur yağdıraraq yenidən diriltməsində, cins-cins heyvanların onun hər tərəfinə yaymasında, küləyin bir səmtdən başqa səmtə əsməsində, göylə yer arasında tabe buludların hərəkə-tində ağıl və düşüncə sahibi olan insanlar üçün (Allahın hikmət və qüdrətinə dəlalət edən) əlamətlər vardır!(2/164)

**3. Quran hökm edir:**-Səhər-axşam yalvararaq, qorxaraq, səsini qaldırmadan ürəyində Rəbbini yad et və qafilərdən olma!(7/205) Nə əldən çox bərk ol, nə də əlini açıb israfçılıq etmə!...(17/29) Zinaya yaxın düşməyin!..(17/32) ...Əhdə vəfa edin!...(17/34)...yeyn-için, lakin israf etməyin!...(7/31)...Səhhətinin, sərvətinin və gəncliyinin qədrini bil!...(28/27)...Günəşə və Aya səcdə etməyin, onları yaradan Allaha səcdə edin!(41/37)....Qadınlar bir-birinə rişxənd etməsinlər! ...Bir-birinizə tənə etməyin, eyib tutmayın, bir-birinizi pis ləqəblərlə çağırmayın!(49/11) Allah...insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi əmr

edir!(4/58)...andlarınızı qoruyun! (onları pozmaqdan çəkinin) (5/89).

**4. Quran öyüd-nəsihət verir:-**...Qurana tabe olun! Allahı qoyub başqa havadarlara uymayın! Siz öyüd-nəsihətə olduqca az qulaq asırsınız!(7/3)...Doğru yolu tutan özünə savab, doğru yoldan azan isə özünə günah qazanar...(10/108) Ey iman gətirənlər! Allahdan qorxun!(9/119) Ey iman gətirənlər! Bilə-bilə Allaha, Onun Peyğəmbərinə və aranızdakı əmanətlərə xəyanət etməyin!(8/27) Sizdən heç bir muzd, mükafat istəməyən və özləri də doğru yolda olan kəslərin ardınca gedin!(36/21)

**5. Quran elmi bilik verir:-**Allah göylərin və yerin nurudur... Onun...nuru, içində çıraq olan bir taxçaya bənzər, taxçadakı o çıraq bir qəndilin içindədir, o qəndil isə sanki parlaq bir ulduzdur. O çıraq nə şərqdə, nə də qərbdə (aləmin ortasında) olan mübarək bir zeytun ağacından yandırılır. (Şərqdə deyildir ki, günəş batdıqda, qərbdə deyildir ki, günəş doğduqda qaranlıqda qalsın). Onun (zeytun ağacının) yağı özünə od toxunmasa da sanki (hardasa) işıq saçar. Allah dilədiyini öz nuruna qovuşdurur...(24/35) Əgər yerdə və göydə Allahdan başqa tanrılar olsa idi, onların ikisi də (müvazinətdən çıxıb) pozulardı. Ərşin sahibi olan Allah müşriklərin (Ona) aid etdikləri sifətlərdən uzaqdır!(21/22) Günəşi işıqlı, ayı nurlu, illərin sayını və hesabı biləsiniz deyə, ay üçün mənzillər müəyyən edən məhz Odur!(10/5) Yeni doğan aylar (hilal) barədə səndən sual etdikdə, söylə ki, bunlar insanların istifadəsi və həcc üçün vaxt ölçüləridir...(2/189)

**6. Quran təsvir verir:-**...Qiyamət günü elə bir gündür ki, ...göylər də başqa göylərlə əvəz olunacaq...göylər də başqa cür göylər olacaq, onların mahiyyəti, şəkli o qədər dəyişəcək ki, tanınmaz hala düşəcək!(14/48) Həqiqətən Allah göyləri və yeri zaval tapmasınlar deyə, (öz məhvərindən çıxmasınlar) tutub saxlayır. Əgər onlar öz məhvərindən çıxsalar, Allahda başqa onları heş kəs tutub saxlaya bilməz...(35/41) Müttəqilərə vəd olunan Cənnətin vəsfi belədir:-orada dadı dəyişməyən, qoxumayan sudan irmaqlar, təmi çönməyən süddən çaylar, içənlərə ləzzət verən şərabdan nəhrlər və təmiz baldan irmaqlar vardır. Orada onları hər çür meyvə və Rəbbi tərəfindən (günahlarından) bağışlanma gözləyir...(47/15)

Eyni zamanda Quranda keçmişdə yaşayan Peyğəmbərlərin dövrü barədə təsvirlər vardır. Bu təsvirlər Məhəmməd Peyğəmbərə və Quranı oxuyan hər kəsə nümunə olaraq bildirilir. Lut, Nuh, İbrahim, Musa, İsa və s. Peyğəmbərlərin nəsillərinin Allaha və onun seçdiyi peyğəmbərlərə ümmətlərinin münasibətini və kafir olan insanların aqibətlərini təsvir edir.

**7. Quran müjdə verir:-**Həqiqətən, Allahdan qorxub pis əməllərdən çəkinənləri Rəbbi yanında Nəim cənnətləri gözləyir!(68/34) Həqiqətən. Yaxşı əməl və itaət sahibləri Cənnətdə qərar tutacaqlar!(82/13)...Kim Allaha iman gətirib yaxşı əməllər etsə, Allah onun günahlarının üstünü örtər və onu (ağaclar) altından çaylar axan cənnətlərə daxil edər. Beləleri Cənnətdə əbədi qalacaqlar...(64/9) Onlar o cənnətlərdə taxtlara söykənəcək, orada nə günəş, nə də sərt soyuq

görəcəklər. Cənnət ağaclarının kölgələri üstlərinə düşəcək, meyvələri də onların ixtiyarında olacaqdır.(76/13,14)...Onları (Cənnətdə) minnətsiz, tükənmək bilməyən mükafat gözləyir! (84/25)

**8. Quran qorxudur:-**O gün (Qiyamət günü) Allahın etdiyi əzabı heç kəs edə biməz!(89/25) Məgər o bilmir ki, qəbirlərdə olanlar (dirildilib) çıxardılacağı...Ürəklərdə olanlar faş ediləcəyi zaman... Həmin gün Rəbbi onları (özlərinin bütün əməllərindən) xəbərdar edəcək və cəzalarını verəcəkdir!(100/9.10,11) O gün insanlar kəpənək kimi ətrafa səpələnəcək...Dağlar isə didilmiş yun kimi olacaqdır!(101-4,5) O gün...Tərəzisi yüngül gələn kimsənin isə ...Məskəni Havi-yə (Cəhənnəmin dibi) olacaqdır!(101/6,8,9) Göy parçalanacağı zaman...Ulduzlar dağılıb səpələnəcəyi zaman...Dənizlər qaynayınb bir-birinə qarışacağı zaman...Qəbirlər çevriləcəyi zaman... Hər kəs nə etdiyini, nə qoyub getdiyini biləcəkdir... Onlar ora haqq-hesab günü daxil olacaqdır...O gün heç kəs heç kəsin karına gələ bilməz. O gün hökm ancaq Allahındır! (82/1,2,3,4,5,15,19)

**9. Quran möcüzədir:-**Quranı Kərim bəzi nadan insanların dərk etdiyi kimi adi bir kitab deyildir. Quran nazil edildiyi gündən bu günə qədər dünyanın məhşur elm xadimlərinin tədqiqat obyektinə çevrilmişdir. Müasir dövrdə, elm və texnikanın yüksək nailiyyətlər əldə etdiyi bir zamanda Quran ayələri hələ də öz sirrini qoruyub saxlamaqdadır. İnsanlar kosmosu fəth etməkdədir. Lakin Quranın möcüzələrinin sirrini aça bimirlər. Bu da onu göstərir ki, həqiqətən də, Quran bəşər övladına məxsus deyildir, o Allah kəla-

mıdır. Elə qüdrət sahibi onu yaratmışdır ki, hər kəlməsi özündə neçə-neçə elmi sirr gizlədir:-**O göyləri və yeri (yoxdan) var edəndir...**(6/101) VII əsrdə nazil olmuş bu ayənin izahını yalnız müasir dövrdə XXI əsrdə insanlar şərh edə bilmişdilər:-"Böyük partlayış" və ya "Biq banq" nəzəriyyəsi bütün kainatın 15 mld. il əvvəl bir nöqtənin partlaması nəticəsində yarandığını–yoxdan var olduğunu sübuta yetirmişdir. Metafizika olaraq adlandıra biləcəyimiz bir yoxluq şəraitində **maddə, enerji və zaman** bir anda yaradılmışdır.

**-Biz göyü qüdrətimizlə yaratdıq və biz onu genişləndirməkdəyik.**(51/47) XX əsrin sonuna qədər elmi fikirlərə görə kainat sonsuz ölçülərə malikdir. Ancaq müasir texnologiya əsasında aparılan tədqiqatlar və hesablamalar kainatın bir başlanğıcının olduğunu və onun hər an genişləndiyini göstərir.

**-Göyü kitab səhifəsi kimi büküb qatlayacağımız günü yadınıza salın. İlk dəfə yaratdığımız kimi qaytarıb əvvəlki halına salarıq. Biz yerinə yetirməli olduğumuz vədi mütləq yerinə yetirəcəyik.**(21/104) Alimlər tədqiqatlar nəticəsində belə bir qənaətə gəliblər ki, kainatın kütləsi kifayət edəcək miqdara çatanda onun genişlənmə prosesi cazibə qüvvəsinə görə dayanacaq və bu zaman kainatın öz daxilinə doğru çəkilməsinə, büzülməsinə başlamasına səbəb olacaqdır.

**-Bilin ki, qəlblər yalnız Allahı zikr etməklə aram tapır!** (13/28) Amerikan alimləri–Harvard Universitetinin Tibb fakultəsinin doktoru Herbert Benson özü inancı olma-

yan bir insan olsa da, tədqiqatları nəticəsində belə bir qənaətə gəlmişdir ki, Allaha olan inanc və ibadət insan səhhətinə başqa heç bir şeylə müqayisə edilməyəcək tərzdə təsir edir. Dərmanlarla sağalmayan xəstələr inancları sayəsində xilas ola bilirlər.

**Quranda keçmişə, Peyğəmbərin dövrünə və gələcəyə aid hadisələr şərh edilir.** (Bunlar barəsində digər mövzularda məlumat veriləcəkdir.)

## 3.10. Əbcəd hesabı

**"Əbcəd"** sözü rəvayətə görə padişah adından götürülmüşdür. Dəqiq mənası bilinməsə də, bir qramatik kateqoriya olub ərəb "həriflərinin düzülüşünü" ifadə edir. Eyni zamanda hesab vasitəsidir. Yəni, ərəb hərflərinin hər birinin bir riyazi qiyməti mövcutdur. Aşağıdakı cədvəldə hər bir ərəb hərfinin ifadə etdiyi rəqəmlər göstərilmişdir. "Əbcəd" hərflərindən ədədlər kimi istifadə etmək qədim astranomiyada geniş yayılmışdır. Planetlərin səmada vəziyyətini təyin etmək üçün qədim astronomlar "Əbcəd" hərflərindən istifadə etmişdilər. Münəccimlər bəxti, taleyi qeyd etmək üçün "Əbcəd" hərflərini işlədirlər. Onlar insanın taleyini 3 hərflə ifadə edirlər. 1-ci hərf şərq üfüqündə olan Zodiaq bürclərinin nömrəsidir. 2-ci hərf bu bürcün dərəcəsini, 3-cü hərf isə onun dəqiqəsini göstərir. Metalların xüsusi çəkisi də "Əbcəd" hesabı ilə ifadə edilir. Bir hadisənin tarixini qeyd etmək üçün həmin hadisəyə münasibət bir və ya bir neçə seçilmiş sözlə ifadə edilir. Bu sözlərin tərkibindəki hərflərin

düzülüşü “Əbcəd” hesabı ilə göstərildikdə ədədlərin cəmi həmin hadisənin tarixini göstərir.

| Təkliklər | | | Onluqlar | | | Yüzlüklər | | |
|---|---|---|---|---|---|---|---|---|
| Əlif | = | 1 | Yə | = | 10 | Qaf | = | 100 |
| Bə | = | 2 | Kəf | = | 20 | Ra | = | 200 |
| Cim | = | 3 | Ləm | = | 30 | Şin | = | 300 |
| Dəl | = | 4 | Mim | = | 40 | Tə | = | 400 |
| Hə | = | 5 | Nun | = | 50 | Sə | = | 500 |
| Vav | = | 6 | Sin | = | 60 | Xə | = | 600 |
| Zeyn | = | 7 | Ayn | = | 70 | Zəl | = | 700 |
| Ha | = | 8 | Fə | = | 80 | Dal | = | 800 |
| Ta | = | 9 | Sad | = | 90 | Za | = | 900 |
| | | | | | | Ğayn | = | 1000 |

**Ərəb hərflərinin rəqəmlərlə ifadəsi**

Bəzi fırıldaqşılar “Əbcəd” hesabından və Qurandan xəbəri olmayan insanları aldadıb pul almaq məqsədi ilə “Quranla taleyə baxan” kimi özlərini qələmə verirlər. Bu fırıldaqçılar adlardakı hərfləri “Əbcəd” hesabı ilə hesablayıb fal açırlar. Çalışmaq lazımdır ki, belə fırıldaqçılar insanları aldadıb pullarını yeyə bilməsinlər. Fala baxmağı həm Tanrımız, həm də dövlətimiz qanunla qadağan etmişdir:-Ey iman gətirənlər!...fal oxları şeytan əməlindən olan mundar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız! (5/90)

## 3.11. Bəşəri dinlər

Adından göründüyü kimi **bəşəri dinlər bəşəriyyətə məxsusdur**. “**Bəşər**” sözü insana aid edilir:-...Allah Adəmi torpaqdan yaratdı. Sonra ona “**Bəşər ol!**” dedi, o da oldu (3/59). Yer kürəsində yaşayan bütün insanlar Adəmlə Həvvanın nəslindən törəndiyindən “bəşəriyyər” sözü dünyanın bütün əhalisinə şamil edilir. Bəşəri dinlər elə dinlərə deyilir ki, o bəşəriyyət tərəfindən yaradılmışdır və Allah kəlamı deyildir. Həqiqi əsası olmayan, reallıqdan uzaq olan, lakin Allahından dönən adamların ardınca gedən əhali arasında yayılmışdır. Bu dinlərə misal olaraq **buddizm, sintoizm, hinduizm, konfiçizm, şamanlıq** və s. kimi bəşəri dinləri misal göstərmək olar. Bu dinlər onu yaradan rəhbərlərin maddi, siyasi və iqtisadi amalına xidmət etmək üçün yaradılmışdır. Bəşəri dinləri yaradanlar öz mənafelərinə xidmət etmək üçün özlərindən din düşünərək onu yaratmış və zəif imana malik insanlar arasında güclü şəkildə təbliğ etməyə başlamışdılar. Dindən xəbəri olmayan və nadanlığı ucbatından onların ardınca gedən insanları inandıra bilmişdilər. Bəzi insanların maddi vəziyyətinin aşağı olduğunu bilərək onlara müəyyən miqdarda pul, yemək verməklə də öz tərəflərinə çəkirlər. Bəşəri dinləri nadanlığı və ya maddi vəziyyəti ucbatından qəbul edən insanları Allah bağışlamır. Belə insanlar həm ikiüzlü və Allaha şərik qoşan insanlar kimi qəbul olunur. Allah nə ikiüzlü insanları, nə də Ona şərik qoşanları sevmir və onları bağışlamır. Allaha şərik qoşanları ən ağır cəza ilə-Cəhənnəm odu ilə qorxudur. İbrahim Pey-

ğəmbərin dövründə insanlar daşdan heykəllər-bütlər düzəldərək öz əlləri ilə yaratdıqlarını tanrı qəbul edərək ona-daşa səcdə etmişdilər. Məhəmməd Peyğəmbərin dövründə də Kəbədə 360 büt var idi və ərəblər onları tanrı qəbul etmişdilər. Hər tayfa öz bütünə-tanrısına sitayiş edirdi.

"İbrahim bütləri parça-parça edib yalnız aralarındakı böyük bütü saxladı".(21/58) Müşriklər İbrahimi tapıb gətirərək:-Ya İbrahim! Tanrılarımızı sənmi bu günə saldın?–deyə, soruşdular.(21/62) İbrahim sındırmadığı iri bütü göstərib dedi:-Bəlkə onların bu böyüyü bunu etmişdir. Əgər danışa bilirlərsə, özlərindən soruşun!(21/63) Siz doğrudan da zalimlərdənsiniz, dilsiz, ağızsız, heç özlərini belə qorumağa qadir olmayan bütlərə tapınmaqla özünüz-özünüzə zülm edirsiniz...(21/64). Bu ayələrdən aydın olur ki, insanların əli ilə düzəldilən, özünü qorumağa qüdrəti çatmayan bütləri tanrı qəbul edib, ona səcdə edənlər özlərinə zülm etmiş insanlardandır və Qiyamət günü onlara Allaha şərik qoşduqlarına görə aman verilməyəcək və Cəhənnəm oduna düçar olunacaqlar. Əgər bütlər özlərini qorumağa qadir deyillərsə, onda, ona sitayiş edən insanların arzu-diləklərinin həyata keçirilməsinə, əzab-əziyyətlərdən qurtulmasına, xəstəliklərdən şəfa tapmasına necə yardım edəcəkdir? Allah yaratdığı insanlara ağıl vermişdir. İnsanlar da öz dini baxışlarında seçimi ağlı ilə etməlidir:-Xatırla ki, bir zaman İbrahim belə demişdir:-Ey Rəbbim! Bu diyarı (Məkkəni) əmin-amanlıq yurdu et! Məni və oğullarımı bütlərə tapınmaqdan uzaq et! (14/35). Bütün bəşəri dinlər bəşər övladına-insanlara məxsusdur.

## 3.12. Dinin əhəmiyyəti

Din insanları doğru yola yönəldən bir vasitə olduğundan cəmiyyətin maddi-mənəvi dəyərlərinin formalaşmasında olduqca böyük əhəmiyyət kəsb edir. Cəmiyyətin dinsizləşməsi xalqı fəlakətə gətirib çıxardır. Dinin əhəmiyyətini aşağıdakı kimi ümumiləşdirmək olar:-**1.** İnsanlara bütün canlıların yeganə bir Tanrısı olduğu inamını aşılayır. Bununla da bütün insanları eyni bir amal ətrafında cəmləşdirir-İnsanları Allahın doğru yoluna yönəldir!

**2.** Yaxşı əməll sahiblərinin Cənnətlə mükafatlandırılacağı ilə müjdələyir! Pis əməl sahiblərinin cəzası olaraq Cəhənnəm odunda yandırılacağı ilə qorxudur!

**3.** Cəmiyyəti tərbiyələndirir və insanlara özünütərbiyə bacarığı aşılayır. Həyatın gerçəkliklərini anlamağa, baş verənlərin səbəblərini dərk etməyə və düzgün nəticə çıxarmağa kömək edir.

**4.** Kainatın yaranması, idarə olunması və varlığının mahiyyətini anlamağa inkan verən elmdir.

**5.** İnsanların davranışlarını tənzimləyən əxlaq kodeksidir.

**6.** İnsanların hər cürə şəraitdə daima yüksək əhval-ruhiyyədə olmalarını, problemlərə qarşı mübarız olmağı və gələcəyə daima ümidlə baxmağı aşılayır.

**7.** Gənc nəslin tərbiyə olunmasında ən əhəmiyyətli vasitədir.

**8.** Demokratik, ədalətli, elmli və daima müasirləşən bir cəmiyyətin yaradılmasına xidmət edən əlverişli üsuldur.

## IV FƏSİL. İBADƏT

**İbadət etmək**-boyun əymək-deməkdir. İbadət Allaha sidq ürəklə inanaraq, Ona təzim məqsədi ilə həyata keçirilən əməllərin məcmuyidur. Quranda ibadət etməyin vacibliyi göstərilmişdir. Bu Allahın hökmüdür. İbadətdən əvvəl **dəs-təmaz** almaq əsas şərtdir. Çünki:-....Allah...təmiz və pak olanları sevər! (2/222) **Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım!** (51/56)-deyilir.



**İbadətin növləri**

-Ey iman gətirənlər! Rükü edin, səcdəyə qapanın, Allaha ibadət edin və yaxşı işlər görün ki, bəlkə nicat tapasınız! (22/77)...Allahdan başqa heç kəsə ibadət etməyin!(72/18) Adəm oğulları! Hər ibadət vaxtı (namaz qılarkən, məscidə gedərkən və ya təvaf edərkən) gözəl libasınızı geyin, yeyin-

için, lakin israf etməyin, çünki, Allah israf edənləri sevməz! (7/31)...De ki, Allahın hidayəti (islam dini) doğru yoldur. Bizə aləmlərin Rəbbinə təslim olmaq əmr edilmişdir...(5/71) Mən, həqiqətən, Allaham! Məndən başqa heç bir tanrı yoxdur! Mənə ibadət et...(20/14) Allah bir adamın köksündə iki ürək yaratmamışdır. Eləcə də iki Allah ola bilməz!(33/4) Biz əmanəti-Allaha itaəti və ibadəti, şəri hökmləri yerinə yetirməyi göylərə, yerə və dağlara təklif etdik. Onlar onu götürməkdən qorxub çəkindilər. Çox zalım olan insan isə onu götürdü. İnsan bu ağır əmanəti götürməklə özünə zülm etdi və cahilliyi üzündən onun çətinliyini, ağır nəticəsini bilmədi.(33/72)

Ayələrdən görünür ki, Allaha ibadət etmək olduqca vacib əməldir. İbadət Allahın doğru yoluna yönələn hər kəs üçün Rəbbinə olan sevgisini, itaətini göstərir. İbadət ümumi məvhum olub özündə bir sıra əməlləri birləşdirir. Bu əməllər aşağıdakılardan ibarətdir:

## 4.1. Kəlimeyi-şəhadət

**Kəlimeyi-şəhadət**–**şəhadət kəlməsi**–deməkdir. Yəni insan ilkin olaraq Allahın tək Tanrı olduğunu şüurlü surətdə dərk edərək qəbul etməlidir-Laila-həilləllah!–**Allah təkdir**. Alla-hın tək Tanrı olduğunu dərk edərək qəbul edən hər kəs yal-nız Ona sığınar, yalnız Ondan nicat umar, yalnız Ona dua edər və yalnız Ondan qorxar. Müqəddəs Qurani Kərimdə uca Tanrımız buyurur:-Səhər-axşam yalvararaq, qorxaraq, səsini qaldırmadan ürəyində Rəbbini yad et və

qafilərdən olma!(7/205) Əgər yerdə və göydə Allahdan başqa tanrılar olsa idi, onların ikisi də (müvazinətdən çıxıb) pozulardı. Ərşin sahibi olan Allah müşriklərin (Ona) aid etdikləri sifətlərdən tamamilə uzaqdır.(21/22) (Ya Məhəmməd! Bəndələrinə de ki: (Lailahəilləllah! kimi) gözəl sözlər söyləsinlər!(17/53)

Kəlimeyi-şəhadətin yatmazdan əvvəl oxunması böyük əhəmiyyətə malikdir. Yəni insan işlərini qurtarıb Allahı ilə təkbətək qaldığı zamanda kəlimeyi-şəhadəti dilə gətirməklə Allahın tək Tanrı olduğunu yadına salır. Fikri, diqqəti şüurlu şəkildə Rəbbinə yönəlmiş olur və yatmazdan əvvəl Rəbbinə sığınır. Çünki:-Allah...ölməyənlərin (hələ əcəli çatmayanların) canlarını isə yuxuda alar (çünki, yuxu zamanı ruhun bədənlə əlaqəsi kəsilər). Ölümünə hökm olunmuş kimsələrin canlarını (ruhlar aləmində) saxlayar (onların ruhu bir daha bədənlərinə qayıtmaz və bədən ölüb gedər). Digər (ölümünə hökm olunmamış) kimsələrin canlarını isə müəyyən bir müddətədək (əcəlləri gəlib çatana qədər yuxudan oyandıqda bədənlərinə) qaytarar...(39/42).

Ayədən aydın olur ki, yuxu zamanı insan ölür və oyananda dirilir. Bu Allahın bir möcüzəsidir. İnsan ölməzdən əvvəl Rəbbinə iman gətirib Ona sığınsa, nicat tapar. Bu səbəbdən də, yatmazdan əvvəl kəlimeyi-şəhadəti oxumaq və Allaha sığınmaq cox vacib bir ibadətdir.

## 4.2. Peyğəmbərə inanmaq

Allahın elçisi olan Peyğəmbərə inanmaq və onun göstərdiyi yolla getmək ibadətin növlərindən biridir! Kitabın

əvvəlində Peyğəmbərlər haqqında kifayət qədər məlumat verilmişdir. Allahın insanlar arasından seçib hikmət verdiyi Peyğəmbərlərə hörmətlə yanaşmaq, onların dediklərinə əməl etmək və onların ardınca haqqın yolunu tutub getmək ikinci əsas şərtdir.

...Səni, ya Məhəmməd ən böyük şərəfə nail edib bütün bəşəriyyətə peyğəmbər göndərdik.(25/52)...Allaha və Onun Peyğəmbərinə itaət edin!...(58/13) Peyğəmbərə itaət edən şəxs, şübhəsiz ki, Allaha itaət etmiş olur. Kim üz döndərsə (qoy döndərsin) ..(4/80) Allahı və peyğəmbərlərini inkar edənlər, Allahı peyğəmbərlərindən ayırmaq istəyənlər:-Biz peyğəmbərlərin bəzisinə inanır, bəzilərinə isə inanmırıq- deyənlər və bunun (iman ilə küfrün) arasında bir yol tapmaq istəyənlər...Bütün bunlar, həqiqətən, kafirdirlər. Biz kafirlərdən ötəri rüsvayçı əzab hazırlamışıq...lakin Allaha və peyğəmbərlərinə iman gətirərək və onların heç birini digərindən ayırmayan şəxslərə Allah Öz mükafatlarını verəcəkdir. Şübhəsiz ki, Allah bağışlayan və rəhm edəndir. (4/150,151,152) Ey insanlar! Peyğəmbər Rəbbinizdən sizə haqla (Quranla) gəldi. (Ona) iman gətirin! Bu sizin üçün xeyirli olar...(4/170)

Ayələrdən aydın olur ki, ibadətin bir növü Allahın insanlar arasından seçdiyi peyğəmbərləridir. İnsanlar onların hər birini hörmətlə yad etməli və onları bir-birindən ayırmamalıdırlar.

## 4.3. Quran oxumaq

Quran Allah tərəfindən insanlara nazil edilmiş qanunların məcmiyidir. Bu qanunları öyrənmək və Rəbbinin hökmlərinə əməl etmək, haqqın yolu ilə getmək vacibdir:-Bu Allah tərəfindən nazil edilməsinə, haqdan gəlməsinə heç bir şəkk-şübhə olmayan və müttəqilərə Allahdan qorxanlara, pis əməllərdən çəkinənlərə doğru yol göstərən kitabdır!(2/2) Bu qorxutmaq və öyüd-nəsihət vermək üçün sənə nazil edilən kitabdır.(7/2)...Quran oxumaq istədiyin zaman məlun Şeytandan Allaha sığın! Əuzu billahi minəş-şeytanirracim! (Şeytandan qaçıb Allaha sığınıram)–sözlərini de!(16/98) Quran oxunan zaman onu dinləyin və susun ki, bəlkə (onun sayəsində) rəhm olunasınız!(7/204)



**Quran oxuyun!**

Quranı oxumaqla kifayətlənmək olmaz, Qurandakı hökmlərə əməl etmək lazımdır. Əgər Quranı oxuyub göstərilənlərə əməl edilməsə bu insanların onu Yaradanı tərəfindən daha ağır cəza almasına səbəb olar. Çünki, Allahın hökmlərini bilmədən pozduqda insan günah qazanırsa, hökmləri bilə-bilə pozmaq daha ağır günah sayılır. Quranda deyilir:

-Hər kəs öz günahının cəzasını alacaqdır.(29/40) Kim Rəbbinin hüzuruna günahkar kimi gələrsə, onu Cəhənnəm əzabı gözləyir. O Cəhənnəmdə nə ölər, nə də yaşayar. (20/74)

## 4.4. Namaz qılmaq

“**Namaz**” ərəb dilində “**səlat**” sözündən olub mənası “**dua**” deməkdir. İlk insan yaradıldığı gündən namaz qılıb, Allahın hüzurunda səcdəyə qapanaraq Ona dua etməsi vacib edilmişdir. Namaz Adəm Peyğəmbərin zamanımdan qılınması vacib buyurulan və Allaha olunan ibadət növüdür. Zaman keçdikcə insanlar unutmuş və sonra hər yeni Peyğəmbər seçildikdə namazın qılınmasını təbliğ etməyə başlamışdılar:

-Şübhəsiz ki, möminlərə müəyyən edilmiş vaxtlarda namaz qılmaq vacib bilinmişdir.(4/103) Sənə kitabdan (Qurandan) vəhy olunanı oxu və namaz qıl! Şübhəsiz, namaz hər cür çirkinliklərdən və bəyənilməz işlərdən uzaqlaşdırır.(29/45) Ya Məhəmməd! Biz sənə hər namazda oxunub təkrarlanan 7 ayəni (Əl-Fatihə surəsini) və böyük, əzəmətli Quranı verdik!(15/87) Günortadan gecənin qaranlığınadək namaz qıl! Sübh namazını da qıl! Çünki, sübh namazı (gecə və gündüz mələkləri tərəfindən) müşahidə olunur!(17/78) ...Namaz qılarkən səsini nə çox qaldır, nə də çox alçalt. Bunun arasında orta bir yol tut!(17/110) Əhlinə namaz qılmağı əmr et, özün də, ona (namaza) səbrlə davam et!...(20/132) Ya Məhəmməd!...Günəş döğmamışdan və batmamışdan əvvəl....gecənin bir vədəsində və günorta radələrində də Rəbbini öyüb təqdis et!...(Allah


**Namaz qılın!**

səni böyük savaba, yüksək dərəcələrə...nail etməsindən) razı olasan!(20/130) O kəslər ki, namaz qılar...Nicat tapanlar da onlardır!(31/4.5) Ey iman gətirənlər! Cümə günü namaza çağrıldığınız zaman Allahı zikr etməyə tələsin və alış-verişi buraxın! Biləsiniz ki, sizin üçün nə qədər xeyirlidir!(62/9) Namazı gündüzün iki başında və gecənin bəzi saatlarında qıl! Həqiqətən, beş vaxt namaz kimi yaxşı əməllər pis işləri–kiçik günahları yuyub aparır. Bu Allahın mükafatını və cəzasını yada salanlara öyüd-nəsihət və xatırlatmadır! (11/114) Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlamayana qədər və murdar olduğunuz zaman qüsul edənədək namaza yaxınlaşmayın! Yoldan ötən müsafirlər isə müstəsnadır. Xəstələndikdə və ya səfərdə olduqda, sizlərdən biriniz ayaq yolundan gəldikdə, yaxud qadınlara toxunmuş (yaxınlıq etdikdə) olduqda su tapmadığınız zaman (qüsul və dəstəmaz üçün) pak bir torpaqla təyəmmüm edin, (ovuclarınızı) üzünüzə və əllərinizə sürtün! Şübhəsiz ki, Allah əfv edən və bağışlayandır. (4/43)

(Ya Məhəmməd!) Sən (əsgərlərin) içərisində olub onlara namaz qıldırdığın zaman onlardan bir dəstə silahlarını götürüb səninlə birgə namaza dursun. Bunlar (bir rikət namazı tamamlayıb) səcdə edən kimi sizin arxanıza (düşmənin önünə) keçsinlər. Sonra namaz qılmayan dəstə öz ehtiyat vasitələrini və silahlarını götürərək gəlib sizinlə birlikdə namaz qılsın! Kafirlər istərdilər ki, sizin silahlarınızdan və mallarınızdan heç bir xəbəriniz olmayaydı və onlar da sizin üzərinizə birdəfəlik (qəfil hücümla) basqın edəydilər. Yağışdan əziyyət çəkdiyiniz, yaxud xəstə olduğu-

nuz zaman silahlarınızı (namaz vaxtı) yerə qoymaq sizə günah deyildir, lakin eytiyatınızı gözləyin! Şübhəsiz ki, Allah kafirlər üçün rüsvayedici əzab hazırlamışdır.(4/102) Ey iman gətirənlər! Namaza durduğunuz zaman üzünüzü və əllərinizi dirsəkləriniz də daxil olmaqla yuyun, (yaş əlinizi) başınıza məsh edin (çəkin), ayaqlarınızı topuqlarınıza qədər məsh edin (və ya yuyun). Əgər cinsi əlaqədə olmusunuzsa, qüsl edin (bədəninizi yuyun). Allah sizi çətinliyə salmaq istəməz, lakin O sizi pak, təmiz etmək və sizə olan nemətini tamamlamaq istər ki, bəlkə, şükr edəsiniz!(5/6) İman gətirən bəndələrimə de ki:-namaz qılsınlar!...(14/31) Həmçinin, namaz qılın, Allahdan qorxun, hüzurunuza toplanaca-ğınız məhz Odur!(6/72) Həqiqətən, Biz sənə kövsər bəxş etdik. Ona görə də (bu nemətlərə şükr edərək) Rəbbin üçün namaz qıl və qurban kəs!(108/1,2)...Məni anmaq üçün namaz qıl!(20/14)...Namazı ayaq üstə qıla bilməyən oturub qıla bilər...(23/62) Səfərə çıxdığınız zaman kafirlərin sizə zərər yetirəcəklərindən qorxarsınızsa, namazı qısaltmaq (dörd rikət namazı iki rikət qılmaq) sizə günah gəlməz... (4/101)

Namazda iki surə-“Əl-Fatihə” və “Əl-İxlas” surələri təkrarlanır:-**“Əl-Fatihə”** (“Kitabı açan”) surəsi 7 ayədən ibarətdir.

1. Rəhimli, mərhəmətli Allahın adı ilə!

2. Həmd (şükr və tərif) olsun Allaha–aləmlərin Rəbbinə,

3. (Bu dünyada hamıya) rəhimli, (axirətdə isə ancaq möminlərə) mərhəmətli olana,

4. Haqq-hesab (qiyamət) gününün sahibinə!

5. Biz yalnız sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik!

6. Bizi doğru yola yönəlt!

7. Nemət verdiyin kəslərin yoluna! Qəzəbə düçar olanların və (haqdan) azanların yoluna yox!

**“Əl-İxlas”** (Yalnız Allaha məxsus olan sifətlər) surəsi 4 ayədən ibarətdir.

**1.** (Ya Peyğəmbər! De ki:-(Mənim Rəbbim olan) O Allah birdir (şəriki yoxdur)!

**2.** Allah (heç kəsə, heç nəyə) möhtac deyildir! (Hamı Ona möhtacdır. O əzəli və əbədidir!)

**3.** O, nə doğmuş, nə də doğulmuşdur! (Allah Özünə heç bir övlad götürməmişdir!)

**4.** Onun heç bir tayı-bərabəri, bəmzəri də yox-dur!

Həzrəti Peyğəmbər merac zamanı gündə 5 vaxt namaz qıl-maq hökmünü almışdır. Namaz qılmağı Həzrəti Peyğəm-bərimiz:-mömininin meracı, gözümün nuru-adlandırırdı. Qura-nın 28 ayəsində namaz qılmağın vacibliyi və əhəmiyyəti göstərilmişdir.

Namazın növləri vardır:**-şəxsi namaz** (hər kəsin özü üçün qıldığı namaz), **cümə namazı** (cümə günləri insanların birgə namazı), **niyyət namazı** (niyyət edərək namaz qıl-maq), **bayram namazı** (ramazan və qurban bayramlarında qılınan namaz) və gecə namazı–**təhəccüd namazı** (Peyğəm-bərlərə məxsus qılınan namaz), **cənazə namazı** (ölən çəxslər üçün qılınan namaz).

Cənazə namazının digər namazlardan fərqli xüsusiy-yətləri vardır. Cənazə namazı rüküsüz və səcdəsiz, ayaq üstə

dayanaraq qılınır. Eyni zamanda Qurani Kərimdən ayələr oxunmur, yalnız dualar oxunur. Namaz vaxtı kişilər öndə imamla yanaşı dayanırlar, qadınlar (pak vəziyyətdə olanlar) kişilərdən arxada, uşaqlar isə qadınlardan arxada ayaq üstə dayanırlar.

Hər gün insanlar üçün vacib olan 5 vaxt qılınan namaz bunlardır:

**Sübh** namazı, z**öhr** namazı **(**günorta namazı), **əsr** namazı, **şam** namazı və **xiftən** (gecə) namazı.

Namaz qılmamışdan öncə **dəstəmaz almaq** və ya su olmayan yerdə torpaqla **təhəyyüm etmək** olduqca vacibdir. Bəs nə üçün insan namaz qılmalıdır? Namazın əhəmiyyəti və özəlliyi nədən ibarətdir?

**1.** Namaz qılmaq insanı Yaradan və ona ruzi bəxş edən, insanın yaşamasına xidmət edən bu kainatı xəlq edən Allaha yaxınlaşmaqdır.

**2.** İnsan öz qürurlu başını Tanrının önündə əyir. O vaxta qədər ki, alnı, əlləri dirsəklərinə qədər və ayaqları dizləri də daxil olmaqla torpağa toxunur. Səcdə edərkən insan Tanrının hüzürunda olduğunu bütün varlığı ilə duyur. Nə qədər kiçik olduğunu anlayır. Bir daha torpaqdan yarandığını, öləndən sonra yenidən torpağa dönəcəyini, qiyaqmət günü yenidən torpaqdan yaradılacağını dərk edir.

## 4.5. Zəkat vermək

"**Zəkat"** sözünün mənası ərəbcə:**-təmizlənmək**, **artıb ço-xalmaq-**deməkdir. Zəkat mənəvi və maddi ibadətdir. Həzrə-

ti Peyğəmbər merac vaxtı da zəkat verməyin vacibliyi barəsində Tanrıdan hökm almışdır:

-(Ya Məhəmməd!) Onların mallarından sədəqə (zəkat) al! Bununla onları (günahlardan) təmizləmiş, pak etmiş (mallarına bərəkət vermiş, əməllərinin savabını artırmış) olarsan....(9/103)...(lazımınca)...zəkat verin və Allaha sığının!(22/78) Namaz qılın, zəkat verin və Peyğəmbərə itaət edin ki, bəlkə sizə rəhm olunsun! (24/56) O kəslər ki,..zəkat verər və axirətə tam yəqinliklə inanarlar...nicat tapanlar da onlardır!(31/4,5)...Allah tövbənizi qəbul buyurdu...zəkat verin...Allaha və Onun peyğəmbərinə itaət edin!...(58/13) ...zəkat verən şəxslərin Rəbbi yanında mükafatları vardır...(2/277) Allah İsrail oğullarından əhd almışdı...əgər zəkat versəniz...Allaha gözəl bir borc versəniz...günahlarınızın üstünü örtər və sizi (ağacları) altından çaylar axan Cənnətə daxil edərik...(5/12)**...siz mal-dövlətinizin yalnız qırxdan birini (1/40) Allah yolunda sərf etməyə çağırılan kimsələrsiniz...**(47/38) (Ya Məhəmməd!) Qızıl-gümüş yığıb onu Allah yolunda xərcləməyənləri şiddətli bir əzabla müjdələ! O gün (Qiyamət günü) yığdıqları qızıl-gümüş Cəhənnəm atəşində qızdırılıb alınlarına, böyürlərinə və kürəklərinə dağ basılacaqdır:-Bu sizin özünüz üçün yığıb saxladığınız mallardır. Yığdığınızın (əzabın acısını) dadın!–deyiləcəkdir.(9/34,35)

Yuxarıda deyilənlərdən aydın olur ki, zəkat vermək Allaha borc vermək deməkdir. Allah da insana borclu qalmaz və onun əvəzində zəkat verərək yoxsulları doyuran insanlara Cənnətlərini məskən edər. Zəkat vermək kimi gö-

zəl əməlləri yalnız orucluq zamanı, pamazan ayında deyil, il boyu icra etməyə çalışmaq lazımdır. Zəkan vermək uşaqlara, şagirdlərə, tələbələrə və müavinət alan qocalara aid deyildir. Çünki, onların qazancı yoxdu. Valideynlər və ya dövlət tərəfindən verilən pullar onların yaşamasını təmin etmək üçün verilmiş yardımdır. Yardımdan zəkat vermək olmaz! Zəkar qazanılan maldan və ya puldan verilməlidir.

### 4.6. Həcc ziyarəti

"**Həcc mərasimi**" müsəlman təqviminin son ayının–zilhiccə (dekabr) ayının müəyyən günlərində müqəddəs yeri–Məkkəni və müqəddəs evi-Kəbəni ziyarət etməkdir. Həccə getmək üçün istifadə olunan maddi vəsait (pul) insanın qazandığı halal maldan olmalıdır. Həcc xərci halal pul olmasa, o şəxsin günahlardan təmizlənməsini düşünmək yəqin ki, doğru olmaz. İnsanlar həccə gedib geri qayıtdıqdan sonra mənən təmizlənməli, pis əməllərdən tamamilə uzaq olmalıdır. Əgər həccə gedən şəxs geri dönəndən sonra əvvəlki pis əməllərini təkrar edirsə, onun ziyarəti qəbul olunmaz və o kafirlərdən olar.

Qeyd edildiyi kimi Həcc ziyarəti müqəddəs evi–Kəbəni ziyarət etmək deməkdir və insanların Tanrısı qarşısında yerinə yetirdiyi borclarından biridir. Əvvəldə göstərildiyi kimi Kəbə ilk dəfə Adəm Peyğəmbər tərəfindən tikilmişdir və ilk insanların Allaha ibadət etmələri məqsədi ilə inşa edilmişdir. Sonralar İbrahim Peyğəmbər tərəfindən yenidən tikilmişdir. İslam dini Məkkədə bərqərar olduqdan



MŪQƏDDƏS KƏBƏ

sonra isəMəhəmməd Peyğəmbərin iştirakı ilə təmir olunmuş-dur:-İbrahim və İs-mail dedi:-Ey Rəb-bimiz, bizim hər ikimizi Sənə itaət-kar, nəslimizdən olanları Sənə təslim olan ümmət et, bizə həccin əməllərini və ibadət qaydalarını gös-tər, tövbəmizi qəbul et!(2/122) İnsanları həccə çağır ki, onlar sənin yanına piyada və hər uzaq yoldan yollanan hər cür miniklə gəl-sinlər.(22/27) Sonra həcc əməllərini (dırnaq kəsmək, tükləri təmizləmək) yerinə yetirsinlər, nəzir versinlər, qədim evi təvaf etsinlər.(22/29)

Həccə getmək-müqəddəs yeri-**qibləni** ziyarət etməklə yanaşı, möminlərin Allahın tək tanrı olması ideyası ətrafında sıx birləşməsi, dünyəvi məsələləri müzakirə etməsi və islami mədəniyyətə sahib olması deməkdir.

**Qiblə"** ərəb sözü olub "**müqəddəs yer**" deməkdir. Yu-xarıda qeyd edildiyi kimi islam dini nazil olana qədər yer üzündəki bütün insanların qibləsi-üz çevirdiyi müqəddəs ye-ri Qüts şəhərindəki **Əl-Aksa** məscidi idi. İkinci bir adı **Bey-tulmüqəddəsdir**. Tanrıya ibadət edən hər kəs harada ol-mağından asılı olmayaraq üzünü Əl-Aksaya çevirirdilər. Mədinədə Məscidi Şərifi tikərkən də qapısını Əl-Aksaya tə-rəf qoymuşdular ki, namaz vaxtı üzləri məscidə-müqəddəs

yerə tərəf çevrilmiş olsun.

Bu Allahın hökmlərindən biri idi. Həzrəti Peyğəmbər Mədinədə olarkən qiblənin Kəbəyə çevrilməsi ayələri nazil olmuşdu:-(Ya Məhəmməd!) Biz sənin üzünün göyə tərəf çevrildiyini görürük, ona görə də səni razı olduğun qibləyə tərəf döndərəcəyik. İndi üzünü Məscidiharama tərəf çevir! (Ey müsəlmanlar!) Harada olsanız (namaz vaxtı) üzünüzü oraya döndərin!(2/144)...Rəbbin tərəfindən göstərilən bu qiblə haqdır. Allah gördüyünüz işlərdən xəbərsiz deyildir!(2/149). İnsanlar üçün ilk bina olunan ev (məbəd) Məkkədəki evdir ki, o şübhəsiz, bütün aləmlərdən ötrü bərəkət və doğru yol qaynağıdır.(3/96) Ağılsız adamlar deyəcəklər:-Müsəlmanları üz tutduqları qiblədən (Beytulmüqəddəsdən) dondərən nədir? Onlara cavabında de:-Şərq də, qərb də Allahındır. O, istədiyi şəxsi doğru yola yönəldər.(2/142) İndi yönəldiyiniz qibləni (Kəbəni) yalnız sənə tabe olanlarla səndən üz çevirənləri bir-birindən ayırmaq üçün (qiblə) təyin etdik. Bu (qibləni Beytul-müqəddəsdən Kəbəyə tərəf çevirmək) ağır görünsə də, ancaq Allahın doğru yola yönəltdiyi şəxslər üçün ağır deyildir...(2/143) Hər kəsin üz tutduğu bir qibləsi vardır.(2/148) Hər hansı bir yerə getdikdə (namaz vaxtı) üzünüzü Məscidiharama tərəf çevirin. Çünki, Rəbbin tərəfindən göstərilən bu qiblə haqdır!(2/149) Haradan çıxsan üzünü Məscidiharama tərəf çevir! Harada olsanız üzünüzü o tərəfə döndərin ki, özlərinə zülm edənlərdən başqa sizə irad tutmasınlar. Siz onlardan deyil, Məndən qorxun ki, Mən də sizə olan nemətimi tamamlayım. Bəlkə də siz haqq yolu tapasınız!(2/250). Beləliklə, hicrətin 2-ci ili, 623-cü qiblə-

yer üzündəki müqəddəs yer Kəbə oldu.

Kəbə ilk dəfə Adəm Peyğəmbər tərəfindən tikilmişdir. ("Kəbə" sözünün mənası "kub" deməkdir. Kub formasında tikildiyindən adını formasından almışdır.) Sonralar İbrahim Peyğəmbər (zövcəsi Həcər və oğlu İsmaillə birgə) tərəfindən təmir olunmuşdur və ibadətgaha çevrilmişdir. Qiblə olduqdan sonra Məhəmməd Peyğəmbər tərəfindən bütlərdən təmizləndi və ibadətgaha çevrilmişdi. Hal-hazırda Kəbə Məkkə şəhərində yerləşir və islam dünyasının müqəddəs saydığı və üz çevirdiyi qibləsidir.

Kəbə, təxminən dördbucaqlı şəklindədir. Sərt mavi daşdan inşa edilmişdir. Yüksəkliyi on altı metrdir. Cəbrailin Cənnətdən gətirdiyi cənnət yaqutu (sonradan bu daşın nurunu Allah göyə çəkdi və o qaraldı)–qara daş Kəbədədir.

Hər bir insan çalışmalıdır ki, ömründə bir dəfə də olsa müqəddəs yeri–Kəbəni ziyarət etsin! Tanrı hər bir möminə bu ziyarəti qismət etsin! Amin!

## 4.7. Oruc tutmaq

Oruc tutmaq Allaha ibadətin bir növüdür. Qədim sözdür. **"Oruc"** ərəb dilində:-**səum-saxlamaq**-mənasını verir. Yəni insanlar oruc tutmaqla pis əməllərdən və yeyib-içməkdən özünü saxlayır. Bununla nəfsinə qalib gəlir. Bu barədə müqəddəs Qurani Kərimdə Tanrımız buyurur:-Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi, sizə də vacib edildi. Bəlkə, siz pis əməllərdən çəkinəsiniz! (Oruc tutmaq) sayı müəyyən (bir ay) olan günlərdir.

Sizdən xəstə və ya səfərdə olanlar tutmadığı günlər qədər başqa günlərdə oruc tutmalıdırlar. Oruc tutmağa taqəti olmayanlar isə (hər günün əvəzində) bir yoxsulu doyduracaq qədər fidyə verməlidir. Hər kəs könüllü xeyir iş görərsə, bu onun üçün daha yaxşı olar. Bilsəniz oruc tutmaq sizin üçün nə qədər xeyirlidir! İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və haqqı batildən ayıran Quran Ramazan ayında nazil edilmişdir. Ramazan ayına yetişən şəxslər bu ayı oruc tutmalıdırlar, xəstə və ya səfərdə olanlar tutmadığı günlərin sayı qədər başqa günlərdə tutsunlar. Allah sizin üçün ağırlıq deyil, yüngüllük istər ki, fövtə gedən orucun günlərini tamamlayasınız və sizi düz yola gönəltməsinə görə Ona (Allahu əkbər!) deməklə təzim, bəlkə də şükr edəsiniz. Oruc gecəsi qadınlarınıza yaxınlaşmaq sizə halal edildi. Onlar sizin, siz də onların libasısınız. Allah öz nəfsinizə xəyanət edəcəyinizi bilib tövbələrinizi qəbul edərək sizi bağışladı, artıq siz onlara (zövcələrinizə) yaxınlaşın. Allahın sizə halal etdiyini onlardan istəyin, sübh açılınca, ağ sap qara sapdan fərqlənincəyə qədər yeyin-için, sonra gecəyə qədər orucunuzu tamamlayın, məscidlərdə ibadətdə olduğunuz zaman qadınlarınızla yaxınlıq etməyin. Bunlar Allahın sərhədləridir, bunları aşmayın!(2/183,184,185,187)...Xəstəliyinə və zəifliyinə görə oruc tuta bilməyən orucunu yeyə bilər. (23/62)

Orucun tutulma vaxtı şaban ayının sonuncu günündən (Ayın bədirlənməsi günündən) yeni Ayın görünməsi ilə başlayır və Ramazanın sonuncu günü Ayın yenidən bədirlənməsi gününə qədər davam edir. Bu səbəbdən də şaban ayının

30-u **“şübhəli gün”** adını almışdır. Yeni ayın görünməsi-Ayın yenidən bədirlənməsi ilə orucluq başlayır və növbəti yeni Ayın görünməsi ilə tamamlanır. Orucluq başa çatdıq-dan sonra Ramazan bayramı qeyd edilir.

Oruc tutmaq könüllü olmalıdır. Valideynlər uşaqlarını, ər arvadını oruc tutmağa məcbur etməməlidir. Eyni zamanda azyaşlı uşaqlar böyüklərdən nümunə götürərək oruc tutursa, valideyn uşağına oruc tutmağı qadağan edə bilməz. Oruc tut-mağı və ya tutmamağı qadağan edən şəxs Allah qarşısında günah etmiş olur. Hər kəs yaşından asılı olamayaraq orucu könüllü tutmalıdır. Oruc tutanın orucunu açmağa məcbur edən kəs də günah qazanmış olur. Dində məcburiyyət olma-malıdır.

Oruc tutmaq üçün **niyyət etmək** vacibdir. Oruc tutan şəxs:-Sabah oruc tutacağam-deyərək, niyyət etməlidir. Niy-yət edən hər bir şəxs ilk olaraq Allahdan dözüm, səbr, iradə arzulamalıdır və nəfsinə qalib gəlməsi üçün Tanrısından yar-dım etməyi diləməlidir. Bundan sonra istədiyi kimi arzu, di-lək diləməklə könlündən keçən duanı oxuya bilər. Bütün ay üçün əvvəlcədən niyyət etmək olmaz. Niyyət etdikdə sözlə-rin hündürdən deyilməsi vacib deyil, ürəyindən keçirmək kifayətdir. Çünki, Qurani Kərimdə deyilir:- ...Allah ürəklər-də olanları biləndir. (3/154)

Oruc tutulan müddətdə su və qida qəbul etmək olmaz! Qidalandırıcı iynələr vurdurmaq və həbləri qəbul etmək olmaz! Orucu açan zaman əvvəlcə, bir az soyuq su içmək vacibdir. Su mədədəki şirəni yuyur və qida qəbulu zamanı fəsadlar olmur. Su içdikdən sonra dua oxumaq lazımdır:-

Şükür sənə, ya Rəbbim! Məni səbirlilərdən etdin. Nəfsimə qalib gəlməkdə mənə yardımçı oldun. Sənə min şükür! Bizə verdiyin nemətlərə şükürlər olsun!

Duadan sonra iftar süfrəsindəki nemətlərdən yeyin, lakin acgözlük edib həddi aşmayın:-...Allah həddi aşanları sevməz! (2/190)

Qəsdən orucu pozmaq günahdır. Lakin bilmədən orucu pozmaq günah deyildir, oruc tutmaqda davam edin! İki gün bilərəkdən iftar etmədən oruc tutmağı ("visal" etməyi) Həzrəti Peyğəmbərimiz qadağan etmişdir. Səfərdə olanlar və xəstələr oruc tutmaya bilərlər. Lakin əvəzində başqa günlərdə oruc tutmalıdırlar. Hamilə qadınlar və körpə uşağını südlə qidalandıran ana da oruc tutmaya bilər. Qadınlar heyz vaxtı oruc tutmamalıdırlar. Heyzdən təmizləndikdən sonra qüsul edib oruc tuta bilərlər. Orucun əhəmiyyəti olduqca böyükdür:

-İnsan nəfsinə qalib gəlir. Səbr və güclü iradə sahibinə çevrilir. Nəfsinə qalib gəlməyi bacaran insan isə ən qüdrətli insan hesab olunur.

-Varlı şəxslər aclığın nə olduğunun fərqinə varır. Varlı, kasıb fərqi aradan qalxır. Varlılar kasıblara qayğı ilə yanaşır.

-Həzm orqanları davamlı iş prosesindən azad olur və is tirahət edir. Orqanizmdə yığılıb qalmış və xəstəlik mənbəyi olan artıq qida işlənir.

Ramazan və Qurban bayramları günü oruc tutmaq olmaz! Ramazan ayının sonuncu günü **Ramazan bayramı** kimi qeyd olunur və şənliklər keçirilir. Azərbaycan müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-

ci il 27 oktyabr tarixli “Azərbaycan Respublikasının bayramları haqqında” Qanununa əsasən “Ramazan bayramı” ölkəmizdə dövlət səviyyəsində bayram edilməyə başlandı.

**Ramazan**-ərəb dilində-**yandıran**-deməkdir. Yəni insanlar oruc tutaraq nəfslərinə qalib gəldikləri, namaz qılıb, zəkat verdikləri üçün Allah da onların günahlarını yandırar və insanı saflığa çıxardar. Ramazan ayı “**ayların şahı”** adlanır və ən sevimli aydır. Çünki, Allahın kəlamları məhz ramazan ayında insanlara nazil edilmişdir. Ramazan ayının **ilk gecəsi** İbrahim Peyğəmbərə səhi-fələr, **6 günü** keçəndən sonra Musa Peyğəmbərə **Tövrat**, **12 gün** keçəndən sonra Davud Peyğəmbərə **Zəbur**, **13 günü** keçəndən sonra İsa Peyğəmbərə **İncil** və **24 gün** keçəndən sonra Məhəmməd Peyğəmbərə **Quran** nazil olmuşdur:-Haqq gəldi (islam), batil (şirk və küfr) yox oldu, çünki batil yox olmalı idi.(17/81) Bu gün dininizi kamil etdim, sizə olan nemətimi tamamladım, sizin üçün din olaraq islamı bəyənib seçdim.(5/3) Oruc tutmaq cox geniş bir məvhumdur. Oruc yalnız qi-da qəbulu üçün nəzərdə tutulmayıb. Oruc tutmaq o deməkdir ki, insanlar hər şeyə oruc tuturlar. Yəni orucluğun-ramazan ayının ilk günündən başlayaraq növbəti ilin ramazan ayına qədər pis əməllərə, pis söz danışmağa, haram edilmiş hər şeyə, Allahın sərhədlərini pozmağa, hər şeydə həddi aşmağa, bir-birlərinə qarşı pis fikirlərə, Allaha şərik qoşmağa oruc tuturlar. (Xan qızı Natavanın Kəlbəcər rayonu üzrə səlahiy-yətli nümayəndəsi olmuş Məşədi Cəmili bir nadan söyməyə başlayır. Məşədi Cəmil çox ədəblə əlini ürəyinin üzərinə qoyub onu söyən şəxsə deyir:-Bağışlayın,

mən orucam.) Hər kəs oruc tutan bir nəfəri iftara qonaq edib onu doyuzdursa, ən böyük savab etmiş olar. Oruc tutan kəslərə hörmətlə yanaşmaq lazımdır! Əgər yoldaşlıq etdiyiniz bir nəfər sizi Allahın qadağalarını pozmağa təhrik etmək istəsə, siz də, o yoldaşınıza deyin ki:-Pis əməllərə oruc tutmuşam və mən orucumu poza bilmərəm, Allahımdan qorxuram! Bu sizin üçün daha xeyirlidir.

### 4.8. Dua etmək

**"Dua"** hər bir insanın Allahına sığınaraq Ona etdiyi müraciətidir. Dua insanların arzularını və yalvarışlarını ifadə edir:-(Ya Məhəmməd!) Bəndələrim Məni səndən soruşduqda söylə ki, Mən onlara yaxınam. Dua edib Məni çağıranın duasını qəbul edərəm. Gərək onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər. Bununla da ola bilsin ki, doğru yola yetişsinlər...Bilin ki, Allahın köməyi sizə yaxındır! (2/186,214) Biz Əyyubun duasını qəbul buyurduq, onu düçar olduğu bəladan, xəstəlikdən, ailəsinə üz vermiş müsibətdən qurtardıq...Biz Yunusun duasını qəbul buyurduq və balığın qarnından çıxartmaqla onu qəmdən qurtardıq...Biz Zəkəriyyanın duasını qəbul buyurduq, ona Yəhyanı bəxş etdik...(21/84,88,90) İbrahim müqəddəs torpağa yetişdikdə ua edib dedi:-Ey Rəbbim! Mənə salehlərdən olan bir övlad bəxş et!(37/100) Allah buyurdu:-Dilədiyin sənə verildi, ya Musa!(20/36)...Kafirlərin duası isə boş şeydir, heç vaxt qəbul olunmaz!(40/50).

Hər hansı bir iş dalınca gedərkən əgər insanlar işinin

düzələcəyinə sidq ürəklə inanaraq aşağıdakı duanı oxuyub gedərsə, onda həmin şəxsin işinin düzəlməsinə Allahı yardımçı olacaqdır:-De ki:-Ey Rəbbim! Məni çıxdığım yerdən xoşluqla çıxart! Məni da-xil etdiyin yerə xoşluqla daxil et! Öz dərgahından mənə kömək edə bilən bir dəlil ver! Mənə elə bir qüdrət ver ki, müşriklər və kafirlər həmişə onun qarşısında aciz qalsınlar!(17/80) “Əl-Fələq” və “Ən-Nas” surələri “nəzər duası” kimi qiy-mətləndirilir. Bu duanı hər gün oxumaqla özünüzü Şeytandan və pis insanlardan Allaha sığınmaqla qorumuş olursunuz.

**“Ən-Nas”** surəsində buyurulur:-De ki:-Pənah aparıram insanların Rəbbinə, İnsanların Tanrısına, Vəsvəsə verən, Allahın adı çəkiləndə qaçıb gizlənən Şeytanın şərindən, O Şeytan ki, insanların ürəklərinə vəsvəsə salır, O şeytan ki, cinlərdən də olur, insanlardan da!



**Təzə-Pir məscidi.**

**Əl-Fələq** surəsində isə deyilir:-Ya Pey-ğəmbər! De ki: -Pənah aparıram sühün Rəbbinə! Yaratdıqlarının-insanların cinlərin, vəhşi heyvanların şərindən, Zülmətə bürünməkdə olan gecənin, batan Ayın, ziyası sönən ulduzların şə-rindən, Ovsun oxuyub düyünlərə üfürən, cadu edib iplərə düyün vuran qadınların şərindən, Və bir də paxıllığı tutanda paxılın şərindən!

Əl-Bəqərə (“İnək”) surəsinin 255-ci ayəsi **Ayətul-kür-**

**sü** adlanır və inanca görə bu ayə müntəzəm oxunan evə Şeytan heç vaxt yaxın düşməz! Ayədə deyilir:-Allahdan başqa heç bir tanrı yoxdur! Əbədi və əzəli varlıq Odur! O nə mürgü, nə də yuxu bilər. Göylərdə və Yerdə nə varsa, hamısı Onundur! Allahın izni olmadan (qiyamətdə) Onun yanında kim şəfaət edə bilər? O, bütün yaranmışların keçmişini və gələcəyini bilir. Onlar Allahın elmindən Onun özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü (elmi, qüdrət və səltənəti) Göyləri və Yeri əhatə etmişdir. Bunları mühafizə etmək Onun üçün heç də çətin deyildir. Ən uca və ən böyük varlıq da Odur!

Dua etmək hər kəsin öz arzu və istəklərinə bağlıdır. Əsas odur ki, dua etdikdə bir olan Tanrıya sığınmaqdır. Hər kəs istədiyi kimi dua edə bilər. Məsələn, bir ana övladları üçün belə dua edir:-Ey kainatı yaradıb hökmü altına alan Allahım! Ey "Ol!" kəlməsi ilə istədiyi olan qüdrətli Allahım! Ey bizi yaradıb görmə, eşitmə, duyma qabiliyyəti verən Allahım! Ey bizə ağıl, dərrakə, düşüncə, səbr, iradə, dözüm verən Allahım! Ey ruzisi tükənməyən səxavətli Allahım! Səni and verirəm Öz Allahlığına, Səni and verirəm Öz birliyinə, Səni and verirəm Öz qüdrətinə balalarımı sevdiyin mömin bəndələrdən et! Şeytanı onlardan uzaq tut! Onlara doğru yol göstər! Ən doğru-düzgün yol göstərən Sənsən, ya Rəbbim! Ağlımızı, səbrimizi, biliyimizi, bacarığımızı artır, sağlamlığımızı bərpa et, gözlərimizi nurlandır, zehnimizi itiləşdir, yaddaşımızı möhkəmləndir, bizi eytiyacdan xilas et! Özündən başqa bizi heç kəsə möhtac etmə! Daima nəzərlərin üzərimizdə olsun! Bizi heç nə ilə imtahaha

çəkmə! Bizə doğru olan haqq yolunu göstər və bizləri Sənə ibadətdən yayındırma! Amin!

## 4.9. Qurban kəsmək

**“Qurban”** ərəb sözü olub **“yaxınlıq”** deməkdir, yəni Allaha yaxınlaşmaq mənasındadır. Zilhiccə (dekabr) ayının 10-da İslam dünyasının ən müqəddəs bayramlarından sayılan Qurban bayramı bütün müsəlman ölkələrində təntənə ilə qeyd olunur. Azərbaycan müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli “Azərbaycan Respublikasının bayramları haqqında” Qanununa əsasən **Qurban bayramı** ölkəmizdə də dövlət səviyyəsində bayram edilir. Qurban kəsmək Tanrının hökmüdür və ibadət növüdür. Qurban üç cürdür:

**1. Əhd qurbanı.** Hər bir insan Allahdan müəyyən dilək diləyir və əhd edir ki, əgər Allah qismət edərsə, diləyi hasilə yetəndə qurban kəsib ac qarınları doyuracaqdır. Diləyi yerinə yetən adam əhdini icra etməyə özünü borclu sayır və dediyi qurbanı kəsərək qonşulara, qohumlara və kasıblara paylayır. Adətən kəsilmiş qurbanın yarısı paylanır, digər yarısını isə qurban kəsən öz ailəsi ilə birlikdə yeyir. (Qurban payını həddi-buluğa çatmayan uşaqların paylaması daha yaxşıdır, çünki, onlar həyatı bir o qədər dərk edib qiymətləndirə bilmədiklərindən etdikləri günahları qeyri-iradi olur.)



**Qurbanlıq qoç.**

**2. Hökm edilmiş qurban.** Yəni insan daima Allahını yad edərək qurban kəsməyə sövq edilir. Qurban kəsmək Tanrının hökmüdür. Qurani Kərimdə:-...Rəbbin üçün namaz qıl və qurban kəs!–deyə, buyurulur.

**3. İsmayıl qurbanı.** "İsmayıl qurbanı"nın kəsilməsi İbrahim Peyğəmbərin dövründən vacib olmuşdur:-O yüyürüb-qaçmaq və atasına kömək edə bilmək çağına (13 yaşına) çatdıqda (İbrahim) dedi-Oğlum! Yuxuda gördüm ki, səni qurban kəsirəm. Bax gör (bu barədə) nə fikirləşirsən! O dedi:-Atacan! Sənə nə əmr olunursa onu da et! İnşallah, mənim səbrlilərdən olduğumu görəcəksən! Onların hər ikisi (Allahın əmrinə) təslim olduğu və (İbrahim İsmaili qurban kəsmək üçün) üzüstə yerə yıxdığı zaman...Biz ona belə xitam etdik:-Ya İbrahim!..Artıq sən röyanın düzgünlüyünü (Allah tərəfindən olduğunu) təsdiq etdin! Biz yaxşı iş görənləri belə mükafatlandırırıq...Şübhəsiz ki, bu açıq-aydın bir imtahan idi...Biz ona böyük bir qurbanlıq əvəz verdik. (37/102,103, 104,105,106,107) Həqiqətən, Biz sənə kövsər bəxş etdik. Ona görə də (bu nemətlərə şükr edərək) Rəbbin üçün namaz qıl və qurban kəs! (108/1,2)

Ayələrdən aydın olur ki, İbrahim Peyğəmbər 3 dəfə dalbadal yuxuda görür ki, Rəbbi ona oğlu İsmaili Allaha qurban kəsməyi əmr edir. İbrahim Peyğəmbər Allaha tabe olub oğluna onu Allaha qurban kəsəcəyi barədə xəbərdarlıq edir. İsmail Peyğəmbər də Allaha sevgi göstərərək razı olur və səbr nümayiş etdirir. İbrahim Peyğəmbər oğlunu qurban kəsmək istədikdə bıçağı kəsmir və o, dua edərək Allahdan kömək istəyir. Allah ona Cəbrail vasitəsi ilə bir **qoç** göndərir

və o qoçu oğlunun əvəzindən qurban kəsir. O vaxtdan qurban kəsmək adətə çevrilərək tarixdə **İsmail qurbanı** adı ilə qalmışdır. Gücü çatan hər kəs qurban kəsərək bir hissəsini ehsan edir, digər hissəsini ailə üzvləri ilə yeyirlər:-Biz qurbanlıq dəvələri də Allahın ayinlərindən etdik. Sizin üçün bu qurbanlıqdan dini və dünyəvi xeyir vardır....Ətindən özünüz də yeyin, yanınızda olub utandığından əl açmayan, lakin verilənə etiraz etməyənə və dilənçiyə də yedirdin... Onların nə əti, nə qanı əlbəttə Allaha çatmaz. Allaha çatacaq olan yalnız sizin təqvanızdır-səmimi qəlbdən etdiyiniz ibadətdir. (22/36, 37) Qurbanlıq kəsərkən aşağıdakı qaydalara əməl etmək çox vacibdir:

**1.** Qurbanlıq halal heyvan olmalıdır və şikəst, xəstə olmamalıdır, yəni qüsursuz olmalıdır (qurban kəsənin öz heyvanı, ya da halal pulla aldığı heyvan. Qoyun və dəvə qurban kəsilə bilər. İsmail qurbanı qoç olduğundan insanlar qurbanlıq olaraq məhz qoç kəsməyə üstünlük verirlər. Dəvənin qurban kəsilməsi isə yuxarıdakı ayədə öz əksini tapmışdır).

**2.** Qurbanlığı kəsən şəxs kifayət qədər yaxşı əməl sahibi kimi tanınmış olmalıdır.

**3.** Qurbanlıq həddindən çox iti olan bıçaqla kəsilməlidir ki, heyvanı incitməsin.

**4.** Kəsilmiş qurbanlığın yeyilməyən hissələri itə, pişiyə ehsan edilməlidir və qanı təmiz bir yerdə torpağa bastırılmalıdır.

**5.** Qurbanlıq heyvanı kəsərkən Allahın adını çəkməklə dua oxumaq lazımdır.

**6.** Qurbanlıq paylanarkən pay veriləcək ailənin üzvlərinin sayı nəzərə alınmalıdır ki, bir dəfə yeməkləri üçün doyumluq olsun.

**7.** Qurbanlıq paylanarkən onun qurban əti olduğunu qeyd etmək mütləq lazımdır.

**8.** Qurbanlıq alan kəs:-Allah qurbanınızı qəbul etsin! Ağzınız şirin olsun!- deməlidir.

**9.** Qurbanlıq ətlə içki içmək olmaz və bu günah sayılır.

**10.** Qurbanlıq ətdən yeyən hər kəs mütləq:-Allah qurbanınızı qəbul etsin!-deyib, "Həmdi-səna" edərək "Əl-Fatihə" və "Əl-İxlas" surələrini söyləməlidirlər.

## 4.10. Allahı zikr etmək

**"Zikrun"** ərəb dilində:**-zikr etmək–yada salmaq** mənasını bildirir. Quranda insanların hər an onu yaradanı–Allahı xatırlamaları tələb olunur:-Bilin ki, qəlblər yalnız Allahı zikr etməklə aram tapır!(13/28) Səhər-axşam yalvararaq, qorxaraq, səsini qaldırmadan ürəyində Rəbbini yad et və qafillərdən olma! (7/205)...Allah sirri də, sirdən daha gizli olanı məxfini də bilir. Allah nəinki qəlblərin sirlərindən, hətta ani olaraq ürəklərdən keçən gizli niyyətlərdən də xəbərdardır. Buna görə özünü yorub uca səslə dua, yaxud zikr etmə. Əsas məsələ Allaha edilən ibadətin səmimiyyətidir. (20/7) Hər bir insan çalışıb daima onu yaradanı-Rəbbini yad etməlidir ki, O da bəndəsini yad etsin. İnsan daima bilməlidir ki: -unudarsa, unudulacaqdır!

### 4.11. Allaha şükr etmək

Müntəzəm olaraq Allaha şükr etmək insanın özü üçün çox əhəmiyyətlidir. Şükr etmək insanı Allaha qarşı nankorluqdan, asi olmaqdan və kafirləşməkdən xilas edir. Şükr etmək üçün insan ətrafındakı gözəllikləri, ona bəxş olunmuş nemətləri görməyi, dərk etməyi bacarmalıdır. İnsan dara düşdükdə, problemlərlə qarşılaşdıqda, xəstələndikdə, qəfləti qəzaya düçar olduqda, sevdiklərindən uzağa düş-dükdə:-Bundan da pis ola bilərdi–deyə, olanlara şükr etdikdə dözümlülük yaranır. İnsan mətinləşir, səbrli olur, ağılla düşünür, nə etmək lazım olduğuna ağlının kəsəri ilə qərar verir. Bu zaman insan ruhdan düşmür, əksinə, çıxış yolu düşünmək imkanı qazanır. Olanlara sinə gərməyi bacarır. Həyatını yeni bir axara yönəldərək düşdüyü vəziyyətdən nəticə çıxartmaqla yanaşı, necə hərəkət etməli olmasına düzgün qərar verə bilir:-Əgər (Allahin nemətlərinə) **şükr** etsəniz, sizin bu şükrünüz Ona xoş gələr...Yalnız Allaha ibadət et və (Onun nemətlərinə) şükr edənlərdən ol! (39/7)...Allah insanlara lütfkardır, lakin insanların çoxu (Onun lütfünə) şükr etməz. (40/61)...sizi əhv etdik ki, bəlkə şükr edəsiniz! ...Məni xatırlayın ki, Mən də sizi yada salım! Mənə şükr edin, kafir olmayın!...Ey iman gətirənlər! Sizə verdiyimiz ruzilərin təmiz və halalından yeyin!...Ona şükr edin!...Allah...sizi düz yola yönəltməsinə görə Ona təzim və bəlkə də şükr edəsiniz...Həqiqətən, Allah insanlara lütf edəndir, lakin insanların bir çoxu şükr etməzlər!(2/152,172,185,243) ...Allaha şükr edən olmaq üçün Ondan qorxun!...Allah şükr edənlərə mükafat verər!...Şükr edənləri əlbəttə mükafatlandıraca-

ğıq!(3/123, 144,145)...Allah şükrə qiymət verən və hər şeyi biləndir!(4/147)...Tərifə, şükrə layiq olan da Odur!(41/27)

## 4.12. Nəzir vermək

"**Allah yolunda nəzir vermək**" anlayışı hər bir insana məlumdur. Belə ki, hər kəs dua edərək Allahdan müşkül işlərinin düzəlməsinə yardım istəməlidir və əvəzində Allah yolunda nəzir verəcəyini bəyan etməlidir. Nəzir vermək yalnız ruzi qazananlara aiddir. Uşaqlar, şagirdlər, tələbələr və qocalar nəzir verməyə borclu deyillər. Çünki, onlar işləmirlər və valideynlər və ya dövlət tərəfindən onlara yardım edilir. Yardım edilən şəxsin özünün eytiyacı olduğundan Allah yolunda nəzir verməsinə Tanrısı razı olmaz, onların nəzir verməməsində günah yoxdur:-(Malınızı) Allah yolunda xərcləyin, öz əlinizlə, özünüzü təhlükəyə atmayın, yaxşılıq edin! Allah yaxşılıq edənləri sevir!(2/195)...Allah yolunda malları və canları ilə vuruşanları Allah yanında ən yüksək dərəcələr gözləyir. Onlar xeyirə qovuşanlar, nicat tapanlardır.(9/20) (Ya Məhəmməd!) səndən (Allah yolunda) nə verəcəkləri haqqında soruşanlara söylə:-Malınızdan verəcəyiniz şey ata-anaya, (yoxsul) qohumlara, yetimlərə, miskinlərə və (yolda pulu qurtaran) müsafirlərə məxsusdur. Şübhəsiz ki, Allah etdiyiniz xeyir işi biləndir.(2/215) (Ya Məhəmməd!)...Allah yolunda nəyi paylamalı olduqlarını soruşanlara isə de ki:-Eytiyacınızdan artıq qalanını (möhtaclara) payla-



**Dilənçi qadın.**

yın!...(2/219) Heç bir kəsə minnət qoymadan, əziyyət verMədən mallarını Allah yolunda sərf edənlərin Rəbbi yanında mükafatı böyükdür. Onların (axirətdə) heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər.(2/262) Ey iman gətirənlər! Qazandığınız və sizin üçün torpaqdan yetişdir-diyiniz şeylərin ən pak (halal) və yaxşılarından (Allah yolunda) sərf edin!...(2/267) (Allah yolunda) xərclədiyiniz və nəzir etdiyiniz hər hansı şeyi, şübhəsiz ki, Allah bilir, lakin (xəsislik göstərib) özlərinə zülm edənlərin (qiyamət günü) heç bir köməkçisi olmaz!(2/270)...Malınızdan sərf etdiyiniz hər hansı bir şeyin xeyri (mənfəəti) ancaq özünüz üçündür. Siz onu yalnız Allahın razılığını qazanmaq üçün verirsiniz. Malınızdan verdiyiniz hər hansı bir şeyin əvəzi tamamilə sizə ödəniləcəkdir. Sizə əsla zülm edilməz!(2/272) Sevdiyiniz şeylərdən (Haqq yolunda) sərf etməyincə savaba çatmazsınız. Şübhəsiz ki, Allah (Onun yolunda) xərclədiyiniz hər şeyi biləndir!(3/92) Allaha və Peyğəmbərinə iman gətirin! Sizi varis etdiyi maldan (Onun yolunda) xərcləyin! Sizdən iman gətirib (mal-dövlətini Allah yolunda) sərf edənləri böyük bir mükafat gözləyir. Sizə nə olub ki, (mal-dövlətinizi) Allah yolunda xərcləmirsiniz? Halbuki, Göylərin və Yerin mirası ancaq Allahındır. Kimdir o kəs ki, Allah yolunda könül xoşluğu ilə borc versin. Allah da onun əvəzini qat-qat artırsın?! Onu həm də çox qiymətli bir mükafat (Cənnət) gözləyir!(57/7,10,11)...Allah yolunda gözəl (könül xoşluğu ilə) bir borc verin!...(73/20)...siz mal-dövlətinizin yalnız qırxdan birini(1/40) Allah yolunda sərf etməyə çağırılan kimsələrsiniz... (47/38)

# V FƏSİL. RƏQƏMLƏRİN SİRRİ

Hər kəs rəqəmləri saymağı və onlardan lazım olan anda istifadə etməyi bacarır. Bütün fənlərin öyrənilməsində bu rəqəmlərdən istifadə edir. Hətta mağazalara gedəndə belə bu rəqəmlərin köməyi ilə alış-veriş edirlər. Rəqəmlərin bəziləri el arasında **"müqəddəs rəqəmlər"** adlanır və insanlar bu rəqəmlərə xüsusi münasibət bəsləyirlər. Nə üçün bəzi rəqəmlərə qarşı insanların xüsusi münasibəti vardır? Belə xüsusi münasibətin nədən irəli gəlir?

1,2,3,4,5,6,7,8,9,0. Bunlar əsas rəqəmlərdir. Qalan rəqəmlər bu rəqəmlərin birləşməsindən yaranır.

**1**–"Bir" rəqəmi **"tək"** adlanır. Bir rəqəmi bütün rəqəmlərdən öndə dayanır. Bir rəqəminin öndə dayanmasının xüsusi anlamı vardır. Belə ki, müqəddəs Qurani Kərimdə "tək" olmağın kimə məxsus olduğu barədə xüsusi ayələr mövcutdur:

-Sizin tanrınız **tək** olan Allahdır, Ondan başqa tanrı yoxdur!...(2/163)...Allah hər şeyin Xaliqidir! O, hər şeyə qalib olan tək **bir** Tanrıdır!(13/16) **Bir** olan Allahdan başqa heç bir tanrı yoxdur!(5/73) (Ya Məhəmməd!) De ki:-...Mənə vəhy olunur ki, sizin Rəbbiniz **bir** olan Allahdır!...(41/6) Allahla yanaşı başqa **bir** tanrı qəbul etmə. Yoxsa xar olar, zəlil vəziyyətə düşərsən!...Allahla yanaşı başqa tanrı qəbul etmə, yoxsa qınanmış və (Allahın mərhəmətindən) kənar edilmiş bir halda Cəhənnəmə atılarsan! (17/22,39) ...Ondan başqa heç **bir** tanrı yoxdur...(35/3) O Allah ki, ...mülkündə heç bir şəriki yoxdur...(25/2)...O, **tək** olan...hər

şeyə qalib olan Allahdır!(39/4) Bu sizin Rəbbiniz, hər şeyin xaliqi olan Allahdır. Ondan başqa heç bir tanrı yoxdur... Ondan başqa heç bir tanrı yoxdur!...Əbədi olan ancaq Odur. Ondan başqa heç bir tanrı yoxdur!...(40/3, 62,65) Bu (Quran), insanlar üçün elə bir moizədir ki, onunla həm qorxsunlar, həm də Allahın **tək bir** tanrı olduğunu bilsinlər... (14/52) Allahdan başqa heç bir tanrı yoxdur...Həqiqətən, Allah tək **bir** tanrıdır...(4/87,171)...De ki:-O tək **bir** tanrıdır. Mən sizin şərik qoşduqlarınızdan tamamilə kənaram! (6/19,)...Sizin tanrınız ancaq **bir** olan Allahdır!...(21/108) ...Onunla yanaşı heç bir tanrı yoxdur! Əgər belə olsaydı, onda hər bir tanrı əlahiddə öz yaratdıqları ilə gedər və onların bir qismi digərinə üstün olmağa çalışardı...Allah ucadır. Ondan başqa heç bir tanrı yoxdur...Kim Allahla yanaşı başqa bir tanrıya ibadət edərsə...onun cəzasını Allah özü verəcəkdir...(23/91,116,117)...**Bir** olan Allahdan başqa heç bir tanrı yoxdur...(5/73) And olsun cütə və **tək**ə!(89/3) Allahdan başqa heç bir tanrı yoxdur...(20/8) Allah bir ada-mın köksündə iki ürək yaratmamışdır. Eləcə də iki Allah ola bilməz!...(33/4)

Yuxarıdakı ayələrdən gördünüz ki, **Allahın tək tanrı olduğu** Qurani Kərimdə insanların diqqətinə çatdırılır. Bu səbəbdən də bir bütün rəqəmlərdən öndə dayanır.

**2-İki** rəqəmi **cüt** adlanır. İki rəqəmi birdən sonra gəlir. Yəqin ki, nişan konfeti paylayarkən hər kəsə iki konfet verdiklərini görmüsünüz. Heç fikirləşmisinizmi nə üçün elimizin belə bir adəti vardır? Bəs valideynləriniz necə, sizə bu barədə məlumat vemşıdilərmi? Yəqin ki, yox!

-Biz hər şeydən **cüt-cüt** yaratdır. Bəlkə düşünüb ibrət alasınız!(51/49)...ondan biri kişi, biri qadın olmaqla **iki** cift yaratdıq.(75/39) Biz ona iki yolu (Cənnətin və Cəhənnəmin yolunu, küfr və inamı, xeyir və şəri) göstərmədikmi?(90/10) Biz hər şey-dən **cüt-cüt** yaratdıq. Bəlkə düşünüb ibrət alasınız!(51/49) Biz sizləri **cüt-cüt** yaratdıq.(78/8) Xatırla ki, (insanın) sağında və solunda (onun bütün əməllərini) yazan **iki** mələk oturmuşdur.(50/17) (Ya Peyğəmbər!) De ki:- Doğrudanmı siz yeri **iki** gündə yaradanı inkar edir və Ona şəriklər qoşursunuz?...Allah onları (səmaları) yeddi (qat) göy olaraq **iki** gündə əmələ gətirdi...(41/9,12) Və o Allah ki, (bütün canlılardan erkək və dişi olmaqla) ciftlər xəlq etdi...(43/12)...sizi **cüt-cüt** yaratmışdır...(35/11)...Biz sizi bir kişi və bir qadından yaratdıq...(49/13) **İki** məşriqin və **iki** məğribin Rəbbi Odur!(55/17) Onların **iki**sinin (Cənnət və Cəhənnəmin) arasında bir pərdə (sədd) vardır...(7/46)...Rəbbinin məqamından qorxanları iki Cənnət gözləyir. O **iki** Cənnətlərdə **iki** axar bulaq vardır. O **iki** Cənnətdə hər meyvədən **iki** növ vardır. O **iki** Cənnət yamyaşıldır!(55/46,50,52,64) And olsun **cüt**ə və təkə!(89-3)...Doğrudanmı yeri **iki** gündə yaradanı inkar edir və Ona şəriklər qoşursunuz?...(41/9)...içərinizdə **iki** şahid tutun...(65/2)

Ayələrdən görünür ki, **Allah özü tək olduğuna görə hər şeyi cüt yaratmışdır**. Bu səbəbdən də birdən sonra iki rəqəmi dayanır.

**3-Üç** rəqəmi ikidən sonra gəlir. “Atalar üçdən deyib!” misalını da yəqin ki, eşitmisiniz. Görəsən nə üçün atalar məhz üçdən deyib?

-Girin (Cəhənnəm tüstüsünün) **üç** qola ayrılmış kölgəsinə! (77/30)...O sizi analarınızın bətnində **üç** zülmət (pərdə, uşaqlıq və qarın) içində yaranışdan-yaranışa salaraq yaradır...(39/6) Sur (I dəfə) çalınacaq, Allahın istədiyi kimsələrdən başqa dərhal hamı öləcək! Sonra bir daha çalınan kimi (II dəfə) onlar qalxıb (qəbirlərdən) müntəzir olacaqlar...(39/68) Siz (Ey insanlar!) **üç** zümrəyə ayrılacaqsınız! Sağ tərəf sahibləri!...Sol tərəf sahibləri!..Və bir də öndə olanlar!...(56/6.8,10)

Gördüyünüz kimi qiyamət günü Allah insanları məhz üç yerə ayıracaqdır. Hal-hazırda da insanlar üç qrupa bölünürlər:-möminlər, kafirlər və müşriklər. Qanunlar qəbul olunduqda da insanlar səsvermə zamanı üç qrupa bölünürlər:-lehinə, əleyhinə və bitərəf.

**4–Dörd** rəqəmi üçdən sonra dayanır:-O,...yer əhlinin ruzisini **dörd** gündə (mövsümdə) müəyyən etdi.(41/10) Həqiqətən Allah yanında ayların sayı...12-dir. Onlardan **dörd**ü haram aylardır (rəcəb, zülqədə, zülhiccə və məhər-rəm ayları haram aylardır. Bu aylarda qanın tökülməsi haram edilmişdir)...(9/36) Arvadlarına zina istinad edib özlərindən başqa şahidi olmayanların hər biri sözünün doğru olduğuna dair **dörd** dəfə Allahın adı ilə (Əşhədu-billahi–Allahı şahid gətirirəm, deyə) şəhadət verməlidrir...(24/6)

İnsanın ətrafında da **dörd** mələk vardır:-İnsan üçün öndən və arxadan təqib edən mələklər vardır. Onlar insanı Allahın əmri ilə qoruyurlar....Xatırla ki, (insanın) sağında və solunda (onun bütün əməllərini) yazan iki mələk oturmuşdur.(13/11, 50-17)

**5–Beş** dörddən sonra dayanır. Gündə **beş** dəfə namaz qılmaq möminlərə Allah tərəfindən əmr edilmişdir:-Ya Məhəmməd!...Günəş doğmamışdan və batmamışdan əvvəl... gecənin bir vədəsində və günorta radələrində də Rəbbini öyüb təqdis et!...ki, razı olsun! (20/130) Günortadan gecənin qaranlığınadək namaz qıl. Sübh namazı da qıl!...(17/78) ...Namaz möminlərə müəyyən vaxtlarda fərz (vacib) edilmişdir. (4/103)

İslamın **beş** əsası var:-kəlimeyi-şəhadət, namaz, zəkat, oruc və həcc.

**6–Altı beşdən sonra dayanır:**-Göyləri, yeri və onların arasındakıları **altı** gündə xəlq edən, sonra ərşi yaradıb hökmü altına alan Allahdır...(32/12)...Kainatın yaradılması **altı** gün ərzində başa çatdı...(41/12) And olsun ki, Biz göyləri, yeri və onların arasında olanları **altı** gündə yaratdıq və Bizə heç bir yorğunluq da üz vermədi. (50/38) Göyləri və yeri altı gündə xəlq edən, ərşi yaradıb hökmü altına alan Odur!... (57/4) O göyləri, yeri və onların arasındakıları **altı** günə xəlq edən, sonra ərşi yaradıb ona hakim olan Rəhmandır!... (25/59)...Göyləri və yeri **altı** gündə xəlq edən...Allahdır! (10/3) Rəbbiniz göyləri və yeri **altı** gündə xəlq edən, sonra ərşi yaradıb hökmü altına alan...Allahdır!...(7/54)...Göyləri və yeri **altı** gündə xəlq edən...Allahdır!...(10/3)...Göyləri və yeri **altı** gündə yaradan Odur! (11/6)

Deməli, Allah kainatı-yeri, göyü və onların aralarındakıları altı gündə yaratmışdır.

**7–Yeddi** altıdan sonra gəlir və xalq arasında uğurlu, müqəddəs rəqəm hesab olunur:-Allah onları (səmaları)

**yeddi** (qat) göy olaraq iki gündə əmələ gətirdi...(41/12) Yer üzündə nə varsa, hamısını sizin üçün yaradan, sonra səmaya üz tutaraq onu **yeddi** qat göy halında düzəldib nizama salan Odur!...(25/2) Üstünüzdə **yeddi** möhkəm göy qurduq! (78/12) **Yeddi** (qat) göyü və bir o qədər də yeri yaradan Allahdır!...(65/12)...səmaya üz tutaraq onu **yeddi** qat halında düzəldib nizama salan Odur!(2/29) And olsun ki, Biz sizin üstünüzdə **yeddi** (qat) göy yaratdıq...De ki:-**Yeddi** (qat) göyün Rəbbi, o böyük, əzəmətli ərşin sahibi...Allahdır! (23/17, 86,87) **Yeddi** göyü qat-qat yaradan Odur!...(67/3) Məgər görmürsünüz ki, Allah **yeddi** göyü qat-qat necə yaratdı?! (71/15) Üstünüzdə **yeddi** möhkəm göy qurduq.(77/12) **Yeddi** göy, yer...(17/44) Cəhənnəmin **yeddi** qapısı-təbəqəsi var...Ya Məhəmməd! Biz sənə hər namazda oxunub təkrarlanan **yeddi** ayəni ("Əl-fatihə" surəsinin ayələrini) və böyük, əzəmətli Quranı verdik.(15/44,87) Göyün, **yeddi** qat səmanın...(25/25) Cənnətin **yeddi** qapısı və **yeddi** mərtəbəsi var. Biz, həqiqətən, insanı tərtəmiz (süzülmüş) palçıqdan yaratdıq. (Biz Adəmi torpaqdan, Adəm övladını isə süzülmüş xalis palçıqdan-nütfədən xəlq etdik). Sonra onu (Adəm övladını) nütfə halında möhkəm bir yerdə (ana bətnində) yerləşdirdik. Sonra nütfəni laxtalanmış qana çevirdik, sonra laxtalanmış qanı bir parça ət etdik, sonra o bir parça əti sümüklərə döndərdik, sonra sümükləri ətlə örtdük və daha sonra onu bambaşqa (yeni) bir məxluqat olaraq yaratdıq. Yaradanların ən gözəli olan Allah nə qədər (uca, nə qədər) uludur! (23/12-14) Bu ayədə də insanın **yeddi** yaradılış mərhələsindən keçməsi bildirilmişdir.

Ayələrdən aydın olur ki, Yer, Göy, Cənnət, Cəhənnəm, yeddi təbəqədən ibarət yaradılmışdır. İnsan doğulana qədər ana bətnində yeddi yaradılış mərhələsindən keçir. Yəqin ki, bu səbəbdən yeddi rəqəmi müqəddəs hesab olunur.

**8–Səkkiz** yeddidən sonra dayanır:-...Həmin gün (qiyamət günü) sənin Rəbbinin ərşini **səkkiz** mələk daşıyacaqdır! (69/17) Allah (o heyvanlardan) **səkkiz** cift yaratdı (erkək və dişi olmaqla qoyun, keçi, inək, dəvə)...(6/143)

**9–Doqquz** səkkizdən sonra dayanır. "Ət-Tövbə" surəsi Quranın **9**-cu surəsidir və bu yeganə surədir ki, "Bismillahir-Rahmənir-Rahim"(rəhimli və mərhəmətli Allahın adı ilə) kəlmələri ilə başlamır. Bu surədə günah edən insanların tövbə edərək sidq ürəklə Allahın doğru yoluna yönəlmələri tövsiyyə olunur. Bildirilir ki, Allah özünə rəhimli olmağı yazmışdır və tövbə edib düz yola qayıdanları bağışlayır.

-Biz Musaya **doqquz** aşkar möcüzə verdik...(17/101)

**0–Sıfır** dairə şəklində olmaqla doqquzdan sonra gəlir və rəqəmlərin sonuncusudur:-Məgər **insan** elə güman edir ki, o, başlı-başına (cəzasız) buraxılacaq? (75/36) Məgər onlar başlarının üstündəki göyü və ayaqlarının altındakı Yeri görmürlərmi? Yer və göy onları elə əhatə etmişdir ki, **bu dairədən heç yerə çıxıb qaça bilməzlər**. Əgər istəsək, onları yerə batırar, yaxud göyün bir parçasını onların başına endirərik...(34/54)...onlar üçün qaçıb can qurtarmağa heç bir yer yoxdur!(42/35)...Axır dönüş də Bizim hüzurumuzadır!(50/43) ...Bütün işlər axırda ancaq Allaha qayıdacaqdır!(57/5) Həqiqətən biz Rəbbimizin hüzuruna qayıdacağıq!...Siz Onun

hüzuruna qaytarılıb gətiriləcəksiniz!(43/14,85) Hamınızın axır dönüşü Onadır!...(10/4)

## 5.1. Vurma cədvəli

Hər biriniz ilk dəfə hesab dərsi keçərkən yəqin ki, bu vurma cədvəlini öyrənmisiniz. Çünki vurma cədvəlini bil-

**Vurma cədvəlinin yekun nəticələri.**

| | | | |
|---|---|---|---|
| 1x1=1<br>1x2=2<br>1x3=3<br>1x4=4<br>1x5=5<br>1x6=6<br>1x7=7<br>1x8=8<br>1x9=9<br>1x10=10=1+0=1 | 2x1=2<br>2x2=4<br>2x3=6<br>2x4=8<br>2x5=10=1+0=1<br>2x6=12=1+2=3<br>2x7=14=1+4=5<br>2x8=16=1+6=7<br>2x9=18=1+8=9<br>2x10=20=2+0=2 | 4x1=4<br>4x2=8<br>4x3=12=1+2=3<br>4x4=16=1+6=7<br>4x5=20=2+0=2<br>4x6=24=2+4=6<br>4x7=28=2+8=10=1+0=1<br>4x8=32=3+2=5<br>4x9=36=3+6=9<br>4x10=40=4+0=4 | 5x1=5<br>5x2=10=1+0=1<br>5x3=15=1+5=6<br>5x4=20=2+0=2<br>5x5=25=2+5=7<br>5x6=30=3+0=3<br>5x7=35=3+5=8<br>5x8=40=4+0=4<br>5x9=45=4+5=9<br>5x10=50=5+0=5 |

| | | |
|---|---|---|
| 7x1=7<br>7x2=14=1+4=5<br>7x3=21=2+1=3<br>7x4=28=2+8=10=1+0=1<br>7x5=35=3+5=8<br>7x6=42=4+2=6<br>7x7=49=4+9=13=1+3=4<br>7x8=56=5+6=11=1+1=2<br>7x9=63=6+3=9<br>7x10=70=7+0=7 | 8x1=8<br>8x2=16=1+6=7<br>8x3=24=2+4=6<br>8x4=32=3+2=5<br>8x5=45=4+5=9<br>8x6=48=4+8=12=1+2=3<br>8x7=56=5+6=11=1+1=2<br>8x8=64=6+4=10=1+0=1<br>8x9=72=7+2=9<br>8x10=80=8+0=8 | 10x1=1+0=1<br>10x2=20=2+0=2<br>10x3=30=3+0=3<br>10x4=40=4+0=4<br>10x5=50=5+0=5<br>10x6=60=6+0=6<br>10x7=70=7+0=7<br>10x8=80=8+0=8<br>10x9=90=9+0=9<br>10x10=100=1+0+0=1 |
| 6x1=6<br>6x2=12=1+2=3<br>6x3=18=1+8=9<br>6x4=24=2+4=6<br>6x5=30=3+0=3<br>6x6=36=3+6=9<br>6x7=42=4+2=6<br>6x8=48=4+8=12=1+2=3<br>6x9=54=5+4=9<br>6x10=60=6+0=6 | 3x1=3<br>3x2=6<br>3x3=9<br>3x4=12=1+2=3<br>3x5=15=1+5=6<br>3x6=18=1+8=9<br>3x7=21=2+1=3<br>3x8= 24=2+4=6<br>3x9=27=2+7=9<br>3x10=30=3+0=3 | 9x1=9<br>9x2=18=1+8=9<br>9x3=27=2+7=9<br>9x4=36=3+6=9<br>9x5=45=4+5=9<br>9x6=54=5+4=9<br>9x7=63=6+3=9<br>9x8=72=7+2=9<br>9x9=81=8+1=9<br>9x10=90=9+0=9 |

məyən riyazi əməlləri edə bilmir. Yuxarıdakı cədvəldə hər birinizin yaxşı bildiyi vurma cədvəli verilmişdir. Lakin cədvələ diqqətlə baxsanız, adi vurma cədvəlindən bir az fərqli görəcəksiniz. Vurma cədvəlinin özündə qəribə bir qanunauyğunluq vardır. Sizə ixtisasca iqtisadçı olan Gülnarə xanım Quliyevanın vurma cədvəlində aşkara çıxardığı qanunauyğunluğu da təqdim etməyi məsləhət bildik:

**1,2,4,5,7,8,10** rəqəmlərinin müxtəlif rəqəmlərlə vurulmasının son nəticəsində yenə də 1-dən 9-a qədər rəqəmlər alınır. **6** və **3** rəqəmlərinin son nəticələridən **3,6,9** rəqəmləri alınır. **9** rəqəminin vurulmasının son nəticələri isə yalnız **9**-a bərabərdir.

## 5.2. Qurani Kərimdə rəqəm göstəriciləri

Müqəddəs Qurani Kərimdə bəzi sözlərin də eyni sayda qeyd edilməsi özü bir möcüzədir. Məsələn**:-"Həyat"** və **"ölüm"** sözlərinin hərəsi 145 dəfə, yaxşı və pis əməl sözlərinin hərəsi 167 dəfə, mələk və şeytan sözlərinin hərəsi 88 dəfə, iman və küfr sözlərinin hərəsi 25 dəfə, zənginlik 26 dəfə, kasıblıq ondan 2 dəfə az-13 dəfə işlənmişdir. Asanlıq 36 dəfə, ondan 3 dəfə az-12 dəfə çətinlik sözü yazılmışdır. Kişi və qadın sözlərinin hərəsi 23 dəfə qeyd edilmişdir. Cəza 117 dəfə, ondan 2 dəfə çox -234 dəfə bağışlanmaq sözləri göstərilmişdir. Bitki və ağaclar sözlərinin hərəsi 26 dəfə təkrarlanır. Ağıl və nur sözlərinin hərəsi 49 dəfə təkrarlanmışdır. 365 dəfə-gün sözü təkrarlanmışdır ki, bu da bir ildə 365 gün olduğuna işarədir. Ay sözü 12 dəfə qeyd edilmişdir. Bu

da ayların 12 olmasına bir işarədir. Torpaq kəlməsi Quranda 13 dəfə, dəniz kəlməsi isə 32 dəfə təkrar olunur. Bu rəqəmləri cəmlədikdə 45 alınır. Torpaq 13 dəfə təkrar olunduğundan, əgər 13–ü 45-ə bölsək 28,9 % edər. Dəniz kəlməsi isə 32 dəfə təkrar olduğundan 32-ni 45-ə bölsək 71,1% edər. Bu rəqəmlər Yer kürəsində su ilə quru sahəsinin real nisbətidir. Yəni Yer kürəsinin sahəsi 510 mln.kv.km=100%-dirsə, onda, su sahəsi 361 mln.kv.km =71,1%, qurunun sahəsi 149 mln.kv.km=28,9%-dir. Rəqəmlərin araşdırılmasından belə bir nəticəyə gəlmək olar ki, Qurani Kərimdə verilmiş hər bir rəqəmin real aləmdə özünün əks etdiyi mənaları vardır. Bu səbəbdən də rəqəmləri bir-birindən ayırmaq, bəzilərinə müqəddəs, bəzilərinə isə nəs rəqəm kimi baxmaq olmaz.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


**1.** Qurani Kərim, ərəb dilindən tərcümə, Z.M.Bünyadov, V.M.Məmmədəliyev. 652 səh.

**2.** Əli Hikmət Bərgi və Osman Kəsikoğlu "Xatəmül – Ənbiya, Həzrəti və həyatı", Ankara, Diyanət İşləri Başqanlığı Nəşri, 1993, 585 səh.

**3.** Əhmədağa Əhmədov "Ərəb əlifbası "Farsi-türki" mənzum lüğət", Bakı, "Təbib" nəşriyyatı, 1995, 119 səh.

**4.** Həsən Muini "On dörd məsum haqqında sual-cavab", "Əhli-beyt məktəbi" nəşriyyatı, 1998/1419, 192 səh.

**5.** Harun Yəhya "Quran möcüzələri", çevirəni Elşad Miri, 2002, 300 səh.

**6.** E.M.Əsgərov, N.Ə.Rəhimov "İslamın əsasları", fəlsəfə, tarix və əxlaq baxımından, Dini araşdırmalar mərkəzi, Bakı, 2002, 319 səh.

**7.** F.A.Rüstəmov. Pedaqogika tarixi (Xarici ölkələrdə təhsil və pedaqoji fikir tarixi). Dərslik. Bakı, "Nurlan", 2006, 748 səh.

**8.** O.Qüdrətov, H.Qüdrətov. Görkəmli şəxsiyyətlərin həyatından. Peyğəmbər: Həyatı və kəlamları, "Bilik" cəmiyyəti, Bakı, 1990, 174 səh.

**9.** A.Ə.Axundzadə, Müqəddəs peyğəmbərlər tarixi. Bakı, Azərnəşr, 1993, 140 səh.

## MÜNDƏRİCAT

**Giriş**..........................................................................................2
**I Fəsil. Mədəniyyət.** Əxlaq mədəniyyəti......................................6
Danışıq mədəniyyəti..........................................................................9
Geyim mədəniyyəti.........................................................................12
Musiqi mədəniyyəti.........................................................................18
Rəqs mədəniyyəti............................................................................21
Sağlamlıq mədəniyyəti....................................................................22
Gigiyena mədəniyyəti......................................................................26
Bədənin tərbiyəsi.............................................................................27
Davranış qaydaları...........................................................................28
Öyüd-nəsihət....................................................................................35
Tövbə................................................................................................38
İnsanlar arasında münsibətlər..........................................................41
Qonşuluq münasibətləri...................................................................43
Qohumluq münasibətləri..................................................................46
Ailə münasibətləri............................................................................48
Ailə tərbiyəsi....................................................................................61
Boşanmaq mədəniyyəti...................................................................68
Vəzifəli şəxslərə qarşı münasibət....................................................71
Digər insanlara qarşı münasibət.......................................................72
**II Fəsil. Allah yaratmağa qadirdir**..............................................74
Mələklər və onların vəzifələri..........................................................74
Kainatın yaradılması........................................................................78
İnsanın yaradılması..........................................................................88
Peyğəmbərlər və onların missiyaları.............................................100
İmam. İmamın missiyası................................................................109
**III Fəsil. Din və onun mahiyyəti**...............................................117
İnanc...............................................................................................121
Səmavi dinlər.................................................................................123

Zəbur....................................................................................128
Tövrat...................................................................................129
İncil......................................................................................131
Qurani Kərim........................................................................132
Quranın oxunuş qaydaları....................................................138
Quranın quruluşu..................................................................143
Quranın məzmunu.................................................................151
Əbcəd hesabı.........................................................................159
Bəşəri dinlər.........................................................................161
Dinin əhəmiyyəti..................................................................163
**IV Fəsil. İbadət**....................................................................164
Kəlimeyi-şəhadət..................................................................165
Peyğəmbərə inanmaq............................................................166
Quran oxumaq.......................................................................168
Namaz qılmaq.......................................................................169
Zəkat vermək........................................................................174
Həcc ziyarəti.........................................................................175
Oruc tutmaq..........................................................................178
Dua etmək.............................................................................183
Qurban kəsmək.....................................................................186
Allahı zikr etmək..................................................................189
Allaha şükr etmək.................................................................190
Nəzir vermək.........................................................................191
**V Fəsil. Rəqəmlərin sirri**.....................................................193
Vurma cədvəli.......................................................................200
Qurani Kərimdə rəqəm göstəriciləri....................................202
**İstifadə olunmuş ədəbiyyat**..............................................203

AİLƏ KİÇİK BİR
"DÖVLƏT"DİR!
BU "DÖVLƏT"İN
ƏDALƏTLİ "ŞAHI" ATA,
AĞILLI VƏZİRİ İSƏ ANADIR!